www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 31 yanvar 2018-ci il Çərşənbə № 23 (6912) Qiyməti 60 qəpik

**Xəbər**

## Novruzda əfv olacaq - siyahıda kimlərin adı var?

yazısı səh.12-də

# PREZİDENTİN SEÇKİ İLİ STRATEGİYASI - ÜÇ MÜHÜM MƏSƏLƏ

Dövlət başçısı İlham Əliyev konfransdakı çıxışında müstəqil siyasət, dövlət təhlükəsizliyi və sosial rifahı önə çəkdi; bu çıxış təkcə hakimiyyətə gəldiyi 2003-cü ildən bu vaxtadək görülən işlərin hesabatı deyil, həm də oktyabrda keçiriləcək prezident seçkisinə hazırlıq proqramıdır




yazısı səh.9-da

**Gündəm**

### Rəsulzadənin 133-cü doğum günü



Bu gün partiyalar Cümhuriyyət banisinin Novxanıdakı abidəsi önündə toplaşacaq

yazısı səh.3-də

### Füzuli Məmmədov iki Qarabağ qazisinə ev bağışladı

yazısı səh.3-də

### Hafiz Hacıyev sabiq nazirləri biabır etdi

yazısı səh.6-da

### Virtual sorğu müxalifəti bir-birinə qatdı

yazısı səh.4-də

### Jurnalistlərdən Xədicə İsmayıla ilginc ittihamlar

yazısı səh.13-də

### İşğalçıya qarşı "sürünən müharibə" taktikası

yazısı səh.11-də

### Şəhid qızını maşınla vurub öldürənin məhkəməsi başladı

yazısı səh.14-də

### Prezidentliyə namizədlərin 40 min imza problemi

yazısı səh.4-də

### Leyla Şıxlinskayaya sonuncu xəbərdarlıq-prosesə gəlməsə...

yazısı səh.14-də

### Büdcədən pul alan partiyalar - 1 milyondan 100 minədək...

yazısı səh.4-də

### Hadı Rəcəblinin "varlılara aqressiya var" açıqlamasına reaksiyalar

yazısı səh.12-də

## Sərkisyana iki "nəfəskəsici" xəbər - biri okeanın o tayından, o biri...

Düşmən ölkə blokadanı yumşaltmaq hayında ikən Kremlin forpostu olmağın daha ağır bədəlini ödəmək zorunda qala bilər

yazısı səh.5-də



### Əli Həsənovdan Azərbaycanı hədəfə alanlara ciddi mesajlar

yazısı səh.5-də



Adil Nağıyev

### Ziya Bünyadovun qətlində iştirak edən şəxsin atasından növbəti şok açıqlamalar

yazısı səh.7-də



### Araz Ağalarov ABŞ-ın sanksiyalar siyahısına necə düşdü - təfərrüat

yazısı səh.10-da

YENİ MÜSAVAT
N 23 (6912) 31 yanvar 2018

## Təbrik

**Əli Bayramovun 40 yaşı tamam olması, Orxan İbrahimovun oğlunun dünyaya gəlməsi münasibətilə hər iki şəxsi iş yoldaşları ürəkdən təbrik edir. Yubilyara cansağlığı, daha gözəl yubileylər keçirməyi, Orxan bəyin isə oğlunun toyunu görməsini, gözəl günlərinə sevinməsini arzulayırlar.**



## İtkin düşmüş alpinistlərin axtarışı davam etdirilir

**Qubada dağlıq ərazidə itkin düşmüş "Gilavar" idman klubunun 3 üzvü - 1983-cü il təvəllüdlü Namin Bunyatzadə, 1990-cı il təvəllüdlü Babur Hüseynov və 1991-ci il təvəllüdlü Fəridə Cəbrayılzadənin axtarışları davam edir. Bu barədə "Gilavar" idman klubunun rəhbəri Ziya Qasımlı məlumat verib.**

Z.Qasımlının sözlərinə görə, Xınalıq və Tufandağ istiqamətində axtarışlar davam etdirilsə də, hələlik heç bir nəticə yoxdur: "Yanvarın 29-da küləkli hava şəraiti axtarışlara mane olurdu, ona görə də axtarışlar zəif aparılırdı. Amma bu gün yenidən axtarış işləri normal davam etdirilir. Axtarışlara könüllülər də qoşulub".

Klub rəhbəri bildirib ki, hazırda axtarışlar Quba rayonunun Xınalıq qəsəbəsində, Mahmuddərə adlanan ərazidə aparılır: "Alpinistlərin getdikləri ehtimal olunan bütün dağ-dərə, yamaclar, qar girvələri yaranan dərələr axtarılır".

Qeyd edək ki, ötən il dekabrın 23-də "Gilavar" hava və ekstrim idman klubunun 3 üzvü - Fəridə Cəbrayılzadə, Babur Hüseynov və Namin Bünyatzadə Quba rayonundan Tufandağ istiqamətində hərəkət edərkən onlarla əlaqə kəsilib.

## Afrində daha iki kənd terrorçulardan azad olunub

**Suriyanın Afrin bölgəsində daha iki kənd terrorçulardan azad olunub. Türkiyə Silahlı Qüvvələrinin apardığı "Zeytun budağı" əməliyyatı çərçivəsində Afrinin qərbindəki strateji yüksəklikdə atışma zamanı 15 terrorçu zərərsizləşdirilib.**

Türkiyə Ordusu və "Azad Suriya Ordusu" Afrinin qərbindəki Süleyman Xəlil və Sati Şaği kəndləri də PYD terrorçularından azad edilib.

Xatırladaq ki, yanvarın 20-də Türkiyə Silahlı Qüvvələri Suriyanın Afrin bölgəsində PYD, YPG və İŞİD terrorçularına qarşı əməliyyata başlayıb. "Zeytun budağı" adı altında keçirilən əməliyyatlara Türkiyə Hərbi Hava Qüvvələrinin "F-16" təyyarələri də cəlb olunub.

## Heydər Əliyev Aeroportunun adı dünyanın ən gözəl hava limanları siyahısında

Dünyanın nüfuzlu xəbər portallarından olan "Business Insider" dünyanın ən gözəl 14 hava limanının siyahısını açıqlayıb.

Virtualaz.org bildirir ki, siyahıda Heydər Əliyev Beynəlxalq Aeroportu 6-cı yerdə qərarlaşıb.

Siyahıda ilk beşlikdə isə Adolfo Suares Madrid-Baraxas Aeroportu (İspaniya), Vankuver Beynəlxalq Aeroportu (Kanada), Sinqapur Çangi Aeroportu, Kuala-Lumpur Beynəlxalq Aeroportu (Malayziya), Münhen Aeroportu (Almaniya) yer alıb.

## Tiflis metrosunda xəsarət alanlar arasında Azərbaycan vətəndaşı yoxdur

**"Tiflis metrosunun "Varketili" stansiyasında tavanın uçması nəticəsində xəsarət alanlar arasında Azərbaycan vətəndaşı yoxdur".**

Bunu Azərbaycanın Gürcüstandakı səfirliyinin müşaviri Samirə Ağayeva deyib. (APA)

"Xəsarət alanlar arasında Azərbaycan vətəndaşlarının olması barədə məlumat almamışıq. Səfirlikdə qəbul açıqdır. Azərbaycan vətəndaşlarının xəsarət almaları ilə bağlı səfirliyə hələ heç bir müraciət daxil olmayıb", - deyə S.Ağayeva əlavə edib.

Qeyd edək ki, Tiflis metrosunun "Varketili" stansiyasında bu gün səhər saatlarında tavanın uçması nəticəsində 14 nəfər xəsarət alıb.

### Başsağlığı

**Rauf Arifoğlu və "Yeni Müsavat" qəzetinin kollektivi**
**Razi Nurullayevə**
**Anasının**
**vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

# İsa Qəmbərin səhhəti aktiv işə imkan verirmi?

## Aida Qəmbər: "Xəstəxanadan sonrakı bir həftədə..."

**Bir müddət əvvəl ürəyində yaranan problemlərə görə Mərkəzi Klinik Xəstəxanada müalicə olunan Müsavat Partiyasının sabiq başqanı, Milli Strateji Düşüncə Mərkəzinin sədri İsa Qəmbər artıq iş fəaliyyətini bərpa edib.**



Bir neçə gün əvvəl Müsavat Partiyası Məclisinin toplantısı keçirilib, 2018-ci il prezident seçkilərində partiyanın namizədinin İ.Qəmbər olması barədə qərar qəbul olunub. Məclisin toplantısında İ.Qəmbər özü də iştirak və çıxış edib.

İ.Qəmbərin səhhəti aktiv siyasi fəaliyyət göstərməyinə imkan verirmi? Həkimləri ona işləməklə bağlı hansısa məhdudiyyət tətbiq ediblərmi? Suallara cavab verən İ.Qəmbərin xanımı Aida Qəmbər bildirdi ki, həkimlər xəstəxanadan çıxdığı ilk həftə üçün gərgin işi qadağan ediblərmiş: "İndi, çox şükür, səhhəti qaydasındadır, artıq işə də çıxır. Həkimlər bir həftəlik müddət qoymuşdular aktiv işləməməsi üçün, ondan sonrası üçün hər hansı xəbərdarlıq edilməyib. Yəni İsa bəyin fəaliyyəti üçün hansısa problem yoxdur".

❑ **DÜNYA, "Yeni Müsavat"**



## Teleqüllənin yerinin dəyişdirilməsi ehtimalı yoxdur

**"Bayıl yamacındakı sürüşmə ilə əlaqədar Teleqüllənin yerinin dəyişdirilməsi ehtimalı yoxdur".**

Bunu "Report"a açıqlamasında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Geoloji Kəşfiyyat Xidmətinin Geoloji planlama ekspedisiyasının rəisi Əziz Qaralov deyib.

O bildirib ki, Teleqüllənin inşa olunduğu yer tamamilə başqa strukturun üzərindədir: "Həmin ərazidə Teleqüllə üçün heç bir qorxu yoxdur. O, monolit əhəng daşlarının üzərində inşa olunub. Lazımi qaydada layihələşdirilib, tikilib. Heç bir qorxu yoxdur".

Qeyd edək ki, yanvar ayının 24-də Səbayel rayonunun Bayıl yamacında (Teleqüllə yaxınlığında) sürüşmə hadisəsi qeydə alınıb. Mütəxəssislərin apardıqları yoxlamalar nəticəsində sürüşmə təhlükəsi olan ərazidə 103 ev müəyyənləşdirilib. Sürüşmə zonasından 80 ailə, yəni 390 nəfər çıxarılıb. Onlara bu aydan etibarən müvəqqəti olaraq kirayə haqqı ödəniləcək.

## "Eurovizion-2018"lə bağlı püşkatma keçirildi, Azərbaycan...

**Məlum olduğu kimi, bu il Portuqaliyanın paytaxtı Lissabonda keçiriləcək "Eurovision-2018" mahnı müsabiqəsində ölkəmizi gənc ifaçı Aysel Məmmədova təmsil edəcək. Artıq mahnı müsabiqəsində iştirakçıların çıxışının ardıcıllığı üzrə püşkatma mərasimi keçirilib.**



İştirakçı ölkələrin sayının tək olması nəticəsində təşkilatçılar birinci yarımfinalda 19, ikinci yarımfinalda isə 18 nəfərin iştirak etməsinə qərar veriblər. AzərTAc-ın məlumatına görə, püşkatmaya əsasən, ölkəmizi müsabiqədə təmsil edən Aysel Məmmədova birinci yarımfinalın ilk yarısında çıxış edəcək. Ölkəmizin bu mərhələdə rəqibləri Albaniya, Belarus, Belçika, Bolqarıstan, Çexiya, Estoniya, İslandiya, İsrail və Litva nümayəndələri olacaq. Finala hər yarımfinaldan 10 ölkə adlayacaq. Böyük beşlik ölkələri (Fransa, Almaniya, İtaliya, İspaniya və Böyük Britaniya) və müsabiqənin ev sahibi olan Portuqaliya ilə birlikdə finalda qalib adı uğrunda 26 iştirakçı yarışacaq.

Qeyd edək ki, müsabiqənin yarımfinal mərhələsi mayın 8-də və 10-da keçiriləcək. Final mərasimi isə mayın 12-də təşkil olunacaq.

Xatırladaq ki, "Eurovizion-2018"də Azərbaycanı təmsil edəcək Aysel Məmmədova 1989-cu ildə Bakı şəhərində anadan olub. O, 1995-2006-cı illərdə Bülbül adına orta ixtisas musiqi məktəbində təhsil alıb. Daha sonra isə 2010-cu ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirib. Aysel "Caspian Jazz & Blues Festival" (2002), Bakı Beynəlxalq Caz Festivalı (2005/2006), "MuzEnergo Festival of Music İmprovisation" (2007), Montro Caz Festivalı (2009) Emil İbrahimin musiqi qrupunun müşayiəti ilə, Qafqaz Caz Festivalı (2012) və "Jara-2017" festivalı kimi beynəlxalq musiqi festivallarının iştirakçısı olub.

Gənc ifaçı 2013-cü ildə tanınmış musiqiçilər Aleksandr Coppaloni və 2015-ci ildə isə Deborah.J.Carterdən özəl dərslər alıb. Eyni zamanda, Rusiya, Gürcüstan, Türkiyə, Ukrayna, İsrail, İsveçrə, Niderland və İtaliyada keçirilən musiqi tədbirlərində də iştirak edib. Gənc ifaçı həmçinin pianoçu və bəstəkardır.

❑ **XALİDƏ, Musavat.com**

## 5 telekanala 3 milyon manat ayrılacaq

**Milli Televiziya və Radio Şurasının (MTRŞ) növbəti iclası keçirilib. MTRŞ-dən APA-ya verilən məlumata görə, iclasda Azərbaycanda özəl ümumölkə teleradio yayımçılarına birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında Azərbaycan prezidentinin 18 yanvar 2018-ci il tarixli sərəncamına əsasən Azərbaycanda fəaliyyət göstərən özəl ümumölkə teleradio yayımçılarının "Azerspace-1" peyki və digər vasitələrlə yayım həyata keçirməsinə əlavə dəstək verilməsi məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurasına ayrılmış 3 milyon manat vəsaitdən hər bir özəl ümumrespublika televiziya yayımçısına ("Lider TV", "Xəzər TV", "ATV", "ARB TV", "Space TV") 600 000 (altı yüz min) manat ayrılması barədə qərar qəbul edilib.**

## Putin "Kreml hesabatı"na münasibət bildirdi: "Axmaqlıqdı"

**Rusiya prezidenti Vladimir Putin ABŞ Maliyyə Nazirliyinin "Kreml hesabatı" sənədinə münasibət bildirib.**

APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bu gün səlahiyyətli nümayəndələri ilə keçirilən görüşdə Vladimir Putin ABŞ tərəfinin bu addımını dostcasına olmayan hərəkət adlandırıb: "Mən bu sənədi, siyahını görməmişəm. Səhər həmkarlarım məlumat verdilər, lakin siyahıya baxmadım. Bu sənəd və siyahı barədə ümumilikdə demək istədiklərim var. Biz sizinlə birlikdə daha çox özümüz haqqında düşünməliyik. İqtisadiyyatımızı, kənd təsərrüfatımızı, səhiyyəmizi, müdafiə qabiliyyətimizi inkişaf etdirməliyik. Məhz onda hansısa siyahı formalaşdırmağın heç bir mənası olmayacaq. Hədələmək, qorxutmaq - bunların heç bir olmayacaq. Rusiya daxili məsələləri ilə məşğul olmalıdır. İt hürər, karvan keçər. O ki qaldı siyahıya, əslində bizim hamımızı, yəni 146 milyonu hansısa siyahıya salıblar. Bunun niyə edildiyini anlamıram. Lakin sözsüz ki, bu, dostcasına olmayan aktdır.

Bu addım onsuz da mürəkkəb vəziyyətdə olan Rusiya-ABŞ münasibətlərini daha da çətinləşdirir, ümumilikdə, beynəlxalq münasibətlərə böyük zərər vurur. Baxın, görün, nə axmaqlıq baş verir. Rusiyanı Şimali Koreya və İranla bir sıraya qoyurlar, eyni zamanda bizdən xahiş edirlər ki, Şimali Koreyanın nüvə probleminin həllində iştirak edək. Bu, bəyəm axmaqlıq deyil?"

**Rusiya prezidenti bu siyahını gözlədiklərini də vurğulayıb:** "Gizlətməyəcəm, biz bu siyahını gözləyirdik. Cavab tədbirləri görməyə də hazır idik. Bunlar münasibətlərimizi sıfıra endirə biləcək tədbirlərdi. Lakin biz əks addımlar atmaqdan hələlik özümüzü saxlayırıq".

**V. Putin adının sanksiya tətbiq olunması üçün hazırlanan siyahıya düşməməsinə də münasibət bildirib.**

"Bu mənə ağır gəlir", - deyə Rusiya lideri bu barədə suala zarafatla cavab verib.

## Gəncədə 40 uşağı dini təriqətə qanunsuz cəlb ediblər

**Gəncə şəhəri, Nizami rayon sakini, 1972-ci il təvəllüdlü Ədalət Sarıyev dini təriqəti qanunsuz yaydığına görə saxlanılıb.**

"Report" xəbər verir ki, araşdırma zamanı onun xristianyönümlü "Şərqdə ulduz" təriqətini təbliğ etdiyi məlum olub. Ə.Sarıyevin evində bu təriqətə qoşulmuş 100-ə yaxın şəxs müəyyən edilib. Onlardan 40-ı azyaşlılardır.

Ə.Sarıyev haqqında toplanan materiallar Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə göndərilib.

Qeyd edək ki, yerli KİV-də yer alan məlumatlara əsasən, "Şərqdə ulduz" xristianyönümlü dini icmasına Almaniyadan maliyyə dəstəyi gəlir.

YENİ MÜSAVAT
N 23 (6912) 31 yanvar 2018

# Füzuli Məmmədov iki qazi ailəsinə ev hədiyyə etdi

**Bəsti Məmmədova:** "Bu oğullar necə ki, vətən uğrunda döyüşür, siz də onlar üçün çalışırsınız"

**Dünya Azərbaycanlıları Mədəniyyət Fondunun rəhbəri, Avropa Azərbaycanlıları Konqresinin birinci vitse - prezidenti Füzuli Məmmədov növbəti dəfə iki Qarabağ qazisinə ev hədiyyə edib.**



Musavat.com xəbər verir ki, Bakıdakı məkanların birində təşkil olunan kiçik tədbirdə Füzuli Məmmədov, Dünya Azərbaycanlıları Əlaqələndirmə Şurasının üzvü Səftər Rəhimli, "Hilal" İctimai Birliyinin sədri Arzuman Abdulkərimov, "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu, tanınmış jurnalist Aygün Muradxanlı, şəhid Aqşin Abdullayevin ailəsi, ev hədiyyə olunan hərbiçilər və onların ailələri iştirak ediblər.

**Tədbirin açılış nitqini söyləyən Rauf Arifoğlu bildirib ki, bu gün çox savab və gözəl iş üçün bura yığışmışıq:** "Azərbaycan uğrunda döyüşən, şəhid və qazi olan hər bir vətən övladına borcumuz var. Bu gün iş adamı Füzuli Məmmədov bu borcun bir kiçik qismini bizlərin də xeyir-duası və şahidliyi ilə qaytarır. Bundan əvvəl də şəhid və qazi ailələrinə diqqət göstərən, mənzil bağışlayan Füzuli Məmmədovun bu hərəkəti cəmiyyətə və tarixə bir mesajdır. Bizlərsə bu xeyirxah əməlləri yazıb, çəkib göstərməklə, imkanı olan hər kəsi bu cür əməllərə təşviq edirik. Hamı bilməlidir ki, vətən, millət və torpaq uğrunda şəhid olanların adları, ailələri, qazi olanlarınsa özləri unudulmur, hər hansı bir formada qarşılığını alır. Buna görə də Füzuli Məmmədova təşəkkür edirəm ki, belə bir təşəbbüs göstərib, qazilərimizə, şəhid ailələrimizə növbəti dəfə ev təqdim edir. Onun özü bunun mediaya çıxmasını istəmirdi, mütəvazi bir tədbirlə yalnız ev alan qazilərimizin yaxınlarına mülk sənədini təqdim etmək istəyirdi. Səftər Rəhimli və digər dostlar istədi ki, qısa da olsa, bu barədə material yayılsın. Çünki xeyirxah və savab işlərin təqdimatı cəmiyyətdə bir təşviq mexanizmi yaradır. Bu da diqqətə möhtac olan vətəndaşlarımıza böyük fayda verir".

**Daha sonra isə ev alan hərbiçilərlə söhbət edib, onların keçdikləri döyüş yolu ilə tanış olduq.**





**İlk olaraq aprel döyüşlərinin iştirakçısı kapitan Hikmət Məmmədovla həmsöhbət olduq. H. Məmmədov söylədi ki, aprel döyüşləri zamanı başından yaralanıb:**

"Son olaraq aprel döyüşlərində iştirak etmişəm. Bu döyüşlər zamanı başımdan qəlpə yarası almışam. Hazırda da ehtiyatda olan zabitəm. 2008-ci ildən zabit xidmətə başlamışam və xidmətimi ancaq cəbhə bölgəsində davam etdirmişəm. Anamızı, bacımızı, vətənimizi qorumaq üçün döyüşmüşük və bununla da qürur duyuram. Başımdan yaralandığım üçün indi də qəlpə gəzdirirəm. Həkimlərin deməsinə görə, qəlpə çıxarılarsa, bir tərəfim işləməyəcək. Təbii ki, başımda yad cisim olduğu üçün ağrılarım olur. Vətən sağ olsun. Biz qorumasaq, vətəni kim qorumalıdır ki? Evə gəlincə Füzuli müəllim bizimlə danışdı və bildirdi ki, siz harada istəsəniz evi tapın, bəyənin, mən alıb, hədiyyə edəcəm. Elə də oldu. Sumqayıt şəhərində ev tapdıq və Füzuli müəllimə xəbər etdik. Füzuli müəllim sağ olsun ki, dediyi kimi də evi bizə hədiyyə etdi. Xidmət etdiyim illər ərzində kirayə mənzildə yaşayırdım. Bizim Füzuli müəllimlə heç bir qohumluq əlaqəmiz yoxdur. Sadəcə olaraq, bizi birləşdirən onun vətənə, millətə olan sevgisidir. Şəhidinə, qazisinə qiymət verib bu cür evlə təmin edib. Artıq mən beşinci adamam ki, evlə təmin olunuram".

**Füzuli Məmmədovun ev hədiyyə etdiyi digər qazi isə müddətdən artıq hərbi qulluqçu Emin Əliyevdir. E. Əliyevlə də söhbət edib, fikirlərini aldıq. Bildirdi ki, o da aprel döyüşlərində iştirak edib və sağ ayağından yaralanıb:**



"Mən 1993-cü ildə Bakıda anadan olmuşam. Maştağada 293 saylı məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanmışam. Aprel döyüşləri zamanı Tərtərdə Talış kəndi uğrunda gedən döyüşlərdə iştirak edib, sağ ayağımdan yaralanmışam. İndi də ayağımda problem qalmaqdadır. Ailədə evin yeganə gəlir yeri də onun aldığı sifarişlərdən asılıdır. Füzuli müəllimə təşəkkürümü bildirirəm ki, bizə Maştağada, istədiyimiz yerdə ev hədiyyə etdi. Çox sağ olsun".

**Onu da qeyd edək ki, F.Məmmədov ötən il may ayında da Qarabağda sağlamlığını itirmiş hərbiçilərimizə ev hədiyyə edib. Onlar Xüsusi Təyinatlı Qoşunların üzvləri olan Natiq Mehtiyev və Ülfət Həsənovdur. Hər iki hərbiçimiz cəbhədə gedən atışmalar zamanı ağır yaralanıblar. "Yeni Müsavat"a danışan Ülfət Həsənov bildirdi ki, 1983-cü ildə Qazax rayonunda anadan olub, hərbi xidmətini başa vurduqdan sonra Xüsusi Təyinatlı Qoşunlara qatılıb:**

"Verilən bütün döyüş tapşırıqlarında iştirak etmişik. 2015-ci ilin 19 mart tarixində Goranboy rayonunda döyüş tapşırığını yerinə yetirən zaman sol qolumdan və çanağımdan olmaqla iki güllə yarası aldım. Əvvəlcə hospitalda yatdım. Sonra isə dövlətin göndərişi ilə Türkiyənin Gülhanə hərbi tibb akademiyasında müalicəmi davam etdirdim. 2016-cı ilin mart ayında yenidən Gülhanədə əməliyyat edildim. Tərxis olunma müddətində Arzuman Abdulkərimov və Səftər Rəhimli (Dünya Azərbaycanlıları Əlaqələndirmə Şurasının üzvü) bizə məclis təşkil etmişdi. Sonda Füzuli müəllim gəldi və bizimlə görüşdü. İlk olaraq o, bizim hər bir problemimizlə maraqlandı. Dedi ki, bütün müalicənizi öz üzərimə götürürəm. Bu günə kimi də bizimlə zəngləşir, maraqlanır. Həmin günü evimizin olub-olmaması ilə də maraqlandı. Söylədim ki, evim var idi, ancaq müalicəyə görə satmışam. Natiq isə söylədi ki, evimin təmirə ehtiyacı var. Çay süfrəsi zamanı dedi ki, hərənizə bir ev hədiyyə edəcəm. Həmin günü elə bir həyəcan keçirdim ki, heç döyüş tapşırıqlarında belə hiss keçirməmişdim. Füzuli müəllim sağ olsun ki, Qarabağ qaziləri, şəhid ailələri ilə maraqlandı. Çay süfrəsindən sonra evlərlə maraqlandıq. Bizə demişdi ki, gedib haradan istəsəniz, oradan ev seçin. Natiq də Masazırdan ev götürmüşdü. Onun da ödədiyi pulu verib, mənzilini təmir etdilər. Mənə isə istəyimə uyğun olaraq Sumqayıtdan ev verdilər. Ona minnətdarlığımızı bildiririk. Allah onu bizim üstümüzdən əskik etməsin. Yenə də müalicə olunmalıyam. Soyuq olan zaman sümüklərim ağrıyır. Füzuli müəllim bildirib ki, harada lazım olsa sizi müalicə etdirəcəyəm".

**Yemək məclisindən sonra Füzuli Məmmədov hərbiçilərə evlərinin sənədlərini təqdim etdi. Çıxış edən Hikmət Məmmədovun anası Bəsti Məmmədova da Füzuli Məmmədova təşəkkürünü bildirdi:**

"Vətən oğullarına bu cür hörmət etdiyiniz üçün sizə minnətdaram. Bu oğullar necə ki, vətən uğrunda döyüşür, siz də onlar üçün çalışırsınız. Sizə ailəmiz adından minnətdaram. Ömrümüz boyu sizə duaçı olacağıq".

**Mülk sənədlərinin təqdimindən sonra tədbir iştirakçıları xatirə şəkilləri çəkdirdilər.**

**❑ Əli Rais**
**"Yeni Müsavat"**

# Rəsulzadənin 133-cü doğum günü

## Bu gün AXC-nin banisinin yubileyidir; partiyalar öndərin Novxanıdakı abidəsi önündə toplaşacaq

**31 yanvar Azərbaycan Xalq Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadənin 133 illik yubileyidir. Xatırladaq ki, Rəsulzadə 31 yanvar 1884-cü ildə Bakının Novxanı kəndində anadan olub. O, Azərbaycan milli istiqlal hərəkatına başçılıq edib.**



Rəsulzadənin "Bir kərə yüksələn bayraq, bir daha enməz!" ifadəsi XX əsrdə Azərbaycanda müstəqillik hərəkatının əsas şüarı olub.

1902-ci ildə on yeddi yaşında olan M.Ə.Rəsulzadə "Müsəlman gənclik təşkilatı"nı yaradıb. Bu, XX əsrdə Azərbaycanda rus müstəmləkə üsul-idarəsinə qarşı gizli mübarizə aparan ilk siyasi təşkilat idi.

Sonradan "Müsəlman demokratik "Müsavat cəmiyyəti" adı ilə gizli fəaliyyət göstərən təşkilatın bir qolu da az sonra İranda qurulub və burada başlamış məşrutə inqilabına istiqamətverici rəhbər qüvvəyə çevrilib.

1917-ci il oktyabrın 26-dan 31-nə qədər 500 nümayəndənin iştirakı ilə Bakıda təntənəli surətdə keçirilən Müsavat Partiyasının birinci qurultayında Məhəmməd Əmin Rəsulzadə Mərkəzi Komitənin sədri seçilib. Bu qurultaydan sonra Bakıda və Azərbaycanın bütün qəzalarında "Azərbaycana muxtariyyət" şüarı altında milli hərəkat başlayıb.

1917-ci ilin payızında M.Ə.Rəsulzadə Rusiya parlamentinə Azərbaycan və Türküstandan millət vəkili seçilib. 1918-ci il mayın 26-da Zaqafqaziya seymi daxili fraksiyaların çəkişmələri nəticəsində ləğv olunub. Həmin ayın 27-də seymin müsəlman fraksiyasına daxil olan müxtəlif partiyaların üzvlərindən ibarət olan Azərbaycan milli şurası yaranıb. Səs çoxluğu ilə M.Ə.Rəsulzadə milli şuranın sədri seçilib.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti (Demokratik Respublika) elan olunub və bütün ölkələrin radiostansiyaları və qəzetləri Azərbaycan istiqlaliyyətinin elan olunmasını dünyaya yayıb.

Fətəlixan Xoyskinin başçılığı ilə Azərbaycan Demokratik Respublikası hökuməti təşkil olunub. Beləliklə, Azərbaycan xalqı nəinki türk xalqları arasında, həmçinin bütün islam şərqi aləmində ilk dəfə olaraq respublika qurub.

1920-ci il aprelin 28-də Azərbaycan Rusiya tərəfindən işğal olunduqdan sonra Məhəmməd Əmin Rəsulzadə Moskvaya, oradan isə Finlandiyaya gedib.

Sonradan Rəsulzadə Türkiyəyə gəlib və ömrünün sonunadək Ankarada yaşayıb. 1955-ci il martın 6-da orada vəfat edib.

Qeyd edək ki, hər il M.Ə.Rəsulzadənin yubiley günü ilə bağlı tədbirlər keçirilir, Novxanıdakı abidəsi ziyarət edilir. Bəs bu il hansı tədbirlər olacaq?

**AXP üzvü Pənah Hüseyn partiyanın Rəsulzadə ilə bağlı planını açıqlayıb:** "Fikrimiz var ki, Rəsulzadənin abidəsini ziyarət edək. Həmçinin Hacıbaba Əzimova "Rəsulzadə mükafatı" təqdim olunacaq, həmin tədbirdə iştirak edəcəyik".

**Ümid Partiyasının İcra Aparatının rəhbəri Taleh Əliyev isə qeyd etdi ki, Rəsulzadənin doğum günü ilə bağlı tədbirlər planı işlənib hazırlansa da, müəyyən səbəblərdən reallaşdırılmayıb:** "Bu il Cümhuriyyətimizin 100 illiyi ilə əlaqədar silsilə tədbirlər keçirməyi planlaşdırırıq və o tədbirlər çərçivəsində də böyük Məhəmməd Əminin şəxsiyyəti bir daha yad olunacaq. Ona görə də sabah formal, sıradan bir tədbir təşkil etməyi düşünmürük".

ADP sədri Sərdar Cəlaloğlu da partiyanın idarə heyəti ilə birlikdə Rəsulzadənin abidəsini ziyarət edəcəklərini bildirdi.

**VİP sədri Əli Əliyev:** "Rəsulzadənin Novxanıdakı abidəsini ziyarət etmək fikrimiz var".

**❑ Xalidə GƏRAY,**
**Musavat.com**

YENİ MÜSAVAT
N 23 (6912) 31 yanvar 2018

# Emin Hüseynovun virtual sorğusu müxalifəti bir-birinə qatdı

## İlqar Məmmədova uduzan Əli Kərimli tərəfdarları hücuma keçdi

**İsveçrədə mühacir həyatı yaşayan Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutunun direktoru, hüquq müdafiəçisi Emin Hüseynovun qarşıdan gələn prezident seçkiləri ilə bağlı facebookda yaratdığı seçki anketi müxalifəti bir-birinə qatıb. "Sabah Azərbaycanda prezident seçkisi keçirilərsə, hazırkı iqtidara alternativ ola biləcək namizəddən prezident kürsüsündə hansını daha çox görmək istəyərdiniz" sualı əsasında keçirilən sorğu ətrafında narazılıqlar yaranıb.**

Artıq başa çatan sorğuda yer alan şəxslərin adlarından tutmuş son nəticələrə qədər ciddi qalmaqal yaranıb. Anketdə elə şəxslər prezidentliyə iddiaçı kimi göstərilib ki, bu hər kəs də gülüş doğurub. Özü də tamamilə siyasi çəkidə və bu kimi hallarda bir-biri ilə yaxından-uzaqdan əlaqəsi olmayanlar qarşı-qarşıya qoyulub, ən nüfuzlu siyasətçilər rüsvayçı şəkildə rəqiblərinə uduzublar. Namizəd kimi göstərilən şəxslər iki nəfərdən ibarət olmaqla, mərhələli şəkildə səsverməyə çıxarılıblar. Burada isə uduzan tərəflər əks tərəfi, eləcə də sorğunun təşkilatçısını sərt şəkildə tənqid ediblər. Ən sərt reaksiya isə AXCP sədri Əli Kərimlinin tərəfdarlarından gəlib ki, bu günlərdə onlar hələ də sosial şəbəkələrdə narazıqlarını davam etdirirlər.

Onların bu qədər hiddətlənmələrinə səbəb isə Ə.Kərimlinin səsvermənin yarımfinalında həbsdə olan REAL sədri İlqar Məmmədova 54-46% nisbətində uduzmasıdır. Bununla bağlı cəbhəçilər müdhiş iddialar səsləndirməyə başlayıblar. Onların bu ittihamlarının əsasını İ.Məmmədovun qələbəsində hakimiyyətin əlinin olması barədə iddialar təşkil edir.

E.Hüseynovun barəsində deyilənlərlə bağlı mövqeyini internet üzərindən öyrənməyə çalışsaq da, mümkün olmadı.

**REAL rəhbərliyi icraçı katibi Natiq Cəfərli "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, sosial şəbəkələrdə keçirilən sorğuların bu qədər ciddiyə alınması doğru deyil:** "AXCP-nin bunu bu qədər ciddiyə almasını bu günə qədər də anlaya bilmirəm. Sosial şəbəkələrdə aparılan sorğular rəy öyrənmək üçün maraqlıdır. AXCP nümayəndələrinin iddialarına sorğunun təşkilatçısı da cavab verib. Ciddi məsələlərin, müdaxilələrin olmadığını deyib. Qısa zamanda İlqar Məmmədova çoxlu səslərin verildiyi iddia olunur. Amma bunun təbii səbəbləri var. Biz sorğunun keçirildiyindən gec məlumat tutduq və reaksiyamız gec oldu. Bizim REAL-a aid səhifədə 3-4 min nəfərlik müzakirə qrupu var. 30 minlik rəsmi səhifəmizdə bu sorğu paylaşıldı. O paylaşımdan sonra təqribən bir saat ərzində aktivlik artdı və İlqar Məmmədova çoxlu sayda səs verənlər oldu. Ən ağrılı, mənim üçün də ən qəribə iddia odur ki, qarşı tərəf bunun hökumət, hakim partiya olan YAP-ın feysbuq aktivistləri tərəfin təşkil olunduğunu, onların İlqar Məmmədova səs verdiyini deyirlər. Bu çox absurd bir iddiadır. İlqar Məmmədova olan münasibət göz önündədir. Beş ildir həbsdədir. Bunların fonunda nədən İlqar Məmmədova kömək olunsun? Bu günə qədər AXCP ilə müxtəlif mövzularda çoxsaylı müzakirələrimiz olub. Əvvəlki və sonuncu "arqumentləri" eyni olub. Əgər bizimlə razılaşmırsansa, hökumət adamısan, onlara səs vermirsənsə "trolsan". Belə yanaşma doğru deyil. Ola bilər ki, o sorğuda "trollar" olsun. Cəbhənin aktivləri var ki, onlarla profilləri var, bunu heç gizlətmirlər. Ola bilər ki, onlar tərəfindən belə bir iştirak olsun. Bunu ciddi siyasi mübarizəyə çevirmək doğru deyil. Açığı, qarşı tərəfin belə iddialarını gülüşlə qarşılayıram".





**REAL funksioneri Eldəniz Quliyevin dediklərinə də münasibət bildirdi:** "Təəssüf edirəm ki, Azərbaycanda siyasi fəaliyyətin hədəfi uzun zamandır mitinq kimi təqdim olunur. Bunu da insanlara sübut etmək cəhdləri var. Bu tamamilə yersiz yanaşmadır. Mitinq hədəf ola bilməz. Mitinq vasitədir, insanların legitim, konstitusion hüququdur, hakimiyyətlə mübarizədə olan onlarla üsuldan yalnız biridir. Bunu üsul deyil, hədəf kimi təqdim etməklə qarşı tərəf özünü hədəfinə çatmış kimi sübut etməyə çalışır. Bu günə qədər hansı mitinqlər Azərbaycanda hədəfinə çatıb? Milli Şura keçirdiyi mitinqlərlə hədəfinə çatıbmı? Bu yolla siyasi məhbusların azad olunması baş versəydi, o zaman AXCP-nin doğrudan da dəyərli olan siyasi məhbusları azad olunardı. Əli Kərimlinin müavinləri həbsdədir, onların və digərlərinin azad olunması ilə bağlı Milli Şura dəfələrlə mitinqlər keçirib, amma onlar hələ də məhbəsdədir. Demək, Azərbaycanda mitinqlərlə kimisə həbsdən azad etmək mümkün deyil. İnsanlarda belə mitinqlərə maraq da yoxdur. REAL-ı belə şeylə ittiham etmək düzgün deyil".

**Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Büdcədən pul alan partiyalar-1 milyondan 100 minədək...

## YAP büdcədən ildə təxminən 1 milyon 200 min manat, Milli Məclisdə təmsil olunanlar isə 120 min manatadək vəsait alırlar

**Məlum olduğu kimi, bu il üçün siyasi partiyalara ayrılan vəsait artırılıb.**

Belə ki, 2018-ci ildə siyasi partiyalar üçün büdcədən ayrılan vəsait 20% və ya 500 min manat artırılaraq 3,1 milyon manata çatdırılıb. O da bəllidir ki, bu vəsaitdən ancaq parlamentdə təmsil olunan partiyalar yararlana bilirlər.

Bəs görəsən, bu pul partiyalar arasında necə bölünür? Vəsait paylanarkən hansı prinsiplər əsas götürülür? Hazırda Milli Məclisdə təmsil olunan hər partiya nə qədər pul ala bilir?

**"Yeni Müsavat"a açıqlama verən Ümid Partiyasının sədri, sabiq deputat İqbal Ağazadə də bildirdi ki, bu vəsaitlər iki prinsip əsasında bölünür:** "Birinci prinsip odur ki, büdcədən ayrılan pulun 50 faizi partiyalar arasında bərabər bölünür, qalan 50 faizi isə deputat sayına görə bölünür. Ona görə də YAP büdcədən ildə təxminən 1 milyon 200 min manat pul alır. Digər partiyalardan Milli Məclisdə 1,2,3 yerlə təmsil olunanlar 106 min manatdan 120 min manatadək alırlar. Bildiyiniz kimi, Milli Məclisdə yalnız Vətəndaş Həmrəyliyi Partiyası 2 yerə sahibdir, qalan bütün partiyaların hamısı 1 yerdir. Ona görə də çox güman ki, 1 deputatla təmsil olunan partiyalar ildə 106 min manat, VHP də 120 min manat alır. Qalan hissə isə Yeni Azərbaycan Partiyasına düşür. YAP demək olar ki, ümumi ayrılan pulun yarısını alır.

Partiyalara bu il 3,1 milyon manat pul ayrılıb. Onun 50 faizi , yəni 1,55 milyon manat partiyalar arasında bərabər bölünür. Hazırda Milli Məclisdə 11 partiya təmsil olunur. Hərəsinə 100 min manatdan artıq pul düşür. Hər deputat sayına görə isə 6 min manat pul əlavə olaraq alırlar. Yerdə qalan 1, 5 milyon manatın 1,3 milyon manatı YAP-a düşür. Bərabər bölgüdən də hakim partiyaya 100 min manatdan çox vəsait düşdüyündən, YAP 1,5 milyon manata yaxın büdcədən pul alır".

Qeyd edək ki, Milli Məclisdə aşağıdakı siyasi partiyalar təmsil olunur:

Yeni Azərbaycan Partiyası 69 deputatla, Vətəndaş Həmrəyliyi Partiyası 2 deputatla, Ana Vətən Partiyası 1 deputatla, Azərbaycan Demokratik Maarifçilik Partiyası 1 deputatla, Azərbaycan Sosial Rifah Partiyası 1 deputatla, Azərbaycan Sosial Demokrat Partiyası 1 deputatla, Vəhdət Partiyası 1 deputatla, Milli Dirçəliş Hərəkatı Partiyası 1 deputatla, Azərbaycan Demokratik İslahatlar Siyasi Partiyası 1 deputatla, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası 1 deputatla, Böyük Quruluş Partiyası 1 deputatla.

**Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**

# Prezidentliyə namizədlərin 40 min imza problemi

## 4 partiyanın namizədi rəsmi bəllidir, digərləri isə...

**2018-ci ilin oktyabrında prezident seçkisində iştirakla bağlı artıq bəzi partiyalar namizədlərini irəli sürməkdədirlər. Prezidentliyə namizədliyini ilk irəli sürən Müsavat Partiyasıdır. Müsavat Partiyası 2014-cü ilin 27 sentyabrında keçirdiyi qurultayda lideri İsa Qəmbərin 2018-ci il prezident seçkisinə namizədliyini irəli sürmək qərarı vermişdi. Bir neçə gün öncə-yanvarın 27-də isə Müsavat Məclisi İsa Qəmbərin namizədliyini təsdiq edərək seçki qərargahı yaratmaq qərarı verib. Namizədini irəli sürən ikinci partiya Vətəndaş və İnkişaf Partiyasıdır. Bu partiya 2017-ci il mayın 28-də keçirdiyi qurultayında sədri Əli Əliyevin növbəti prezident seçkisində namizədliyini irəli sürəcəyini rəsmiləşdirib. Əldə etdiyimiz məlumata görə, VİP-də seçki hazırlıqları həyata keçirilir.**



Namizədini üçüncü irəli sürən təşkilat AĞ Partiyadır. AĞ Partiyanın namizədi sədrləri Tural Abbaslıdır.

KXCP Ali Məclisi isə yanvarın 27-də Mirmahmud Mirəlioğlunun namizədliyini irəli sürüb.

Digər partiyaların hələ ki namizəd irəli sürməklə bağlı qərarları yoxdur. Ümid Partiyası, AXCP, AMİP, ADP, VHP kimi tanınmış partiyalar yekun qərarlarını verməyiblər. Onların bir neçəsi bu il qurultay keçirməyi planlaşdırırlar və seçki ilə bağlı qərarı da qurultayda verəcəklərini bəyan ediblər.

Partiyalılığı olmayan, xaricdə yaşayan bir neçə şəxs (Rəsul Quliyev, Hüseyn Abdullayev) də seçkidə iştirak edəcəklərini açıqlayıblar.

**AĞ Partiyanın sədri, namizədi Tural Abbaslı "Yeni Müsavat"a bildirdi ki, namizədlərin sayının artması sevindirici haldır. Çünki prosesdə nə qədər çox maraqlı siyasi təşkilat və şəxs iştirak edərsə, seçkilər bir o qədər canlı olar. Yəni iştirakçıların çoxluğu seçkiyə diqqəti artıracaq və seçkinin ən azı hansısa mərhələlərinin rəqabətli keçməsini təmin edəcək:** "Bizim də partiyalar olaraq işimizdən biri seçki prosesinə daha çox vətəndaş diqqətini və iştirakını təmin edərək baş verə biləcək saxtakarlıq və neqativ halların qarşısının alınmasına çalışmaqdır. Bu aksiomadır ki, hər hansı bir seçkiyə vətəndaş diqqəti və iştirakı nə qədər çox olarsa hakimiyyətin saxtakarlıq cəhdləri bir o qədər çətinləşər. Mən sizin vasitənizlə Mirmahmud bəyi partiyasının namizədi olması münasibətilə təbrik edirəm və uğurlar arzulayıram. Biz AĞ Partiya olaraq hələ aylar öncə rəsmi olaraq namizədimiz barədə qərar vermişik. Bu qərar partiyanın aidiyyəti qurumu tərəfindən yekdilliklə verilib. Bilindiyi kimi, AĞ Partiyanın 2018-ci ildəki prezident seçkilərində namizədi mən olacağam. Bu barədə mətbuatda da kifayət qədər məlumat yayılıb. Yəni biz bu qərarı artıq çoxdan vermişik".

**Namizədliyin rəsmi qeydə alınması üçün lazım olan 40 min seçici imzasının toplanması məsələsinə gəldikdə, Tural Abbaslı dedi ki, bu prosesin ağır və əziyyətli bir proses olduğu heç kəsə sirr deyil:** "AĞ Partiyanın rəhbərliyindəki şəxslərin 16-17 illik praktik siyasi təcrübəsi var. Bu seçkilər bizim siyasilər olaraq iştirak edəcəyimiz ilk seçkilər deyil. Biz bundan öncə müxtəlif növ seçkilərdə müxtəlif mövqelərdə iştirak etmişik. Və bizim seçkilərdə iştirak barədə kifayət qədər təcrübəmiz var. Əminəm ki, AĞ Partiya olaraq bu mərhələni uğurla başa vura biləcəyik. Biz imzatoplama kampaniyasına hazırlığı da aylar öncədən başlamışıq. Buraya imza toplayacaq şəxslərin siyahısı, imza toplanacaq seçki dairələrinin müəyyənləşdirilməsi, bu zaman lazım ola biləcək maddi-texniki bazanın hazırlanması, kampaniyanın qanunvericiliyə uyğun tələblərinin icrasının təşkili və s. daxildir. Yəni biz reallıqları və real resurslarımızı nəzərə alaraq hazırlaşmağa çalışırıq. Digər partiyaların da bu mərhələdə xüsusi bir çətinlik çəkəcəklərini düşünmürəm. Çünki həmin partiyaların da kifayət qədər təcrübəsi var və onlar da bir çox seçkilərdə iştirak ediblər. Hakimiyyət xüsusi çətinliklər və əlavə süni problemlər yaratmasa bu mərhələnin normal keçəcəyinə inanıram".

**Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 23 (6912) 31 yanvar 2018

**Yanvarın 30-da media nümayəndələri üçün inşa olunmuş ikinci binadakı mənzillərin açarlarının sahiblərinə təqdim olunması mərasimi keçirilib. Beynəlxalq Mətbuat Mərkəzindəki mərasimdə çıxış edən Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli binanın artıq istismara qəbul edildiyini söyləyib.**

# Əli Həsənovdan Azərbaycanı hədəfə alanlara ciddi mesajlar

## Jurnalistlər üçün tikilmiş yeni mənzillərin açarları sahiblərinə təqdim olundu; Əli Həsənov: "Biz bilirik ki, yazılı mediaya yardım göstərməsək, onlar fəaliyyətini dayandıracaq"







Birinci bina ilə müqayisədə ikinci binada jurnalistlərə mənzillərin açarlarının verilməsinin gecikməsinə toxunan V. Səfərli deyib ki, istismar aktı olmadan binada yaşayışın olması mümkün deyildi: "Bu gündən binada yaşamaq mümkün olacaq. İşıq, su mənzillərin sahiblərinin adınadır, yalnız qaz kartları binanın tikintisini aparan şirkətin adınadır. Jurnalistlər özləri "Asan kommunal"da qaz kartlarını öz adlarına keçirə bilərlər".

**Jurnalistlərə mənzillərin açarlarının təqdim olunmasını mühüm hadisə kimi dəyərləndirən Azərbaycan prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov bu mühüm hadisəyə qarşı çıxanların iddialarını cavablandırıb:** "Çox təəssüf ki, bəziləri qəbahətə yol verərək bildirirlər ki, Azərbaycanda media siyasəti iflasa uğrayıb. Məgər öz ölkənin vətəndaşlarını dövlətin daxilində və xaricində baş verən hadisələrlə tanış etmək istiqamətində fəaliyyət göstərən jurnalistlərə qayğı göstərmək, onların maddi-mənəvi problemlərinin həllinə yardım etmək bu qədər mənfi haldır ki, bunu dövlətin informasiya siyasətinin iflası kimi dəyərləndirirlər? Azərbaycan dövlətinin jurnalistlərə yönəlmiş humanist siyasəti deyil, illərdir ki, milyonlarla valyuta xərcləyib Azərbaycan mediasını öz təsiri altına salmaq istəyən dairələrin siyasəti iflasa uğrayıb".

**Ə. Həsənov bildirib ki, bu gün qrant mediasının məşhur nümayəndələri Avropanın ayrı-ayrı mərkəzlərində toplaşaraq "No-TAP" aksiyaları həyata keçirmək istəyirlər:** "Qrant siyasətini həyata keçirənlərin Azərbaycanda formalaşdırdıqları jurnalistlər bunlardır. Azərbaycan mediasının təməli sağlam qoyulub. Media ilk növbədə insanları informasiya ilə təmin etməli, maarifləndirməlidir, vətənpərvərlik aşılamalıdır. Azərbaycanda media siyasəti iflasa uğrayıb deyənlər baxsınlar ki, medianın üzərində nəzarəti həyata keçirən inzibati orqan varmı? Azərbaycanda jurnalistlərin özünütənzimləmə orqanı olan Mətbuat Şurası formalaşıb. Azərbaycan dövlətinin təklif etdiyi mənzili jurnalistlər ala da, almaya da bilər. Prezidentin media siyasətindən hansı jurnalist müstəqilliyini itirib? Əksinə, qrant siyasəti üzərində media formalaşdırmaq istəyənlər bunu təlqin edirlər. Biz bilirik ki, yazılı mediaya yardım göstərməsək, onlar fəaliyyətini dayandıracaq. Xarici agentlərin otaqlarda ayırdığı qrantlarla prezident İlham Əliyevin mediaya ayırdığı yardımların fərqi məlumdur. Qrant mediasının nümayəndələri TAP, TANAP-a qarşı çıxır, ancaq bu layihələr Azərbaycanın strateji maraqları ilə bağlıdır. O insanlar Azərbaycan cəmiyyətindən hansı təpkiləri alacaqlarını gözləri qarşısına gətirsinlər".

**Ə.Həsənov əlavə edib ki, dövlətin strateji maraqlarına qarşı çıxış edənlər Azərbaycan cəmiyyətindən hansı təpkiləri alacaqlarını gözlərinin önünə gətirməlidirlər:** "Yad ölkələrin parlamentləri qarşısında yad ifadələrlə çıxış edəndə bilsinlər ki, Azərbaycanda xalq və media dövlət siyasətini dəstəkləyir". Dövlət rəsmisi xüsusi vurğulayıb ki, Azərbaycan təzyiq dilinə dözmür və yerli KİV-ə xaricdən nəzarət olunmasına imkan verməyəcək. Ə.Həsənov prezidentin bu günlərdə Davosda çıxışını xatırladıb. "Prezident bildirdi: kim hesab edirsə ki, Azərbaycanda söz, mətbuat, siyasi fəaliyyət azadlığı, digər vətəndaş hüquqları, ictimai normalar pozulur, buyursun, biz onlarla açıq dialoqa hazırıq. Belə iddiaların heç bir əsası yoxdur. 2008-ci ildə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradıldı və Azərbaycan dövlətinin mediaya yardımları şəffaflaşdırıldı, sistemləşdirildi, bir konseptual platforma üzərində quruldu. Fondun kimə və nəyə yardım göstərdiyi şəffaf şəkildə cəmiyyətə bəyan olunur. Cəmiyyətə şəffaf şəkildə bəyan olunan siyasət yaxşıdır, yoxsa gizli şəkildə, kabinetlərdə bir-iki xarici agentlə birlikdə ayrılmış qrantlar? Belə gizli qrantların və dövlətin şəffaf yardımının fərqini hamı yaxşı bilir, əlavə izah verməyə ehtiyac yoxdur. Odur ki, biz Azərbaycan dövlətinin, prezident İlham Əliyevin yürütdüyü informasiya, media, siyasi plüralizm siyasətini dövlətimizin uğurlarından biri kimi dəyərləndirir və bu siyasətə qarşı yönəlmiş ittihamları qəbul etmirik".

2018-ci ildə çox böyük tarixi hadisənin - Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin qeyd olunacağını bildirən Ə. Həsənov jurnalistlərin Azərbaycan prezidentinin dostları olduqlarını və seçkilərdə prezident İlham Əliyevi dəstəkləyəcəklərinə əmin olduqlarını da bəyan edib.

**Bundan sonra mənzillərin açarları jurnalistlərə təqdim edilib.**

**Qeyd edək ki, mənzil sahibi olan 256 media mənsubu sırasında "Yeni Müsavat"ın əməkdaşları da var.**

**❑ ELŞAD,**
**❑ "Yeni Müsavat"**

# Sərkisyana iki "nəfəskəsici" xəbər - biri okeanın o tayından, o biri...

## Düşmən ölkə blokadanı yumşaltmaq hayında ikən Kremlin forpostu olmağın daha ağır bədəlini ödəmək zorunda qala bilər; Azərbaycan isə Gürcüstan üçün etibarli "bufer" rolunda - Bakı qərb qonşumuzu Rusiyadan və onun bölgədəki vassalından daha da uzaqlaşdırır...

**"Gürcüstan Rusiya qazının alışından birdəfəlik imtina edib". "Yeni Müsavat" xəbər verir ki, bu barədə dünən ölkənin iqtisadiyyat nazirinin müavini Georgi Çikovani bildirib. O, yanacağın bu növünə Gürcüstanın tələbatını bütünlüklə Azərbaycanın ödədiyini söyləyib. "Sadəcə, Rusiya qazı bizə daha lazım deyil, Azərbaycan qazı tamamilə kifayətdir", - deyə o bildirib.**



Ekspertlər Gürcüstanın tamamilə Azərbaycan qazına keçməsini Cənub Qaz Dəhlizi boru kəməri sistemi layihəsi ilə əlaqələndirirlər. Həmin layihə çərçivəsində "Şahdəniz -2" qazı Azərbaycandan Türkiyəyə, oradan isə Avropa Birliyi ölkələrinə nəql ediləcək. Kəmərin bir hissəsi kimi TANAP bu il işə düşməlidir.

Ancaq sözsüz ki, məsələnin siyasi tərəfləri də var. İş ondadır ki, bu imtina ilə qərb qonşumuzun illərdir Abxaziya və Cənubi Osetiyanın işğalına görə gərgin münasibətlərdə olduğu Rusiyadan enerji asılılığı sıfra düşəcək. Paralel şəkildə Azərbaycanın Gürcüstan üçün dəyəri artacaq, iki ölkə arasında bağlara növbəti birisi əlavə olunacaq.

Bu, həmçinin o deməkdir ki, Ermənistanın Abxaziyadan xilas dəhlizinin açılmasına bəslədiyi və son vaxtlar xeyli artmış ümidlər boşa çıxacaq. İşğalçı ölkənin öz müttəfiqi Rusiya ilə quru (dəmiryolu) əlaqəsi əlçatmaz olaraq qalacaq.

*****

Hər necə olmasa, Gürcüstan öz enerji təhlükəsizliyinə görə, ümumiyyətlə, təhlükəsizliyinə görə Azərbaycana minnətdar olmalıdır. Ancaq bu, sözdə deyil, quru minnətdarlıqla yox, "maddiləşmiş", yəni Azərbaycanın maraqlarına cavab verən bir şəkildə və yaxşılığa adekvat olmalıdır.

Söhbət əlbəttə ki, öncəliklə Ermənistanın izolyasiya rejimini yumşaltmasına hər hansı formada imkan verməməkdən gedir. Bu yöndə təcavüzkara istənilən yaxşılıq, güzəşt Azərbaycana böyük pislik deməkdir təbii ki. Çünki işğalçıya istənilən növ dəstək - işğala dəstək, eyni zamanda Ermənistanın işğalçı müttəfiqi Rusiyaya dəstək deməkdir; İrəvana "İşində ol!" mesajıdır; işğalçının özünü bundan sonra da komfortda hiss eləməsinə yardımçı olmaqdır. Belə pisliyi Azərbaycan xüsusən də öz dost-müttəfiqlərindən gözləmir, bunu haqq eləməyib.

Konkret olaraq İrəvanın Abxaziya dəmir yolunun işə düşməsinə bəslədiyi ümidlərə gəlincə, "Yeni Müsavat" bir daha xatırladır ki, rəsmi Tiflis ən əvvəl siyasi amilə görə buna razılıq vermir. Çünki Rusiya anlaşma sənədinə Abxaziya və Cənubi Osetiya "hökumətləri"nin də müstəqil tərəf qismində imza atmasında təkid edir ki, bu şərtin qəbul edilməsi də avtomatik şəkildə Tiflisin separatçı qurumları müstəqil dövlət kimi tanıması anlamına gəlir. Gürcüstan təbii ki, bunun əleyhinədir.

*****

Bu arada məlum olub ki, Rusiya işğal altındakı Cənubi Osetiya hərbi birləşmələrinin Rusiya ordusu tərkibinə daxil olmasına icazə verib. Musavat.com-un məlumatına görə, dünən Rusiya Federasiya Şurasının Müdafiə və təhlükəsizlik komitəsi Rusiya ilə Cənubi Osetiya arasında imzalanmış və "Cənubi Osetiya silahlı qüvvələrinin Rusiya silahlı qüvvələrinin tərkibinə keçməsi qaydası" haqda sazişi dəstəkləyib və Federasiya Şurasına (Rusiya parlamentinin yuxarı palatası - red.) onu ratifikasiya eləməklə bağlı tövsiyə verib. Federasiya Şurası bu gün - yanvarın 31-də məsələyə baxacaq.

Bu da o anlama gəlir ki, onsuz da diplomatik əlaqələri 2008-ci ildə "5 günlük müharibə" səbəbindən kəsilmiş Tiflislə Moskva arasında siyasi-diplomatik uçurum bir az da dərinləşəcək. Deməli, ermənilərə separatçı bölgələrdən quru dəhliz açmaq planı bir az da qəlizə düşəcək.

*****

Rusiya ilə Abxaziya dəmir yolu ilə dəhlizə nail olmayan Ermənistan üçün başqa daha "nəfəs kəsici" xəbər ABŞ-dan gəlib. Belə ki, Amerikanın Rusiya hərbi sənayesinə tətbiq etdiyi sanksiyalar qüvvəyə minib. "Yeni Müsavat" bildirir ki, ABŞ dünəndən etibarən Rusiyanın hərbi sənayesinə daxil olan şirkətlərlə müqavilə imzalayacaq şəxslərə və şirkətlərə qarşı sanksiyalar tətbiq edilməyə başlayıb.

Məlumatlara görə, Moskva ilə imzalanacaq müqavilənin əhəmiyyəti və onun nə dərəcədə ziyanlı olmasını ABŞ tərəfi müəyyən edəcək. Sanksiyalar 2017-ci ilin yayında qəbul edilən "Amerikanın düşmənlərinə qarşı sanksiyalar vasitəsilə mübarizə haqqında" Qanun əsasında tətbiq ediləcək.

Qeyd edək ki, bu qanun təkcə xarici yox, həm də Rusiya şirkətlərinə də ölkə hərbi sənayesi ilə əlaqəni qadağan edir. ABŞ oktyabrda Rusiyanın 25-dən çox hərbi şirkətini özünün qara siyahısına daxil etmişdi. Rusiya 2017-ci ildə Azərbaycan da daxil, bir sıra ölkələrə 14 milyard dollar silah satıb.

*****

Doğrudur, Azərbaycan da sanksiyalardan dolayı müəyyən problemlə üzləşə bilər. Hərçənd, məsələn, rusiyalı hərbi analitik Anatoli Tsıqanyuk hesab edir ki, ABŞ Rusiya silahlarının Azərbaycana tədarükünə göz yumacaq, çünki Vaşinqton Bakıya regionda özünün strateji tərəfdaşı kimi baxır. "Amerika Azərbaycanın hərbi potensialının zəifləməsində maraqlı deyil. Ermənistana münasibətdə isə əksinə, Rusiyanın müttəfiqi kimi, sanksiyaların tətbiqi tamamilə mümkündür", - deyə o xəbərdarlıq edib.

Bundan əlavə, Ermənistandan fərqli olaraq Azərbaycanın alternativ yolları var, silahı başqa ölkələrdən - İsrail, Türkiyə, Pakistan, Belarusdan da ala bilər və alır. Üstəlik, Bakının buna maliyyə resursları yetərlidir. Ermənistan isə hər mənada Kremlin girovluğundadır. Deməli, Rusiyaya qarşı getdikcə daha da sərtləşən sanksiyaların altını onun sadiq satelliti Ermənistan da çəkməli olacaq.

Söhbət həm də iqtisadi xarakterli məhdudiyyətlərdən gedir. Kəsəsi, blokada şəraitində olan, əsas qonşuları ilə sərhədləri bağlı, dünya okeanına çıxışdan məhrum və xarici sərmayədarlar üçün heç bir cazibədarlığı olmayan Ermənistan Rusiyaya görə babat "bədəl" ödəməli olacaq.

**❑ "Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 23 (6912) 31 yanvar 2018

# Hafiz Hacıyev sabiq nazirləri biabır etdi

## "Ziya Məmmədov və Fazil Məmmədovun dizlərini yerə qoydum"

**Siyasi qüvvələr artıq 2018-ci il prezident seçkisinə namizədlər irəli sürməyə başlayıblar. Daha əvvəlki üç prezident seçkisində iddiaçı olan Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev hələlik susqundur. Onunla seçkilərlə bağlı söhbət etdik.**

***- Qarşıdan gələn prezident seçkilərində sizi yenə də namizəd kimi görəcəyik?***

- Biz artıq seçkilərə start vermişik. Sadəcə, rəsmiləşdirmək qalıb. Partiyamızın Siyasi Şurasının ya fevralın axırlarında, ya da martın ilk on günlüyündə iclası keçiriləcək. Bizdə qurultay arası dönəmlərdə qanunverici orqan Siyasi Şuradır. Son qurultayımız bir il öncə keçirilib. Siyasi Şuranın qarşıdan gələn iclasında namizədliyim rəsmiləşdiriləcək. Biz artıq seçkilərə hazırlaşırıq. Rayon təşkilatlarının və partiyanın orqanlarının keçirilən iclaslarında bu məsələ diqqətə çatdırılır, müzakirə edilir. İctimaiyyətlə də görüşlərimiz olur. Hafiz Hacıyev 2018-ci il seçkilərində iştirak edəcək. Bu seçkilərdə qalib gəlmək istəyirik. İndiyə qədər namizədliklərini elan edənlərlə bağlı onu deyə bilərəm ki, onlar "əldəqayırma namizədlərdir". Bu şəxslər haqqında namizəd kimi danışmağa dəyməz. Gərək bu xalqın yanında üzün, haqqın ola ki, namizədliyini verə biləsən. Baxırsan ki, iki nəfəri idarə edə bilmir, prezidentliyə namizəd olur. Görürsən ki, xalqa xəyanət edən adamlar iddialarını açıqlayırlar. Biz hadisələri izləyə-izləyə gedirik. Düşünürəm ki, Müasir Müsavat Partiyasının namizədinin qarşısına çıxa biləcək bir qüvvə olmayacaq. Seçkiqabağı görüşlərdə, mitinqlərdə, debatlarda xalq bunun şahidi olacaq. İstənilən halda biz qalib gəlmək uğrunda əlimizdən gələni edəcəyik. Son illərdəki fəaliyyətimizlə, xalqımızın qayğısına qalmaqla hər şeyi sübut etmişik. Partiyalar var ki, xarici dövlətlərin tapşırığı ilə bir şəxsdən yapışıblar. Onlara biz imkan verməyəcəyik ki, Azərbaycanın idarəetməsində iştirak etsinlər. Kim namizədliyini verirsə, bilməlidir ki, kiminlə duelə çıxacaq, üzbəüz görüşlərdə udacaq, ya uduzacaq. Bundan əvvəlki seçkiləri mütləq nəzərə alsınlar. Lentləri fırlasınlar, onlar hər şeyi görəcəklər. Onlar heç bir halda Hafiz Hacıyevin qarşısında duruş gətirə bilməyəcəklər.

***- Daim qələbədən danışırsınız, amma nəticələrdə son sıralarda yer alırsınız...***

- Bunu daim deyirlər və hörmətli media nümayəndələri bunu hər zaman başıma qaxırlar. Amma unutmaq olmaz ki, iki rəqibdən biri qalib gəlir. Son nəticələrdə bəzən səslərimizin bir hissəsini güzəştə gedirik. Qoy məni son sıraya atsınlar. Mənim üçün əsas olan odur ki, Hafiz Hacıyevin istədiyi şəxs dövlətin başında olur. Burada əsas söhbət dövlətçiliyə sadiqlikdən gedir. İndi nə edək ki, bizim hakimiyyət dövründə xəyanətkar olanlar müxtəlif cür fikirlər formalaşdırırlar. Teledebatlarda çəkdiyim əziyyətlər, rəqiblərimlə apardığım mübarizə dövlətimizin bu günə gəlib çıxmasına səbəb olub. Bəzi problemlərə baxmayaraq, dövlətimiz inkişaf edir. Canımda nə qədər can var, dövlətçiliyimiz üçün əlimdən gələni edəcəyəm. Çünki bizlər ağır məhrumiyyətlər yaşamışıq, Elçibəy hakimiyyətinin necə devrildiyini, Qarabağın necə itirildiyini, içərimizdən bizə olan xəyanətləri görmüşük. Heç zaman mən xarici kəşfiyyata işləməmişəm. O birilərdən əsas fərqli cəhətim budur. Dəfələrlə Azərbaycanda fəaliyyət göstərən bəzi ölkələrin səfirləri mənə ismarış göndəriblər ki, bizimlə çalışsan, sənin üçün daha yaxşı olar. Bu gün yaxşı yaşamamağım, kirayədə qalmağım, bir qarnı ac, bir qarnı tox ömür sürməyim elə bir fərq etmir. Dövlətçiliyimizin inkişafı üçün bundan sonra da fəaliyyətimi davam etdirəcəyəm. Son seçkilərdə bir partiya sədrini nəticələrdə qabaqladım. Kim hansı rəqəmi yazırsa yazsın.

***- Deyirsiniz ki, kim hansı rəqəmi yazırsa yazsın, bununla nə demək istəyirsiniz? Səsinizin oğurlandığını iddia edirsiniz?***

- Mən bunu deməzdim. Çünki könüllü şəkildə səslərimi kimə verdiyimi yaxşı bilirəm. O qədər də sadəlövh insan deyiləm. Başqaları laborantlıqdan qabağa gedə bilmədi, Qərbin projelərindən kənara çıxmadılar. Səslərimin müəyyən hissəsini sonda bəzi razılaşmalarla kiməsə verdimsə, bu normal bir haldır. Bu gün ölkəmdə neqativləri deyirəmsə, dövlətə cüzi olsa da, kömək edə bilirəmsə, rüşvətxor məmurlarla mübarizə aparıramsa, prezidenti qorumağı bacarıramsa, bunun özü prezident olmağımdan yaxşıdır. Bu gün hökumətin içərisində Azərbaycan müxalifətini saxlayanlar üzərində qalib gəlmişəmsə, bunları vəzifədən kənarlaşdıra bilmişəmsə, bu mənim qalibiyyətimdir. Bundan əlavə, ölkə başçısına xəyanət edən, milyardları oğurlayanlara qarşı çıxıb, onların diz çökdürə bilmişəmsə, bu ən böyük uğurumdur. Ziya Məmmədovun üstünə getmişəm, dizini yerə qoymuşam. Sonda Fazil Məmmədovun üzərinə getdim, onun da dizini yerə qoydum. Onlardan qabaq da çökdürdüyüm nazirlər az olmayıb. Bu gün də xəyanət edənlər var. Hakimiyyət daxilində Qərbə işləyən qüvvələr var. Bu gün bəziləri Fərhad Əliyevin yolunu gedir. Əgər bu şəxslərin üstünə gedib, onları zərərsizləşdirib, dövlətə xidmət edirəmsə, bu mənim üçün prezidentlik deməkdir. Səsimi kimə verəcəm, gizli şəkildə kiminlə sövdələşəcəm, yaxud kim səsini mənə verəcək, bu iki şəxs arasında olan söhbətdir. Bu sirr olaraq qalacaq. Üç seçkiyə qatılmışam, mən deyənlər olub. Bunlar mənim üçün unudulmaz tarixdir. Azərbaycanla bağlı rəhmətlik Elçibəyin vəsiyyətlərini cüzi də olsa, yerinə yetirə bilmişəm.



**"Bəziləri deyir ki, Hafiz Hacıyev seçkidə bizimlə olmasa, onu öldürməliyik"**

***- Ola bilər ki, hakimiyyətin namizədindən əlavə başqa birini dəstəkləyəsiniz?***

- Bu, qətiyyən mümkün deyil. Onların hamısı satılmış insanlardır. Elçibəyə zəhər verib öldürən Kərimli Əlini, Həsənli Cəmili, xaricdə qarşılarına viski qoyub ölkəmiz əleyhinə fəaliyyət göstərənləri, yaxud ildə bir dəfə onun-bunun tapşırığı ilə banlayan digər namizədlərimi dəstəkləyim? Hafiz Hacıyev dövlətçiliyimizi qoruyan insanlara səsini güzəştə gedə bilər. Bu gün məni hədəfə alıblar və bəziləri deyir ki, Hafiz Hacıyev bizimlə olsa, qalib gələrik, olmasa bunu öldürməliyik. Seçki ərəfəsində debatlar olacaq və onları bir daha başa salacam. 15 il öncə dediklərim bu gün öz yerini tutub. Mən yalnız bircə prezidentə güzəştə gedərəm.

***- O zaman Hafiz Hacıyev niyə namizəd olur?***

- Niyə də namizəd olmayım? Niyə Hafiz Hacıyev xəyanətkarların qarşısını alıb, efirdən həqiqətləri xalqa çatdırmasın? Mən namizəd olmasaydım, Həsənli Cəmil bu xalqın başına hansı oyunları açardı. Bu xalq yazıq deyilmi? Prezident seçkiləri oyun-oyuncaq bir proses deyil. Mən bilsəm ki, cənab prezidentdən layiqli biri var, müraciət edərəm ki, gəlin onu dəstəkləyək. Axı bu yoxdur. Gözlərim bəlkə kordur görmürəm, sizlər deyin, varmı? Mən nə işlər gördüyümü yaxşı bilirəm. Mən namizədliyimi verməyim, onlar da çıxıb tele-debatlarda ağızlarına gələni danışsınlar? Son seçkidə Cəmil Həsənlinin özünü necə apardığının şahidi olduq. Bu şəxslərə baxın, bir dəfə də hakimiyyətdə olub rüşvətxorluqla məşğul olanları tənqid etmirlər. Çünki onların əllərinə baxırlar. Yalnız bir nəfəri hədəf alıblar. Mən dediyimin bir faizini onlar desinlər, niyə demirlər? Sosial şəbəkələr və mətbuatda məndən başqa bu milletin dərdinə qalan varmı? Kərimli Əli müxalifət deyil. Bir vaxt o, Eldar Mahmudovun nəzarətində idi. Bunların hamısı hakimiyyətin müəyyən qollarına xidmət edirlər. Mən hər zaman cənab prezidentin üzərinə bəzi "siyasi tulaları" qısqırdanların qarşısında olacam. Həyatımı bu yolda riskə atmışam, mən öləndən sonra nə olacaq? Bunları düşünmək lazımdır.

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**



## Prezident "Şahdağ" kompleksində

### Dövlət başçısına qış-yay turizm kompleksində bu il görüləcək işlər barədə məlumat verilib

**Prezident İlham Əliyev yanvarın 30-da Qusarda "Şahdağ" qış-yay turizm kompleksinin növbəti inkişaf planları ilə tanış olub.**



Baş nazirin birinci müavini Yaqub Eyyubov prezident İlham Əliyevə "Şahdağ" qış-yay turizm kompleksinin hazırkı vəziyyəti və burada bu il ikinci mərhələdə görüləcək işlər barədə məlumat verib. Qeyd edilib ki, burada dəniz səviyyəsindən 2350 metr yüksəklikdə 5 nömrəli lift meydançası inşa ediləcək və 4,2 kilometr uzunluğunda yeni eniş zolağı tikiləcək. Bu, ən uzun zolaq olmaqla yanaşı, mürəkkəbliyinə görə də qırmızı dərəcəli zolaq olacaq.

Həmçinin dövlət başçısına məlumat verilib ki, bu il kompleksin əsas meydanında əyləncə infrastrukturunun qurulması da planlaşdırılır. Burada "Boulinq", tennis və digər stolüstü oyunlar zalı, kinoteatr, musiqi mərkəzi, həmçinin suvenir mağazaları, iaşə və xidmət obyektləri inşa ediləcək.

Kompleksin yay mövsümündə də xidmət göstərməsi üçün burada göl yaradılacaq. Yay mövsümündə turistlər bu göldə həm üzəcək, həm də qayıqlarla səyahət edəcəklər. Qış mövsümündə isə bu göldən qaryaratma üçün ehtiyat mənbəyi kimi istifadə olunacaq.

İkinci mərhələdə görülməsi planlaşdırılan işlərə bu ilin yaz aylarından başlanılacaq. Bunun üçün indidən hazırlıq işləri görülür.

Dövlət başçısına kompleksin yol infrastrukturu barədə də ətraflı məlumat verilib. Bildirilib ki, kompleksin ərazisindən keçən Qusar-Ləzə yolu onun kənarından inşa olunacaq. Bu da imkan verəcək ki, yuxarı kəndlərin sakinləri kompleksin ərazisinə daxil olmadan hərəkət etsinlər. Hazırda bu yolun yarısının torpaq yatağı hazırlanıb. Qalan işlərin ilin sonuna qədər tamamlanması nəzərdə tutulur. Bu yeni yoldan kompleks ərazisinə iki giriş nəzərdə tutulub. Kompleksin girişində böyük avtomobil dayanacağının da istifadəyə verilməsi planlaşdırılır.

Məlumat verilib ki, kompleksin üçüncü mərhələsi ilə bağlı layihələndirmə işləri aparılır.

Kompleksin əsas meydanının ərazisi ilə tanış olan dövlətimizin başçısı tapşırıq və tövsiyələrini verib.

Sonra prezident "Şahdağ" qış-yay turizm kompleksində xizək sürüb.

**Fevralın 21-də akademik Ziya Bünyadovun qətlə yetirilməsinin 21-ci ildönümü tamam olacaq. Həmin dəhşətli qətl hadisəsində günahlandırılaraq ömürlük həbs cəzası almış Nizami Nağıyevin atası, YAP-ın qurucularından biri, Abşeronun sabiq icra başçısı Adil Nağıyev "Yeni Müsavat"a müraciət edərək qətl hadisəsi ilə bağlı ilginc məlumatlar verib. Redaksiyamızda baş tutan müsahibənin ikinci hissəsini təqdim edirik:**

# Ziya Bünyadovun qatilinin atasından növbəti şok açıqlamalar

## Adil Nağıyev: "Ziya Bünyadovun xanımına dedim ki, Tahirə xanım, sənin ərini bax, bu adamlar öldürüb"

**(əvvəli ötən sayımızda)**

***- Ziya Bünyadova beş bıçaq zərbəsi endirən oğlunuz artıq 18 ildir həbsdədir. Sonuncu dəfə onunla nə zaman görüşmüşünüz?***

- Oğlumun 2 oğlu, 1 qızı var, biri əlildir. Oğlu əsgərliyini çəkib, gəlib, işləmir. Əlil oğlu da ayda 50 manat təqaüd alır. Arvadı da xəstədir, işləmir. Mən pensiya pulumla bir inək alıb vermişəm, onunla dolanırlar. Çox ağır vəziyyətdədirlər. DTX rəhbəri Mədət Quliyev hələ Penitensiar Xidmətin rəisi gələndə mən oğlumun işi ilə bağlı gedib onunla görüşdüm, xahiş etdim. O, oğlumun işini gətirtdirdi, oxudu. Oğlum 18 ildir türmədə yatır, özünü yaxşı apardığı üçün ayda iki dəfə telefonla danışmağa, ailəsi ilə ildə dörd dəfə görüşməyə, "peredaça"nı hər ay qəbul etməyə icazə veriblər. Penitensiar Xidmət Əfv Komissiyasına ərizə də yazdı.

***- Bəs bu illər ərzində Ziya Bünyadovun xanımı ilə görüşdünüzmü?***

- Bəli. Mən Tahirə xanımla Bilgəh sanatoriyasında təsadüfən görüşdüm (birlikdə çəkdirdikləri fotoları da təqdim edir-red.) Artıq bu işi bilirdim.

***- Tahirə xanım sizi görəndə necə reaksiya verdi?***

- Görüşənə qədər nə mən onu, nə o məni tanıyırdı. Həkimlərdən biri dedi ki, Ziya Bünyadovun həyat yoldaşıdır. Yaxınlaşıb salam verdim. Soruşdum Tahirə xanım sizsiniz? Dedi, "bəli". Dedim, mən də Abşeronun keçmiş icra başçısı Adil Nağıyev, sənin həyat yoldaşına sui-qəsdin iştirakçılarından birinin atasıyam. İmkanın varsa, əgər istəyirsənsə, mən bütün "kart"ları sənin üçün aça bilərəm, həqiqəti sənə deyəcəyəm. O da məmnuniyyətlə çəkildi bir tərəfə, çay masasında bütün detalları ona danışdım. 90 yaşındaydı. Dedim, sən də yaşlı adamsan, mən də, bir gün bu dünyadan ikimiz də köçüb gedəcəyik. Bütün hamısını danışdım. Dedim, qoy sənin ürəyində şübhə qalmasın... Bu sözləri indiyədək başqa heç kimə deməmişəm, ona demişəm, bir də sizin qəzetə deyirəm... Həmişə demişəm mənim oğlumun günahı yoxdur, amma bu gün etiraf edirəm. Niyə etiraf edirəm? Çünki artıq xəstəyəm, İstanbulda ürəyimdə üç yerdə əməliyyat olunmuşam, stend qoyublar, bu gün-sabah ölüb-gedəcəyəm, qoy bu iş örtülü qalmasın, açıq qalsın. Bəlkə buna görə Allah məni bağışladı, cənnəti qismət elədi. Ziya Bünyadovun xanımına dedim, Tahirə xanım, sənin ərini bax, bu adamlar öldürüb. Sən əlini ürəyinin üstünə qoy, ürəyini buz kimi saxla, hökumətin bu işlə əlaqəsi yoxdur. Çünki ictimaiyyətdə belə bir fikir var idi ki, Ziya Bünyadovu aradan götürdülər, hökumətin özü təşkil elədi... Xeyr! Bunu "Hizbullah" təşkilatı "Nəsrullah"ı göndərdi, "Alban tarixi" kitabını tərcümə etdiyinə görə aradan götürdülər. Burada məqsəd nə idi? Respublikada çaxnaşma yaratmaq, iqtidarı gözdən salmaq, konstitusiya quruluşuna zərbə vurmaq üçün bunu etdilər. Niyə Ziya Bünyadovu? Çünki Ziya Bünyadov çox hörmətli adam idi, avtoritet idi. Ziya Bünyadov ermənilərə, Azərbaycanı istəməyən adamlara qarşı kəskin mübarizə aparırdı. Bir də ki, Ziya Bünyadov elə-belə adam deyildi, Sovet İttifaqı Qəhrəmanı idi, akademik idi. Sumqayıt hadisələri zamanı Saxarov bura gəldi, Ziya Bünyadov onun atasını yandırdı. Elə adama əl qaldıranın əli qurusun!

***- Tahirə xanım bu etiraflarınızdan sonra nə dedi? Sizi bağışladımı?***

- Bəli, Tahirə xanım məni bağışladı. Mənə dedi sənin bu kişiliyinə, mərdliyinə görə mən də prezidentə müraciət edəcəyəm ki, sənin oğlunun işini yüngülləşdirsinlər. Dedi mən də bu dünyadan gedəcəyəm, qoy Ziyanın ruhu şad olsun. Bundan sonra o, prezidentə ərizə yazdı. Xahiş edirəm, Tahirə xanımın ərizəsinə baxın.

**Haşiyə:**

**A.Nağıyev rəhmətlik Tahirə xanım Bünyadovanın sağlığında ərinin qatili üçün prezidentə ünvanlandığı əfv müraciətini təqdim edir. Böyük ürək sahibi olan akademikin xanımı yazıb:**

"Həyat yoldaşımın ölümündə iştirakçı kimi təqsirli bilinən Nağıyev Nizami Adil oğlunun ən ağır cəzaya - ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilməsi məni daim narahat edir. Düşünürəm ki, belə bir vəziyyətdə Ziya Bünyadov özü necə davranar və hansı qərarı qəbul edərdi?! Mənə elə gəlir ki, Ziya Nizami Nağıyevi bağışlayardı. Ən qatı günahları Ulu Tanrı bağışlayırsa və bağışlamaq böyüklük əlamətidirsə, mən 14 ildir Qobustan həbsxanasında cəza çəkən Nağıyev Nizami Adil oğlunu bağışlayıram!

**Hörmətli cənab prezident!**

Nağıyev Nizami Adil oğlunu bağışlayıb əfv edərək cəzasını yüngülləşdirməyinizi Sizdən xahiş edirəm".

***- Adil müəllim, 10 ildən sonra oğlunuzla həbsxanadakı ilk görüşü necə xatırlayırsınız?***

- Oğlum mənimlə goruşməyə qorxurdu, tərəddüd edirdi və bunu mənə deməyə risk eləmirdi. 10 ildən sonra görüşəndən sonra dedim, ayə, kişiliyin olsun, sən burda çürüyürsən, mənə düzünü de. Yoxsa mən də orda-burda deyirəm ki, mənim oğlumun günahı yoxdur. Axı sən hacısan, namaz qılansan - özü də orda namaz qılıb, oruc tutur - ondan sonra açıb mənə düzünü deyib. Mən bilməmişəm. O vaxt məni yuxarı təşkilatlara çox çağırdılar ki, düzünü danış. Dedim, vallah, əgər bu qətli oğlum törədibsə, güllələyin, mənə elə oğul lazım deyil. Həqiqətən də sən 75 yaşlı qoca kişiyə qarşı niyə belə edəsən?

***- Dediniz ki, 10 ildən sonra həqiqəti öyrənə bilmişsiniz. Amma artıq 18 il keçib, bəs bu vaxta kimi niyə həqiqəti açmadınız?***

- Mən o görüşdən sonra bu məsələni açmaq fikrindəydim. Bir gün cənab prezident İlham Əliyev bulvarda gəzirdi. Neçənci il olduğunu xatırlamıram. Allah elədi, mən onunla üz-üzə çıxdım, görüşdüm. O, məni tanıdı. Mən bu məsələni prezidentə açmaq istəyirdim. Dedim, cənab prezident, siz nə mənim oğlumu bağışlayın, nə də azad edin, əsl həqiqəti mən sizə demək istəyirəm. Həmin görüşdə onun üzündən öpdüm, qəzetlər şəklimizi çəkdilər. Mən bu sözü prezidentimə deyə bilərdim, başqasına yox. Prezident Vaqif Axundova tapşırdı. O da adımı, telefonumu yazdı, məni onsuz da tanıyırdı. O vaxt yanında Hacıbala Abutalıbov, daxili işlər nazirinin müavini, general Oruc Zalov, BŞBP-nin rəisi Məhərrəm Əliyev də var idi. Sonra isə məni qəbul etmədilər, qoymadılar. Mən Ziya Bünyadovun xanımına dediyim sözü ona deyəcəkdim.

***- Yəni bu sözləri ilk dəfədir bizə deyirsiniz?***

- Bəli, heç yanda açıb-eləməmişəm, heç kəsə deməmişəm. İndi kim nə deyir-desin. Deyəcəklər Adilə kimsə təzyiq elədi. Mənə heç kəs təzyiq edə bilməz. Mən elə şəxsiyyətəm ki, təzyiqi qəbul etmirəm, heç kəsdən də qorxmuram, çəkinmirəm. Sadəcə olaraq, ürəyim əməliyyat olunduğuna görə, öləcəyəm deyə, qoy açılsın. Niyə sirr olaraq qalsın ki? Bəzi adamlar da bu faktdan istifadə edirlər. Guya mənə canları yanır. Yalandır. Üzümə irişirlər ki, sən oğlunu... Bu, həqiqətdir. Onsuz da hökumət bunu bilir, desəm də, deməsəm də. Ziya Bünyadovun qətlinin ildönümü yaxınlaşdığına görə mən özümə borc bildim ki, sizin redaksiyaya gəlim, bunları deyim. Çünki sizin qəzeti hamı oxuyur, özüm də hər gün alıram, oxuyuram.

***- Adil müəllim, indiyədək Ziya Bünyadovun məzarı üstünə gedibsinizmi?***

- Bəli, həyat yoldaşı ilə birgə getmişəm, bir dəstə də gül aparıb məzarı üstünə qoymuşam. Məni orda maraqlandıran bir şey var, məzarüstü abidənin ayağında gürzə ilanının şəklini çəkiblər. O gürzə gəlib Ziya Bünyadovun ayağından vurur. Mən hələ baş aça bilmirəm ki, o, nəyin rəmzidir, kimdir o gürzə ilan?

***- Yəqin düşmənə işarədir...***

- Bəlkə də. Bilmirəm. Demək, bu işin təşkilatçısı Tariyel Ramazanov, Cavanşir Aslanovdur. Əsas təşkilatçılarla sifarişçi "Nəsrullah" qaçıb, axtarırlar, tapa bilmirlər. Bir neçə nəfər var, onların hamısını buraxıblar. Mahir Zeynalova da ömürlük veriblər. Oğlumu cəlb eləyən Tarıyel Ramazanovdur, Allah onun evini yıxsın, bizi bu oyuna salan odur. Bizimki cavan oğlan olub, səhv edib, düşüb onların təsiri altına. Atası icra başçısı, qardaşları orqan işçiləri, bu, bizə lazım idi?!

***- Çox ağır qətl törətmiş oğlunuzla bağlı indi istəyiniz nədir?***

- 18 ildir yatır. Prezidentimizə inanıram, həmişə onu dəstəkləmişəm, bundan sonra da dəstəkləyəcəyəm. Humanist şəxsiyyətdir, çox adamları həbsdən buraxıb. Əfv eləsin oğlumu. Heç olmasa ömürlüyü üstündən götürsün. Baş prokuror Zakir Qaralovdan, daxili işlər naziri Ramil Usubovdan, Əfv Komissiyasının sədri Ramiz Mehdiyevdən xahiş edirəm, yoxlasınlar görsünlər mənim oğlum islah olunubmu? Özünü düz aparır, heç kəsə qoşulmur. Mənim nəslim başda olmaqla, biz Vedibasar camaatı həmişə prezidentin tərəfində olmuşuq. Mən icra başçısı işləyəndə Heydər Əliyev gecə saat 1-2-yə kimi işləyirdi. Biz qorxumuzdan heç yana tərpənə bilməzdik, oturub gözləyirdik, Prezident Aparatının təlimatçısına zəng edirdik ki, Heydər müəllim getdimi? Gedəndən sonra hamımız evə gedirdik. Heydər Əliyev Azərbaycan hökumətini qurdu. Allah ona rəhmət eləsin! Mən sizin qəzetə, şəxsən sənə söz verirəm, oğlumu əfv etsələr, azadlığa çıxsa, neçə ki, ölməmişəm, ailəmlə, gəlinlərimlə, oğullarımla, 13 nəvəm, 13 nəticəmlə bir yerdə gül götürəcəyəm, gedib Heydər Əliyevin məzarını ziyarət edəcəyəm, dua oxutduracağam və onun qəbrinin ayaqlarından öpüb, çıxıb gələcəyəm.

***- Bəs Ziya Bünyadovun?***

- Ziya Bünyadovun da məzarı üstünə gül qoyacağam. Mütləq. Məni Azərbaycana kim tanıtdı? Heydər Əliyev. Adi sovxoz direktoru idim. Məni indi bütün ölkə, bütün icra aparatı, bütün orqanlar tanıyır. Ona görə də mən ömrüm boyu ona sədaqətli olacağam. Bir şeyi də deyim. Mən Abşeron rayonunda YAP-ı yaradanlardan biriyəm. Xahiş edirəm, bunu da çəkin. **(YAP üzvü olmasını təsdiqləyən vəsiqəni göstərir-red.)** Bax, bu, Heydər Əliyevin imzasıdır, bu da mənim şəklim. Mən YAP-ın üzvüyəm, ölənə kimi də YAP-ın üzvü olacağam. Adamlar var vəzifədən çıxaranda əqidəsini dəyişir, amma mən ölənə kimi əqidəmi dəyişmərəm. Məni YAP-a zorla aparmayıblar ki. Mən YAP-ı sevmişəm, rayon təşkilatını yaratmışam.

Onu da demək istəyirəm ki, həyat yoldaşım xərçəng xəstəsidir, akademik Əhliman Əmiraslanov onu əməliyyat edib. Elə hey deyir, görəsən, ölmədən oğlumu görə biləcəyəm? Bu arzu ilə yaşayır. Özüm də ürəyim əməliyyat olunub, qocayam, çətin vəziyyətdə yaşayırıq, uşaqlarımız çətin vəziyyətdədir. Mən prezidentimizə inanıram. Mən Mehriban xanıma müraciət etmişəm. Mehriban xanım analar anasıdır, Tomris, Nüşabə kimi xanımlara bənzətmişəm onu, çox ağıllı qadındır, neçə dil bilir. Cənab prezident Davosda çıxış edirdi, nə qədər məntiqli danışırdı...

Nə etmək olar ki, qəzavü-qədər gələndə, faciələr olanda heç də adamın özündən soruşmur. Belə bir həyatı, belə bir taleni bizim ailə də yaşadı. 18 il bundan əvvəl akademik Ziya Bünyadovun qətli ilə əlaqədar oğlum həbs edildi və 18 ildir həbsxanadadır. Bu hadisə belə mənim Azərbaycana, dövlətçiliyimizə, ulu öndərimizə, qanunlarımızın aliliyinə olan hörmətimə zərrə qədər də xələl gətirmədi. Çünki mən özüm də yaranışdan qanuna hörmət ruhunda böyümüşəm. Qanun toxunulmazdır. Bütün bunlarla yanaşı, bir həqiqəti də demək lazımdır ki, qanunun bir tərəfi də humanizmlə bağlıdır. Məhz bu baxımdan oğlumun cinayətinə görə çəkdiyi 18 ili nəzərə alaraq, eyni zamanda mənim, həmçinin ağır xəstə olan ömür-gün yoldaşım Gülüstan xanımın, bütün ailə üzvlərimizin hamısının adından, cənab prezidentimizdən xahiş edirəm - onu da deyim ki, bu müraciəti edərkən mən cənab prezidentimizin ədalət və rəhminə sığınıram - oğlumu əfv etsin. Allah yardımçısı olsun! Siz də sağ olun.



**"Cənab prezidentimizin ədalət və rəhminə sığınıram - oğlumu əfv etsin"; akademikin həyat yoldaşı 4 il əvvəl ərinin qatili üçün prezidentdən əfv istəyibmiş**




❑ **Elşad PAŞASOY**
**"Yeni Müsavat"**



# Pələngin qəfəsi yanında iki kvadratlıq yer

Zamin HACI
zaminhaci@gmail.com

**Dini işlər idarəsinin müdiri Mübariz müəllimin sözlərinə görə məzarlıqlar və dəfn mərasimlərinə aid qaydalar artıq hazırlanmışdır. Yəni istəsək yıxılıb ölə bilərik. Çünki bu qaydalarsız ölmək sabitliyə və ictimai asayişə bir növ uyğun gəlmirdi. Hətta şübhə vardı ki, hökumət qərarı olmadan yeddisi verilən, yaxud qəbrinin üstü götürülən bəni-adəm o tayda cənnətə düşə bilərmi, əgər düşsə bu məkruhdurmu və sairə. Bu yerdə qəfildən bir sovet dövrü lətifəsi yadıma düşdü. Deyir Allahşükür müəllim təzə maşın alır, nömrə üçün QAİ-yə üz tutur, onlardan mollaya layiq nömrə istəyir. QAİ deyir buyurun, Allahşükür müəllim, 37-40 AQE nömrəsi tam sizlikdir. Şeyx təəccüblənir, milis izah edir: "3-ü, 7-si, 40-ı, Allah Qəbul Eləsin". Ax. Ax. Gül kimi hökumət idi, Allah Qorbaçovun tifaqını dağıtsın. Onu o biri dünyada da Raisaya ürcah eləsin, ilahi, amin.**

Hər cəhətdən bizi fikirləşirlər. Keçən günlərdə deputatxanadan bir yoldaş ərz elədi ki, Bakıda sirk və zoopark çox pis gündədir. Darısqaldır, heyvanlar işgəncə altındadır, meymunlar banan yemir, dəvə camaatın üzünə tüpürmək belə istəmir və sairə. Haqlı iraddır. Hərçənd zooparkda pələngin yaşayış şəraitinin yaxşılaşdırılmasını demək lazım idi, axı həyat ancaq ağ-qara rənglərdən ibarət deyildir. Orda pələngə var-gəl etmək üçün tam 2 metrlik zolaq ayrılıbdır! Camaatın heç o boyda evi yoxdur. Ancaq zoopark və sirk ehtiyaclarımızı ödəyənlər çox olduğu üçün bəlkə bu tema aktual görünmür. Misal üçün, elə məmur-deputat yoldaşlardan vaxtaşırı kimsə səhnəyə çıxıb jonqlyorluq, klounluq edir, kanatda gəzişir, bəzisi nərildəyir, bəzisi yelsəbet sürür - uca millətimiz də əylənir, gözümüzün qurdunu öldürürük.

Başqa yeniliklər, xoşbəxtçiliklər də gözlənilir. Misal üçün, 18 yaşına çatana qədər bir valideynini itirən, o biri valideyni isə əlil olan tələbələrin təhsil haqqının dövlət tərəfindən ödənilməsi nəzərdə tutulur. Hadı müəllimin sözlərinə görə bu temada qanun qayırırlar, artıq proje hazırdır, ümumən bu qanunun təsiri altına 100 (yüz) tələbə düşəcəkmiş.

Dəhşətdir. Sən 100 tələbəni pulsuz oxudursan! Harda belə humanist dövlət vardır? Məncə, yaxın yüzillikdə bu qanunun çərçivəsi bir az da genəldilə bilər, 18 yaşına qədər babası Böyük Vətən müharibəsində iştirak eləmiş, 15 yaşında nənəsini itirmiş, qardaşının qaynı isə 1-ci dünya savaşında almanların qaz hücumuna məruz qalmış şəxslər də təhsil haqqı ödəməkdən azad olunar. O cümlədən, 15 qardaşın 1 bacısı olan, uşaqlığında qarın yatalağına tutulmuş şəxslər, çeçələ barmağında anadan gəlmə əyrilik olan Çernobıl əlillərinin sonbeşik övladları, 3-cü qrup əlillərin 1-ci qrup uşaqları da təhsil pulu verməsə dövlətçiliyimiz bir daha zəfər çalardı. Hesablamaq lazımdır, ola bilsin bu kateqoriyalardan tələbə gənclərin sayı 60-70 nəfəri ötməz. Büdcəmiz üçün ağır yükdür, ancaq nə edə bilərik? Biz sosial dövlətdə, ancaq və ancaq zəhmətkeşlərin rifah halını düşünən məmurların hakimiyyəti altında yaşayırıq.

Qanun qarşısında bizdə hər kəs bərabərdir. Odur, bəziləri hay-küy qopartmışdı ki, general oğlu maşınla avtobusu qovub sürücünü döydü, cəzasız qaldı və nə bilim nə... Keçən həftə məhkəmə həmin oğlana 4,5 il həbs cəzası kəsdi. Bəlkə general oğlu olmasa 4 il verərdi. Həmin yarım ili də hakim əsəbiləşib üstünə gəlmişdir. Bəs necə, harınlamaq yaramaz hərəkətdir. Ermənistan boşalır, sən isə avtobus sürücüsünü döyürsən. Ayıb deyilmi? İctimai faydalı əməklə məşğul olmaq, pambıqçılıq, pomidor əkinçiliyinə töhfə vermək yerinə maşın qovalayırlar. Hətta dahi şair Füzuli də 500 il qabaq pambıqçılığın inkişafından yazmışdır: "Pənbeyi-daği cünun içrə nihandır bədənim"... Şair deyir ki, o qədər pambıq yığacağıq, axırda dağ boyda olacaq, altında qalacağıq.

İndi söz əlaqədar təşkilatlarındır - mənə də pələngin qəfəsinin böyründə balaca yer verin.




# ABŞ Putinin ətrafını "qara siyahı"ya saldı - sensasion gəlişmə

## "Ekspertlər Vaşinqtonun bu qərarının Rusiya və Putin üçün mümkün nəticələrindən danışdılar

**ABŞ Maliyyə Nazirliyi Konqresin 2017-ci ilin iyulunda qəbul etdiyi və avqustun 2-də prezident Donald Tramp tərəfindən imzalanaraq qüvvəyə minən sanksiya qanunu əsasında hazırladığı "Kreml hesabatı" adlı sənədi qanunverici orqana təqdim edib. Sənədə 210 nəfərin adı daxil edilib. Onlardan 114-ü Rusiyanın yüksək vəzifəli məmurları, 96 nəfəri isə dövlət şirkətlərinin rəhbərləri, o cümlədən oliqarxlardır.**

Siyahıda Rusiya baş naziri Dmitri Medvedyev başda olmaqla, hökumətin bütün üzvlərinin, o cümlədən xarici işlər naziri Sergey Lavrovun, Prezident Administrasiyasının rəhbəri Anton Vaynonun, onun birinci müavini Aleksey Qromovun, prezident Putinin köməkçisi Vladislav Surkovun, prezidentin mətbuat katibi Dmitri Peskovun, Federasiya Şurasının sədri Valentina Matviyenkonun, Dövlət Dumasının sədri Vyaçeslav Volodinin, Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin, Xarici Kəşfiyyat Xidmətinin rəhbəri Sergey Narışkinin, Federal Təhlükəsizlik Xidmətinin direktoru Aleksandr Bortnikovun, Silahlı Qüvvələrin Baş Qərargah rəisi Valeri Gerasimovun, baş prokuror Yuri Çaykanın, İstintaq Komitəsinin sədri Aleksandr Bastrıkinin, Milli Qvardiyanın komandanı Viktor Zolotovun, Moskva meri Sergey Sobyaninin, Sankt-Peterburq qubernatoru Georgi Poltavçenkonun, "Qazprom"un rəhbəri Aleksey Millerin, "Rosneft"in rəhbəri İqor Seçinin, hərbi-sənaye kompleksinin aparıcı şirkəti olan "Rostex"in başçısı Sergey Çemezovun, "Sberbank"ın sədri German Qrefin, VTB-nin sədri Andrey Kostinin, "Vneşekonombank"ın sədri Sergey Qorkov un və digərlərinin adları var.

Oliqarxlar - varidatı 1 milyard dollardan çox olan iş adamları siyahısına isə Roman Abramoviç, Oleq Deripaska, Leonid Fedun, Mixail Qutseriyev, Mixail Fridman, Yevgeni Kasperski, Leonid Mixelson, Pyotr Aven, Aleksey Mordaşov, Vladimir Potanin, Arkadi Rotenberq, Boris Rotenberq, Dmitri Rıbolovlev, Gennadi Timçenko, Alişer Usmanov, Viktor Vekselberq, Süleyman Kərimov, Vahid Ələkbərov, Araz Ağalarov, Fərhad Əhmədov, İsgəndər Mahmudov, Qod Nisanov, Samvel Karapetyan, Danil Xaçaturov kimi məşhurların və tanınmışların adları daxil edilib.

Bəs Rusiyada prezident seçkisi öncəsi ABŞ-ın belə bir addım atmasının hakimiyyət üçün, ABŞ-Rusiya münasibətləri üçün hansı nəticələri ola bilər?

**Politoloq Şahin Cəfərli bildirdi ki, bu, addım "Amerikanın düşmənlərinə sanksiyalar vasitəsilə müqavimət göstərmək haqqında" (CAATSA) ötən ilin iyulunda Konqresdə qəbul olunan qanunun tələbi kimi atılıb:** ""Kreml hesabatı" adlanan sənəd iki hissədən ibarətdir və mətbuata açıqlanmayan məxfi hissəsi də var. Məxfi bölümdə siyahıda adları olan şəxslərin harada, nə qədər aktivlərə, mal varlığına malik olduğuna dair məlumatlar, eləcə də əlavə siyahının ola biləcəyi ehtimal edilir. Açıq siyahıya Azərbaycan əsilli 4 iş adamının - Vahid Ələkbərov, Araz Ağalarov, Fərhad Əhmədov, Qod Nisanovun da adı daxil edilib. Oradakı iş adamlarının və oliqarxların bilinən ümumi varidatı 386 milyard dollardan çoxdur. Bu siyahı avtomatik olaraq həmin şəxslərə qarşı sanksiyaların tətbiq edilməsi mənasına gəlmir. Amma siyahıdakı bəzi şəxslər hazırda sanksiya altındadır. Əvvəla, məqsəd budur ki, siyahıya düşənlər basqı altına alınır, hesab edilir ki, onlar gələcək sanksiyalardan yayınmaq üçün Putinə təsir-təzyiq göstərərək Rusiyanın siyasətində dəyişikliyə nail ola bilərlər. Mümkün olarsa, Putinlə həmin oliqarxların üz-üzə qoyulması, aralarının açılması da hədəflənir. Lakin bu iki düşüncənin gerçəkləşmə ehtimalı azdır. Əgər hər hansı real nəticə əldə olunmasa, onda həmin şəxslərə qarşı sanksiyaların (səyahət qadağası, aktivlərinin dondurulması, dollar sistemindən təcrid və s.) tətbiqinə başlanacaq".

**Bununla yanaşı, Ş.Cəfərli hesab edir ki, siyahının açıqlanması faktının özünün də qaçılmaz təsirləri olacaq:** "Adı sadalananlar "toksik" və "viruslu" subyekt halına gəlir. Yəni əcnəbi sərmayə ABŞ və Avropa biznesi başda olmaqla, artıq bu adamlarla iş görməkdə ən azı tərəddüd edəcək, çoxları bundan yayınacaq. Onların xaricdən maliyyə cəlb etməsi, öz biznesini genişləndirməsi xeyli çətinləşəcək, bəlkə də qeyri-mümkün olacaq. Üstəlik, CAATSA qanununda açıq göstərilir ki, sanksiya altına düşən Rusiya şirkətləri ilə böyük həcmdə iş görən, o cümlədən Rusiyadan ciddi məbləğlər ödəyərək silah alan üçüncü ölkələrin müvafiq qurumları və şirkətləri də ABŞ-ın sanksiyasına məruz qalacaq. Rusiyanın qiymətli kağızlarına, dövlət istiqrazlarına, avrobondlarına sanksiyanın tətbiqi də nəzərdən keçirilir. Konqres hökumətdən bu haqda da hesabat istəyib".

**Politoloq qeyd etdi ki, sanksiyalar Rusiyanın Ukraynaya qarşı işğalçılıq siyasəti, ABŞ-da 2016-cı il prezident seçkilərinə müdaxiləsi və Bəşər Əsəd rejiminə dəstəyi kimi səbəblərlə əsaslandırılıb:** "Qanuna görə, hökumət, prezident sanksiyaları yalnız Konqresin icazəsi ilə ləğv edə bilər, bu isə sanksiyaların uzunmüddətli olması deməkdir. Bu baxımdan CAATSA qanunu 1974-cü ildə SSRİ-yə qarşı qəbul olunan və 38 il sonra - 2012-ci ildə ləğv edilən "Cekson-Venik" qanunu ilə müqayisə edilir. "Cekson-Venik"in ləğvindən sonra Rusiyaya qarşı dərhal başqa bir sanksiya qanunu - "Maqnitski Aktı" qəbul olundu. Sonradan qlobal mahiyyət verilən bu qanunun ucu açıqdır hər il ora yeni adlar əlavə edilir".

**Ş.Cəfərliyə görə, Azərbaycanla bağlı sanksiya məsələsi də ötən ilin sonlarına doğru, xüsusən də "Turan" agentliyinin rəhbəri Mehman Əliyevin həbsindən sonra aktuallaşmışdı:** "Mehman Əliyev beynəlxalq miqyasda tanınan Azərbaycan jurnalistlərindən biridir və bu səbəblə, onun həbsinə sərt reaksiyalar gəldi. Hətta ABŞ-ın nüfuzlu senatorları - Marko Rubio, Benjamin Kardin və digərləri bu barədə məsələ qaldırdılar. Azərbaycan iqtidarı məsələnin ciddiliyini anlayaraq və situasiyanı düzgün qiymətləndirərək Mehman Əliyevi vaxtında azad etdi. Buna baxmayaraq, insan haqlarının müdafiəsi ilə məşğul olan bir sıra beynəlxalq təşkilatlar ABŞ hökumətinə müraciət etmişdilər ki, bəzi orta səviyyəli azərbaycanlı məmurların adları "Maqnitski Aktı"na daxil edilsin. ABŞ hökuməti bu müraciəti nəzərə almadı. Düşünürəm ki, bu məsələdə Azərbaycan hökumətinin Əfqanıstana əlavə sülhməramlıların göndərilməsi barədə qərarı və ümumilikdə Qərblə dialoqa açıq olması amili rol oynadı. Lakin bu, təhlükənin tam sovuşması anlamına gəlmir. "Maqnitski Aktı" qlobal miqyasda tətbiq olunur və hər il oraya dünyanın istənilən ölkəsindən, o cümlədən Azərbaycandan insan haqlarını pozan şəxslərin, dövlət məmurlarının adlarının daxil edilməsi ehtimalı qalır".

**Sabiq maliyyə naziri Fikrət Yusifov isə bildirdi ki, ABŞ-ın bu addımı ilə Rusiya ilə münasibətləri gərginliyin pik həddinə çatdırıb:** "Ümumiyyətlə, bu iki nüvə dövlətinin maraqları təkcə Ukrayna, Suriya və İraqda deyil, Sovetlər dönəmində olduğu kimi, dünyanın əksər bölgələrində toqquşur. Rusiyanın bölgələrdəki münaqişələrlə bağlı öz maraqlarını maksimum qorumaq cəhdləri və bu səbəbdən barışmaz mövqedən çıxış etməsi Amerika rəsmlərini qəzəbləndirir. Əslində ABŞ-ın buna kifayət qədər özünəməxsus "əsasları" mövcuddur. Hər iki dövlətin nüvə silahlarına malik olmasına baxmayaraq, ABŞ dünyanın super gücüdür və dünyada istehsal edilən Ümumi Daxili Məhsulun 1/4-i bu ölkənin payına düşür. Rusiyanın payı isə cəmi 1,7%-dir. Bu səbəbdən də yaranmış münaqişəli məsələləri öz istəyinə uyğun şəkildə həll etmək naminə ABŞ Rusiyaya qarşı işləyə biləcək mümkün kartların hamısından istifadə etməyə çalışır. Gələcəkdə ABŞ-ın Rusiyaya qarşı sanksiyaları bir qədər də genişləndirməsi, neftin qiymətlərinin yenidən kəskin azaldılması kimi kartlardan istifadə edəcəyi də gözləniləndir".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 23 (6912) 31 yanvar 2018

# Prezidentin seçki ili strategiyası - üç mühüm məsələ

## Dövlət başçısı İlham Əliyev konfransdakı çıxışında müstəqil siyasət, dövlət təhlükəsizliyi və sosial rifahı önə çəkdi; bu çıxış təkcə hakimiyyətə gəldiyi 2003-cü ildən bu vaxtadək görülən işlərin hesabatı deyil, oktyabrda keçiriləcək prezident seçkisinə hazırlıq proqramıdır



**Prezident İlham Əliyev yanvarın 29-da Heydər Əliyev Mərkəzində keçirilən "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransdakı nitqi bir neçə aspektdən diqqət çəkdi.**

Bu çıxış təkcə İlham Əliyevin hakimiyyətə gəldiyi 2003-cü ildən bu vaxtadək görülən işlərin hesabatı kimi deyil, bu ilin oktyabrında keçiriləcək prezident seçkisinə bəlkə də start hesab oluna bilər. Təsadüfi deyil ki, dövlət başçısı çıxışını 2003-cü il prezident seçkisini xatırlatmaqla başlayıb. "2003-cü il prezident seçkisi ərəfəsində bəyan etmişdim ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, ilk növbədə, Azərbaycan regionlarının problemləri ilə məşğul olacağam. Söz vermişdim ki, Azərbaycan regionlarında sosial-iqtisadi inkişaf sürətlə gedəcək. Son 14 il ərzindəki reallıqlar bunu göstərir ki, verilən bütün vədlər artıqlaması ilə yerinə yetirildi" deyə, dövlət başçısı bildirib.

Dövlət başçısı hakimiyyətdə olduğu 14 il ərzində Azərbaycanın həm iqtisadi, həm siyasi uğurlara imza atdığını qeyd edib.

Prezidentin çıxışında iqtisadi hesabatlara keçmədən öncə ölkəmizdə təhlükəsizlik və sabitliyin təminatına vurğu etməsi diqqət çəkir. Hətta opponentləri də etiraf edirlər ki, İlham Əliyevin hakimiyyətdə olduğu illərdə ölkənin xarici müdaxilələrdən, eləcə də vətəndaşların təhlükəsizliyi istiqamətində mühüm işlər görülüb ki, bu da təkcə sərhədlərin etibarlı qorunması hesabına başa gəlməyib. Bu, çox çətin regional şərtlər daxilində balanslı və ağıllı siyasət nəticəsində əldə edilmiş mühüm nailiyyət, hətta nemətdir ki, bunun nəticəsini bütün xalq görməkdədir.

**Prezident İlham Əliyev çıxışında Azərbaycanın yerləşdiyi regiona Qərbdən müdaxilələr nəticəsində tez-tez yaranan gərginlik, Yaxın Şərqdə, eləcə də bəzi keçmiş sovet respublikalarındakı daxili dartışmalar fonunda sabitlik faktorunu xüsusi qeyd etməkdə haqlıdır, daha doğrusu, bu, dövlət başçısının haqqıdır. Çıxışının sonrakı hissəsində prezident bu məsələyə yenidən qayıdaraq ölkədəki siyasi və iqtisadi stabilliyin əsas açar səbəbini də açıqlayıb:** "İqtisadi cəhətdən asılı vəziyyətdə olan ölkələr müstəqil siyasət apara bilmirlər, yaxud da ki, aparmaqda çətinlik çəkirlər. Biz isə tam müstəqil siyasət aparırıq, bütün məsələlərlə bağlı bizim öz mövqeyimiz var və bu mövqeyi çəkinmədən ifadə edirik. Biz bütün prinsipial məsələlərlə bağlı beynəlxalq kürsülərdən səsimizi ucaldırıq, ədaləti və qanunun aliliyini təbliğ edirik və müdafiə edirik". Prezidentin "müstəqil siyasət" dedikdə yalnız Qərb dairələrindən ölkədəki vəziyyətlə bağlı hərdən çox qərəzli hesabatların hakimiyyətin ümumi siyasətinə təsiri olmadığı nəzərdə tutulmur. Müstəqil siyasət dövlətin mənafeyinin və maraqlarının hər şeydən önə qoyulmasıdır ki, bunu həm enerji və kommunikasiya layihələrinin icrasında, həm beynəlxalq və regional məsələlərdə ortaya qoyulan



iradə sübut edir.

**Prezidentin çıxışında müstəqil siyasətin nəticəsi kimi ötən il valyuta ehtiyatlarımızın artırılmasını qeyd etməsi bu mühüm məsələdə mənzərəni tamamlayır:** "Baxmayaraq ki, keçən il büdcəmiz də builki kimi deyildi, bundan az idi, eyni zamanda, neftin qiyməti də hələ aşağı səviyyədə idi, biz düzgün siyasət, maliyyə sahəsində nizam-intizamı gücləndirmək nəticəsində valyuta ehtiyatlarımızı 4,5 milyard dollar artırmışıq. Əminəm ki, bu il valyuta ehtiyatlarımız əhəmiyyətli dərəcədə artacaq". **Prezidentin çıxışından daha bir sitata diqqət yetirək:** "Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, siyasətimizin təməlində Azərbaycan vətəndaşının maraqları dayanır. Eyni zamanda bizim əsas strateji məqsədimiz, hədəfimiz ölkəmizi daha da gücləndirməkdir, Azərbaycan dövlətinin qüdrətini artırmaqdır, müstəqilliyimizi möhkəmləndirməkdir".

**Prezident çıxışında ikinci mühüm məqama-iqtisadi inkişaf və investisiya layihələri haqda hesabata məhz sabitliklə əlaqələndirərək keçid edib:** "Sabitlik olmayan yerlərə investisiyalar qoyulmur, inkişaf olmur, vəziyyət mənfi istiqamətdə inkişaf edir. Bu, həqiqətdir və yaxın tarixin nəticələri, bölgəmizdə yaşanan böhranlı vəziyyət bunu təsdiqləyir. Azərbaycan isə təhlükəsizlik, əmin-amanlıq, sabitlik şəraitində öz yolu ilə uğurla gedir. Bu gün inkişaf parametrlərinə və vətəndaş həmrəyliyinə görə Azərbaycan dünyada nümunəvi ölkələrdən biridir".

**Dövlət başçısı çıxışında sonuncu sitatını möhkəmləndirən faktları konkret rəqəmlərlə dilə gətirib, çünki sosial rifah seçki ilində ən mühüm faktorlardan hesab olunur. Azərbaycan prezidentinin çıxışında vətəndaşın sosial vəziyyətinin daima diqqətdə saxladığını, eləcə də bununla bağlı hazır proqramı olduğunu görə bilərik.**

"Maaşlar 14 il ərzində beş dəfədən çox, pensiyalar səkkiz dəfədən çox artıb və bir çox önəmli sosial layihələr icra edilib. Biz sosial infrastrukturla bağlı böyük işlər görmüşük, 3100-dən çox məktəb, 642 tibb müəssisəsi tikilmiş, yaxud təmir edilmişdir, 43 Olimpiya İdman Kompleksi inşa olunmuşdur. Bu da böyük vəsait tələb edən layihələrdir. Ancaq bu layihələr sosialyönümlü layihələrdir, ona görə investisiya proqramımızda daim bu layihələr var. Bu ilin investisiya proqramına əsasən də kifayət qədər sosial layihələr icra ediləcəkdir" deyə, dövlət başçısı qeyd edib.

**Dövlət başçısı Azərbaycanda gələcək nəsillər üçün də proqram üzərində iş getdiyinin anonsunu verib ki, bu da xüsusi diqqətə layiqdir. Məsələn, dövlət başçısı deyib ki, "artan əhali, eyni zamanda bizdən bu-na adekvat iqtisadi inkişaf tələb edir". Sitat:** "Biz 14 il ərzində ölkəmizdə 1,9 milyon iş yeri yaratmışıq ki, onlardan 1,4 milyonu daimi iş yeridir. Ancaq əhali 1,5 milyon nəfər artıb. Bəli, bu vətəndaşlar hələ ki yeniyetmə və uşaqdırlar, ancaq bir neçə ildən sonra onlar işlə təmin olunmalıdırlar. Biz bu sahəyə çox böyük diqqət verməliyik ki, Azərbaycanda işsizlik daim aşağı səviyyədə olsun. Necə ki, görülən işlər nəticəsində bu gün Azərbaycanda işsizlik 5 faiz, yoxsulluq isə 5,4 faiz səviyyəsindədir. Biz birinci proqramın icrasına başlayanda yoxsulluğun səviyyəsi 50 faiz idi, indi isə 5,4 faizdir".

Prezidentin çıxışında daha bir məqama da diqqət yetirmək lazım gəlir: Azərbaycanın inkişafı fonunda işğalçı Ermənistandakı ağır sosial durum. Doğrudur, prezident çıxışında müqayisəyə xüsusi yer ayırmayıb, bu da uğurlu siyasi taktika hesab oluna bilər. O mənada ki, Ermənistan heç bir sahədə Azərbaycana rəqib ola bilməz.

Çıxışının ilk hissəsində prezident "bu gün ölkəmizin iqtisadi və hərbi potensialı heç kəsə sirr deyil və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli, beynəlxalq hüququn normalarına uyğun, ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsi bizim əsas vəzifəmizdir" deyib.

**Çıxışının sonunda isə İlham Əliyev Ermənistanı "yenə yada salıb". Sitat:** "Bütövlükdə ölkə iqtisadiyyatının inkişafı ilə bağlı heç bir problem yoxdur. Maliyyə vəziyyətimiz çox sabitdir, müsbətdir. Beynəlxalq qurumlar Azərbaycandakı islahatları yüksək qiymətləndirirlər. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, beynəlxalq reytinq agentlikləri bizdə aparılan islahatları yüksək qiymətləndirirlər. Davos Dünya İqtisadi Forumu rəqabətqabiliyyətliliyinə görə Azərbaycanı 35-ci yerə layiq görüb. Dünya miqyasında 35-ci yeri tutmaq, MDB məkanında isə birinci olmaq çox böyük nəticədir. İnklüziv inkişaf indeksinə görə, Azərbaycan inkişafda olan ölkələr arasında üçüncü yerdədir. Bu siyahıda cəmi 80-ə yaxın ölkə var. Onu da qeyd etməliyəm ki, biz MDB məkanında bu göstəriciyə görə də birinci yerdəyik. Ermənistana gəldikdə isə o, 45-ci yerdədir və buna görə də çox sevinir, toy-bayram edir. Biz isə üçüncü yerdəyik və bizdən qabaq ancaq inkişaf etmiş ölkələrdir, onların da sayı 30-dur. İnkişaf etmiş ölkələrin reytinqinə 30 ölkə daxil edilib və 80-ə yaxın ölkə inkişafda olan ölkədir. İnkişafda olan ölkələr arasında biz üçüncü yerdəyik. Deməli, dünya miqyasında inklüziv inkişaf indeksinə görə biz 33-cü yerdəyik. Rəqabətqabiliyyətliliyə görə isə 35-ci yerdəyik".

Prezidentin çıxışının böyük bir bölümündə qaçqınların həyat şəraitin yaxşılaşdırılması, sahibkarlığa dəstək, rayonlara xarici investisiyasının cəlb edilməsi, kənd təsərrüfatının inkişafına subsidayalara da yer ayırıb ki, bu da ayrı-ayrılıqda sadalansa da, ümumu iqtisadi vəziyyətin dəyərləndirilməsidir.

**Dövlət başçısının çıxışında, nəhayət, sonuncu proqram xarakterli mühüm məqam da rüşvətxorluğa və korrupsiyaya qarşı mübarizədir.** "Rüşvətxorluğa və korrupsiyaya qarşı çox ciddi mübarizə aparılır. Bu mübarizə, o cümlədən sistem xarakterli tədbirlər sahəsində aparılır. Deyə bilərəm ki, institusional tədbirlər ən səmərəli tədbirlərdir. Əlbəttə ki, cəza tədbirləri də tətbiq olunub, olunur, onların da əhəmiyyəti var. Ancaq institusional tədbirlər, rüşvətxorluq, korrupsiya üçün, necə deyərlər, meydançanın daralması istiqamətində atılan addımlar ən səmərəli addımlardır"-deyə, prezident bildirib.

❑ **"YM"**

YENİ MÜSAVAT
N 23 (6912) 31 yanvar 2018

# "The Times" Rusiyada əhalinin ağır güzəranından yazdı

## "İt günündə yaşayırlar, amma yenə də Putinə səs verirlər"

**Böyük Britaniyanın "The Times" qəzetinin müxbiri Metyu Kempbel bir vaxtlar Rusiya sənayesinin ürəyi sayılan Çelyabinsk vilayətində olub. Gördüyü kasıblıq, üfunət və fəlakət mənzərələrindən dəhşətə gələn müxbir buranı təsvir etmək üçün "Qiyaməti yaşayan", "Sınmış uşaq arabası", "Cüzi ərzaq qırıntıları" kimi ifadələrdən çəkinməyib.**




"Bu yerlərə baxdığımız zaman Putinin təmtəraqla bəyan etdiyi kimi "dizləri üstə qalxan", Böyük Britaniyanın silahlı qüvvələrinin baş qərargah rəisi Nik Karter tərəfindən "soyuq müharibədən bu yana ən böyük təhdid" kimi təqdim edilən dövlətdən danışmaq olduqca çətindir.

Belə kasıblıq və miskinlik Putinin 2 ay sonra iştirak edəcəyi prezident seçkiləri öncəsi dünyaya göstərmək istədiyi vəziyyət deyil", - Kempbel yazır.

Jurnalist 65 yaşlı keçmiş DTK-çının qələbəsinə heç bir şübhə qalmadığı və onun bu gedişatla Stalindən sonra taxtda qalan ən uzunömürlü lider olacağını vurğulayıb. Yazıda Rusiyada hökm sürən real iqtisadi və sosial situasiyanın təxmin olunandan daha ağır olduğu qeyd edilir.

"Yoxsulluq artıq Putinin həddən artıq varlanmış siyasi elitasının oyun meydanlarını da eybəcərləşdirib. Rusiya prezidentinin siyasi karyerasını başladığı, ölkənin ikinci böyük şəhəri Sankt-Peterburqda 600 min insan sovet dövründən qalma kommunal evlərdə yaşayır.

Lakin ölkənin dərinliklərində yerləşən əyalətlərin çöküşü daha böyük miqyasda davam edir. Köhnə Rusiyanın minlərlə kiçik kəndlərdən ibarət torpaqları sürətlə boşalır. Əhali ildən-ilə qocalır və məhv olmağa məhkumdur. Bir zamanlar çiçəklənən sənaye bölgələri xaraba və kabus şəhərlərə dönüb.

Belə mənzərələri mən ancaq Afrikanın qərbində və Latın Amerikasında vətəndaş müharibəsindən sonra görmüşəm", - Kempbel yazısında bildirir.

"Rusiyanı qarlı Afrika da adlandırmaq olar", - jurnalistin dostu, onunla birlikdə şərqə səfər edən rejissor Andrey Konçalovski danışıb.

Kembelin danışdırdığı 58 yaşlı təqaüdçü Tanya Kudryavtseva Çelyabinsk yaxınlığında Roza qəsəbəsində, iki oğlu və anasının üstünə atıb getdiyi 4 yaşlı nəvəsi ilə yaşayır. Bu qadının nə oğullarını, nə də nəvəsini dolandıracaq gücü yoxdur. Amma o, martın 18-də Vladimir Putinə səs verəcəyini söyləyir. "Başqa kim var ki... O, bizə əvvəllər yaxşı həyat vermişdi. Sadəcə, ətrafı pisdir", - Kudryavtseva məqalə müəllifinə söyləyib.

❑ **Musavat.com**




# Araz Ağalarov ABŞ-ın sanksiyalar siyahısına necə düşdü - təfərrüat

## Putinə yaxın oliqarxın Trampla seçkiqabağı təmasları gündəmdə

**Xəbər verildiyi kimi, ABŞ Dövlət Departamenti yanvarın 29-da Rusiya hakim elitasının və Kremlə yaxın oliqarxların siyahısının gələcəkdə sanksiyaların tətbiq edilməsi üçün Konqresə təqdim edib. Siyahıda Azərbaycan əsilli Rusiya milyarderlərindən Qod Nisanov, Araz Ağalarov, Fərhad Əhmədov və Vahid Ələkbərov da var.**

Qeyd edək ki, ABŞ prezidenti Donald Trampın dostluq münasibətlərində olduğu Araz Ağalarovun adının sanksiya tətbiq olunacaqlar siyahısına salınması ziddiyyətli qarşılanıb: bir çoxları buna təəccüblənsə də, ötən ilin yayından Rusiyanın Amerikadakı prezident seçkilərinə müdaxiləsi ehtimalı üzrə okeanın o tayında başladılan istintaq prosesini izləyənlər üçün bu, gözlənilən bir addımdır.

Araz Ağalarov 1955-ci il noyabrın 8-də Bakıda anadan olub. Ali təhsilini də Bakıda - Politexnik İnstitutunda alıb, bir müddət partiya strukturlarında çalışdıqdan sonra Moskvaya - Həmkarlar İttifaqları Təşkilatında işləməyə gedib. Yenidənqurma dövründə "Zəfəran" adlı kiçik kooperativ yaradıb, sonra bu kooperativ Amerika-Rusiya birgə müəssisəsinə çevrilib. 1990-cı ildə Rusiyada kompüter texnologiyaları üzrə ilk sərgini təşkil edib. Sərgi "Comtech" adlanırdı. 1995-ci ildə onun sərgiləri Las-Veqasda "Comdex" və Hannoverdə keçirilən "Cebit" sərgilərindən sonra dünyada statusuna görə üçüncülük qazanıb. A.Ağalarov sonralar "Comtech"dəki payını bir ingilis şirkətinə sataraq vəsaiti "Krokus Siti" layihəsinə yatırıb. 1991-ci ildə ilk eksklüziv ayaqqabı mağazası açıb. Daha sonra tikinti biznesi ilə məşğul olmağa başlayıb və 1992-ci ildə Moskvanın mərkəzində indi də ən elitar, bahalı ev olan "Ağalarov evi"nin tikintisini başa çatdırıb. Yenə həmin il Rusiyada 66 min kvadratmetr sahəsi olan ilk hipermarketi tikib. Bu hipermarketdə eyni vaxtda 400 min adda mal satılır. 2000-ci ildə Moskva dairəvi yolunun üzərində 75 hektar sahəsi olan "Krokus siti" şəhərciyinin tikintisinə başlayıb. Ticarət, əyləncə, biznes və sərgi meydançalarının vahid kompleksdə birləşdiyi "Krokus siti" son onilliyin ən irimiqyasli və maraqlı layihələrindən sayılır.

Araz Ağalarov iqtisad elmləri doktorudur. "Krokus intenəşnl" Şirkətlər Qrupunun prezidenti, "Krokus-Bank" idarə heyətinin sədri, Rusiya istehsalçılar və idxalçılar ittifaqının prezidenti, Moskva Beynəlxalq Bizness Assosiasiyasının və "Opora Rossii" ictimai təşkilatının vitse-prezidenti, "Biznes i vıstavki" jurnalının baş redaktorudur. "Forbes"ə görə, hazırda iş adamı Araz Ağalarovun sərvəti 1,7 milyard dollar təşkil edir.

Onu da qeyd edək ki, A.Ağalarovun adı Azərbaycanda oğlu Emin Ağalarov ölkə prezidentinin qızı ilə evləndikdən sonra tanınmağa başlayıb. Maraqlıdır ki, A.Ağalarovun Rusiya prezidenti Vladimir Putinlə yaxın münasibətlərinin də məhz bu evlilikdən sonra yarandığı deyilir. Hər halda, Rusiya mətbuatı belə yazır. Elə Ağalarovların adamı hesab olunan rusiyalı vəkilin ABŞ prezidenti Donald Trampın adamları ilə seçkiqabağı görüşünün arxasında da bu yaxınlığın dayandığı bildirilir.

Xatırladaq ki, rusiyalı vəkil Nataliya Veselnitskaya 2016-cı ilin iyununda Nyu-Yorkda - Trump Towerdə oğul Donald Tramp, kürəkən Cared Kuşner və ata Trampın seçki qərargahının rəhbəri Pol Manafordla görüşüb. Görüşdə Trampın rəqibi olan Hillari Klintona qarşı kompromatlar müzakirə olunub. Rusiya baş prokuroru Yuri Çaykanın yaxın adamı sayılan vəkillə bu görüş Amerikada böyük skandala səbəb olub - Rusiyanın prezident seçkilərinə müdaxiləsinin əsas sübutlarından biri hesab edilib. Bu görüş barədə məlumat ötən ilin iyulunda "Nyu-York Times"da oğul Trampın istintaqa verdiyi ifadələr əsasında dərc edilib.



Bəs vəkil Veselnitskayanın Ağalarovlarla nə əlaqəsi var? Məsələ burasındadır ki, bu əlaqə uzunmüddətli əməkdaşlığa əsaslanır. Belə ki, N.Veselnitskaya uzun müddət ABŞ-da Ağalarovların - yəni "Crocus Group"un vəkili işləyib. Dünya mətbuatı görüş barədə yazarkən diqqəti ilk növbədə məhz bu fakta yönəldib. Bildirilib ki, A.Ağalarov oğlunun evliliyi, həmçinin Vladimir Vionkur vasitəsilə Putinə yaxınlaşa bilib. Vinokur isə bu "yaxşılığının" əvəzində Ağalarova olan 4 milyon dollarlıq borcunu ödəməkdən azad olub.

Beynəlxalq KİV-lər Ağalarovun məhz Putinə yaxınlaşdığdan sonra Rusiyada irihəcmli dövlət sifarişləri aldığına diqqət çəkib. Bu sifarişlər Asiya-Sakit okean İqtisadi Əməkdaşlığı sammiti üçün Uzaq Şərq Universitetinin, Rusiyada keçiriləcək futbol üzrə dünya çempionatı üçün 2 stadionun tikintisidir. Düzdür, A.Ağalarov özü müsahibələrində dəfələrlə təkrarlayır ki, dövlət sifarişlərini heç bir xeyir götürmədən icra edir, lakin aydın məsələdir ki, bütün biznesmenlər kimi o, da gəliri olmayan işə uzağı bir dəfə girişə bilər.

Ağalarovların seçkiqabağı dövrdə Trampla əlaqələrini təsdiqləyən daha bir faktı yenə oğul Tramp açıqlayıb. O, özünün twitter hesabında keçmiş musiqi şərhçisi olan Rob Qoldstounla 2016-cı ilin iyununda apardığı yazışmalarını yayıb. Daha sonra isə məlum olub ki, həmin Qoldstoun Emin Ağalarovun PR meneceridir.

Qoldstounun yazdıqlarından belə məlum olur ki, Ağalarovlar ailəsi Tramplara "Rusiyanın dövlət prokuroru"ndan onlara verilmiş Klinton əleyhinə kompromatlarla tanış olmağı təklif ediblər. Kompromatları isə Tramplara N.Veselnitskaya çatdırmalı imiş. Kiçik Tramp bəyan edir ki, görüş baş tutub, lakin N.Veselnitskaya onlara hansısa kompromat təqdim etmək əvəzinə ABŞ-ın Rusiyaya qarşı sanksiyalarından, yetimlər haqqında qanundan danışıb.

Maraqlıdır ki, dünya mətbuatında Ağalarovun əlində Trampa qarşı materialların olduğu, buna görə də onu görüşə razı sala bildiyi iddiaları da yer alır. Dünya mətbuatının yazdığına görə, Ağalarov nəinki D.Trampın köhnə biznes ortağı, həm də Kremlin ən etibarlı oliqarxlarından biridir. Hətta bəzi mənbələr Trampı Putinlə məhz onun tanış etdiyini deyirlər.

Ağalarovların Trampla tanışlığının isə Eminin öz klipinə qəhrəman axtarışı ilə başladığı deyilir. Bu axtarışların nəticəsi olaraq "Dünya gözəli - 2012" Eminin klipinə çəkildi, Ağalarovların Trampla dostluğunun əsası qoyuldu. Onlar müsabiqənin "Crocus City" Hallda keçirilməsi barədə 7 milyon dollarlıq razılığa gəldikdən sonra isə Tramp twitter vasitəsilə Putini də tədbirə dəvət etdi. Lakin Putini tədbirdə işlər müdiri Vladimir Kojin təmsil etdi. Putinin özü isə Trampla telefonla danışıb, daha sonra ona Nyu-Yorka hədiyyə göndərib. Yeri gəlmişkən, tədbirin VİP qonaqları arasında Kremlin yaxın adamlarından olan yumorist Vladimir Vinokur da vardı.

D.Tramp prezident seçiləndən sonra Ağalarovlarla Tramp ailəsi arasındakı münasibətlər barədə Eminin "Forbes"ə müsahibəsi də xeyli müzakirələrə səbəb olub. Belə ki, həmin müsahibədə Emininin dediyi "İndi-seçilib və qalib gələndən sonra da Tramp öz dostlarını unutmur" cümləsi uzun müddət dünya mətbuatında müzakirə olunub.

Həmin müsahibədən aydın olur ki, Tramp seçki prosesinə qoşulmasaydı, o və atası Rusiyada Tramp qülləsi tikməyə başlayacaqdılar. Lakin Donaldın seçki marafonuna qoşulması planın yarımçıq qalmasına gətirib çıxarıb.

Göründüyü kimi, A.Ağalarovun adının ABŞ-ın sanksiya paketində görünməsi üçün yetərli səbəblər var. Və bu səbəblər barədə məlumatlı olanlardan kimsəyə siyahı gözlənilməz görünmür...

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 23 (6912) 31 yanvar 2018

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# İşğalçıya qarşı "sürünən müharibə" taktikası

## Vasitəçilərin laqeydliyi Azərbaycana hələ ki düşmənə qarşı ayrı cəza üsulunu saxlamır; İrəvanda isə faşist əlaltısı Njdeyə abidə qoyulması məsələsi böyüyür - Moskva narazıdır, ermənilər isə "Azərbaycan izi" axtarır; **rusiyalı ekspert:** "ABŞ Azərbaycanın hərbi potensialının zəifləməsində maraqlı deyil..."

**2018-ci ilin ilk ayı da Qarabağ mövzusunda heç bir pozitiv dinamika ilə yadda qalmadı. Əslində gözlənilmirdi də. Çünki sülh danışıqlarında real irəliləyiş üçün zəmin ötən il qoyulmalı idi, o da olmayıb. Bu üzdən Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin yanvardakı Krakov görüşü də əvvəlkilərdən nəticəsizlik baxımından fərqlənmədi.**




Həmçinin ATƏT-in Minsk Qrupu həmsədrlərinin bölgəyə fevralın birinci on günlüyünə nəzərdə tutulan səfəri atəşkəs rejimi və qarşılıqlı etimadı artırmaq haqda daha bir şablon bəyanatın verilməsindən uzağa getməyəcək. İşğalçı Ermənistana status-kvonun, yəni işğal rejiminin bu şəkildə davam eləməsi, danışıqların imitasiyası əl versə də sözsüz ki, torpaqlarının 20%-i işğal altında olan Azərbaycana, əlbəttə, sərf eləmir.

*****

"Yeni Müsavat" qeyd edir ki, vasitəçi dövlətlərin Ermənistana loyallığı fonunda hələlik Azərbaycanın təcavüzkara yeganə təsir vasitəsi, əlbəttə ki, işğalçı qüvvələri daima nişangahda və qorxu içində saxlamaq, bacardıqca onları daha böyük canlı və texniki itkilərə məruz qoymaqdır. Necə ki, belə də edilir.

Yəni üzücü və "sürünən müharibə" taktikası. Düşmən tərəf sözsüz ki, buna hazır deyil. Onun tək istəyi təmas xəttində heç bir ciddi itki verməməkdir. Çünki bu cür itkilər 30 illik Qarabağ yalanları fonunda ermənilərin kriminal Sərkisyan rejimini qarşı olan-qalan etimadını da sarsıdır, daxildə gərginliyi artırır, ermənilərin, o sırada erməni gənc kişilərin ölkədən emiqrasiyasını sürətləndirir, demək, orduya çağırışçı problemini daha da qəlizləşdirir.

Azərbaycan əsgərinin mənəvi durumu isə şübhə yox ki, düşməndən qat-qat üstündür. Çünki bizim hərbçilər öz doğma torpaqlarındadır və bütünlüklə dövlətin və xalqın qayğısı ilə əhatə olunub. Təbii ki, Müdafiə Nazirliyi rəhbərliyinin şəxsi heyətlə mütəmadi canlı təmasları də öz yerində.

*****

Bu arada müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti növbəti dəfə cəbhəboyu zonada yerləşən hərbi hissələrdə olub. Musavat.com-un Müdafiə Nazirliyinin saytına istinadən verdiyi xəbərə görə, nazir üzbəüz yerləşən düşmən mövqelərini şəxsən müşahidə edib. Döyüş növbəsi çəkən şəxsi heyətlə görüşən nazirə əməliyyat şəraiti barədə məruzələr edilib. Bildirilib ki, burada yerləşən bölmələr içməli su, istiliklə, yuyunma otaqları, isti yataq və digər lazımi qış ləvazimatları ilə tam təmin olunub.

Müdafiə naziri habelə hərbi qulluqçuların döyüş qabiliyyətini və mənəvi-psixoloji hazırlığını yüksək qiymətləndirib. Cəbhə bölgəsində təzəcə inşa edilən bölmələrdən birinin açılışını edən Zakir Həsənov yaradılmış şəraitlə tanış olub, şəxsi heyətlə söhbət aparıb və nahar edib.

Bu qəbildən canlı təmaslar sözsüz ki, əsgər heyəti ilə komandanlıq arasında səmimi münasibətlərin, əsgərimizin mənəvi ruhunun möhkəmlənməsində az rol oynamır. Daima ordu rəhbərliyinin diqqətini görən Azərbaycan əsgəri özünü daha güvəndə hiss edir və potensialını daha rahat şəkildə işğalçıya qarşı yönəldir.

*****

Ermənistan isə Azərbaycan torpaqlarının işğalı azmış kimi, üstəlik, İkinci Dünya müharibəsi zamanı faşistlərin əlaltısı olmuş ermənilərlə qürur duyur. Necə deyərlər, indiki erməni faşistləri 40-cı illərdə alman işğalçılarına qulluq eləmiş erməni faşistlərinə sahib çıxır. Qaregin Njde kimi erməni faşistlərinin adlarını əbədiləşdirir, İrəvanda hətta onlara abidə ucaldır.

"Yeni Müsavat" xəbər verir ki, bu kimi hərəkətlər, gözlənildiyi kimi, Ermənistanın müttəfiqi, daha doğrusu, ağası Rusiyanı da qəzəbləndirib. Bu günlərdə Rusiya Dövlət Dumasında keçirilən müzakirələrdə ermənilərin bu hərəkəti növbəti dəfə sərt şəkildə qınanıb, abidənin sökülməsi üçün imza toplama kampaniyasına başlandığı bildirilib. Kampaniyanın təşəbbüsçüsü, politoloq Sergey Markovun sözlərinə görə, Change.org saytında petisiyaya artıq 200 min adam imza atıb.

Njdenin qəhrəmana çevrilməsi əslində Ermənistanın Rusiyaya "əlcək atmasıdır" və yəqin ki, Moskva İrəvanla münasibətlərdə bunu heç vaxt unutmayacaq - ta abidə sökülənədək. Görünür, elə bu üzdən Ermənistanda Rusiya ilə bağlı daha bir narahatlıq baş qaldırıb.

Düzdür, erməni şərhiçilərdən biri - Aram Amatuni 1in.am saytındakı məqaləsində Markovu azərbaycanlı ekspert kimi qələmə verərək, Ermənistanı bir növ, təmizə çıxarmağa çalışıb, məsələnin bu həddə çatmasında "Markovu ələ alan" Azərbaycanı ittiham edib. Ancaq əbəs yerə. Çünki ardınca onun özü də etiraf edir ki, Njdeyə abidə qoyulmasına Sergey Markovdan öncə Rusiya XİN-i, konkret olaraq XİN-in mətbuat katibi Mariya Zaxarova da sərt şəkildə etiraz bildirib. Daha sonra isə Rusiya Müdafiə Nazirliyinə məxsus "Zvezda" telekanalı məsələni sərt tənqidi tonda gündəmə gətirmişdi.

Odur ki, erməni təbliğat maşını, rus demiş, "yaş dəsmalı ağrıyan başdan ağrımayan başa bağlamasın". Yalanlarla yaşamağa adət eləmiş ermənilər Sergey Markova qara yaxmaqdansa, yaxşı olar ki, öz gözlərindəki tirə diqqət yetirsinlər. Belədə daha məntiqli olar.

Ədalətli olmağa isə hələ çox var və bu, təkcə, faşist Njdenin abidəsinin sökülməsi ilə gerçəkləşməyəcək. Gərəkdir ki, ən azından Xocalıda soyqırıma, bəşəriyyət əleyhinə cinayətlərə imza atmış müasir erməni faşistləri də hakimiyyətdən getsin, Beynəlxalq Məhkəmə (Haaqa Tribunalı) qarşısında dayansınlar. Erməni işğalçı qüvvələrinin, faşist işğalçı ordusu kimi zəbt elədiyi ərazilərdən könüllü çəkilib getməsi də öz yerində. Əks halda, Azərbaycan əsgəri bunu zor gücünə edəcək. Gec, ya tez.

*****

Müasir döyüş sistemləri ilə təchiz olunmuş və ilbəil öz döyüş bacarığını artıran ordumuzun bu missiyanı yerinə yetirməsi üçün imkanları kifayətdir. Yetər ki, işğalçı Ermənistanın arxasında güclü havadarları dayanmaya. Elə günün paradokslarından biri də həmin havadarlardan birinin - Rusiyanın Azərbaycana da silah-sursat verməsidir. Sözsüz ki, Moskva bunu havayı eləmir, bizə silahları dünya bazarları qiymətinə satır. Ancaq öz işğal ortağını da unutmur.

Diqqət çəkən məqamlardan biri isə ABŞ-ın Rusiyanın hərbi-sənaye kompleksi ilə əlaqəli şirkətlərə qarşı da sanksiyalar tətbiq eləməyə başlamasıdır. Yeri gəlmişkən, sanksiyaların Bakı ilə Moskva arasında silah ticarətinə neqativ təsir göstərəcəyini söyləyənlər də var, əksini düşünənlər də.

**"ABŞ Rusiya silahlarının Azərbaycana təchizatına göz yumur, çünki Vaşinqton Bakıya regionda özünün strateji tərəfdaşı kimi baxır".** Bunu ABŞ-ın Rusiya müdafiə sektoru müəssisələri ilə sövdələşmələrə görə dünyanın istənilən ölkəsinin fiziki və hüquqi şəxslərinə sanksiyalar tətbiq ediləcəyinə dair qərarını şərh edən Rusiyanın Hərbi Proqnozlaşdırma Mərkəzinin rəhbəri Anatoli Tsıqanyuk deyib (Virtualaz.org).

Ekspert hesab edir ki, Amerika Azərbaycanın hərbi potensialının zəifləməsində maraqlı deyil. **"Ermənistana münasibətdə isə, Rusiyanın müttəfiqi kimi, sanksiyaların tətbiqi tamamilə mümkündür. Amerikalılara bu regionda daim gərginlik lazımdır və hər şey edəcəklər ki, ölkələr arasında balans pozulmasın. Bir tərəfdən, ABŞ Rusiya silahlarının Azərbaycana təchizatı ilə bağlı susacaq, digər tərəfdən, bu yolla Ermənistanı cəzalandıracaq. Lakin yaddan çıxarmaq olmaz ki, ermənilərin ABŞ-da güclü diasporu var və onlar bu sanksiyalardan yan keçməyin yollarını tapacaqlar. Bundan başqa, Bakı kimi İrəvan da Rusiya silahlarını üçüncü ölkələr vasitəsilə əldə edə bilər"**, - deyə rusiyalı hərbi ekspert qeyd edib. Hərçənd acından ölən işğalçı ölkənin dünya bazarı qiymətinə silahı üçüncü ölkədən necə əldə edəcəyinə o aydınlıq gətirməyib.

**"Bir sözlə, nə Azərbaycan, nə də Ermənistan Rusiya silahlarının çatışmazlığını hiss etməyəcəklər. Amma türklərin işi çətin olacaq, çünki ABŞ əvvəlcədən Rusiya silahlarının Türkiyəyə təchizatının əleyhinə idi və S-400 komplekslərinin bu ölkəyə çatdırılması çətinləşəcək. Lakin heç bir sanksiyaya baxmayaraq, Rusiya dünyanın ən böyük silah təchizatçılarından biri olaraq qalır və qalacaq"** - Tsıqanyuk əlavə edib.

Öz tərəfimizdən əlavə edək ki, əslində Azərbaycana Rusiya silahlarından daha çox, onun Qarabağdakı hərbi əməliyyatlar zamanı bitərəf qalması qat-qat çox vacibdir. Ona kimi isə işğalçıya qarşı üzücü "sürünən müharibə" taktikası davam edəcək...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 23 (6912) 31 yanvar 2018

**Deputat Hadı Rəcəblinin kulis.az saytına son müsahibəsi müzakirələrə səbəb olub. Belə ki, deputat jurnalistin "Ümumiyyətlə, məmurlara, dövlət adamlarına xalq arasında, qələm adamları arasında niyə həmişə neqativ münasibət olur" sualına qalmaqala səbəb olacaq cavab verib: "Sovet dövründə bir az imkanı olan adama necə baxırdılar? Düşmən kimi. Bu, bazar iqtisadiyyatı dövründə ən yanlış metoddur. Adamlara neqativ münasibət həsəddən, cəmiyyətdə olan nöqsanları o adamlarda görməkdən yaranır. Biz hazırda bu neqativlərin qarşısını almaq istəyirik".**

# Hadı Rəcəblinin "varlılara aqressiya var" açıqlamasına reaksiyalar

## **Aqşin Yenisey:** "Varlılara qarşı ciddi aqressiya olsaydı, ölkədə vətəndaş müharibəsi başlayardı"

## **Natiq Cəfərli:** "Azərbaycanlıların varlılıq anlamı bir qədər fərqlidir"



Bəs cəmiyyətin tanınmış nümayəndələri bu haqda necə düşünür?

**Mövzu ilə bağlı "Yeni Müsavat"ın əməkdaşı müxtəlif sahələrdən olan tanınmışlar arasında sorğu keçirib. İqtisadçı ekspert Natiq Cəfərli sualımıza bu cür cavab verib:** "Azərbaycanda varlılara qarşı aqressiya münasibət heç vaxt mövcud olmayıb. Məsələn, Rusiyada bolşevizmin yaranmasına əsas səbəb daima varlılara qarşı aqressiv münasibətin olması idi. Çünki varlı insanların əksəriyyəti digər etnik qrupa aid idi. Bu da rus "mujikini" qəzəbləndirir və sonda bolşevizmin yaranmasına, inqilaba gətirib çıxardı. Burada həqiqət payı var. Amma Azərbaycanda heç vaxt varlılara qarşı nifrət olmayıb. Bizdə daha çox rəqabət öndə olub. Yəni tarixən "qonşudan dala qalma prinsipi" olub. Bu baxımdan azərbaycanlıların varlılıq anlamı bir qədər fərqlidir. Bu isə çox ciddi şəkildə aqressiv münasibət deyil. Yeganə olaraq Azərbaycanda ədalətsiz varlananlara qarşı münasibət var. Əgər kimsə hansısa formada biznesdə və yaxud digər sahədə uğur qazanıbsa, özünə yaxşı şərait qurubsa, ona həmişə "halaldır" deyiblər. Amma ədalətsiz şəkildə, insanların incidilməsi, rüşvət, korrupsiya yolu ilə pul qazananlara qarşı həmişə təbii ki, neqativ münasibət var, bu zaman həsəd, paxıllıq kimi amillər arxa plana keçir. Ona görə də deməzdim ki, Hadı Rəcəbli yüz faiz düz deyir. Amma Rusiya və digər ölkələrə nisbətən ciddi fərqlər var".

**Avropa.info saytının rəhbəri Ruslan Başirli isə bildirdi ki, insanlar fərqli olduğu kimi fikirlər də fərqlidir:** "İnsanlar ola bilər ki, varlı birinə həqiqətən də həsəd göstərə bilər. Bəzi insanlar da "bu varlı olan şəxs haqq etdiyini qazanmayıb, başqa yollarla bu pullara sahibdir" düşüncəsi ilə varlı birinə aqressiya göstərə bilər. Ona görə də Hadi Rəcəblinin dediklərinə birmənalı cavab yoxdur".

**Rejissor-prodüser Fehruz Şamıyev isə sualımıza bu cür cavab verdi:** "Varlılara qarşı aqressiya həsəddən doğmur. Bu aqressiya umumi xalq mənfəətinin konkret şəkildə bir qrup şəxslərdə cəmləşməsinə qarşı ola bilər. Yəni qısası bu monopoliya, korrupsiya məsələsidir və Azərbaycanda kiminsə kiməsə həsəd aparmasının kökündə bu məsələ durur".

**"Yeni Müsavat" qəzetinin əməkdaşı Nərgiz Liftiyeva isə qeyd etdi ki, deputatın dediyi neqativ münasibət həqiqətən də Azərbaycanda mövcuddur, ancaq həsəddən doğmur:** "Çünki bizim ölkədə varlıların bir çoxu öz istedadı, qeyri-adi biznes bacarığı və ya şansı hesabına deyil, korrupsiya, çirkli pullar, dövlət büdcəsini yağmalamaq, vətəndaşın haqqını kəsmək və sair hesabına varlanırlar. Son illər aşkarlanan irimiqyaslı korrupsiya faktları da bunu təsdiqlədi. Bu səbəbdən də onlar insanların gözündə neqativ bir fiqura çevrilir. Əgər varlılar ölkə səviyyəsində ciddi bir xeyriyyə əməllərinə imza atsalar, bu neqativ münasibət də aradan qalxar".

**Gənc yazar Aqşin Yenisey isə bildirdi ki, əgər cəmiyyətimizdə varlılara qarşı ciddi aqressiya olsaydı, ölkədə vətəndaş müharibəsi başlaya bilərdi:** "Heç kimin haqqını yemədən pul qazanan, müəllimliklə yanaşı fəhləlik də edib varlanan adamlara heç kim aqressiya göstərmir. Cəmiyyətin aqressiyası qalstukla, kostyumla maskalanıb rüşvət, yetimin haqqını, dövlətin pulunu yeyən dələduzlara, xırdabuynuzlulara qarşıdır. Ümumiyyətlə, həsəd hissi hansısa maddi varlıq əsasında yaranmır: həsədin kökündə natamamlıq kompleksindən doğan nüanslar var. Dolayısı ilə sağlam təfəkkürlü insan bu hisslə natamam olduğu nöqtələri öyrənib özünü inkişaf etdirə bilər. Ümumi anlayış kimi yanaşanda həsəd hissi cəmiyyətin, insanlığın inkişafına xidmət edə bilər. Elə orta əsrlərdə də xeyli mədəniyyət abidəsi, klassik əsərlər məhz həsəd hissindən yaranıb. Dövlətlər bir-biriləri ilə bəhsə girərək, daha gözəl abidələr, kitabxanalar, mədəniyyət mərkəzləri tikirdilər. Lakin hazırda dünya düzənində bu bəhsə girmək məsələsi olduqca məzmunsuz məcraya yol alıb. Bu isə tamam başqa, böyük söhbətin mövzusudur".

❑ **Xalidə GƏRAY,**
❑ **"Yeni Müsavat"**

## Novruzda əfv olacaq-siyahıda kimlərin adı var?

### **Əfv Komissiyasının üzvü:** "Hər halda kimin ki, müraciət etmək hüququ var və müraciət edib..."

**"Yanvarın 30-dan əfv komissiyasının iclasları başlayır. Siyahıda kimlərin olacağını söyləmək çətindir, çünki bu, konfidensial informasiyadır". Bu barədə "qaynarinfo"ya Əfv Məsələləri Komissiyanın üzvü Əliməməd Nuriyev açıqlama verib. O, müxtəlif deputatlardan, QHT-lərdən, məhkum olan şəxslərin vəkillərindən çoxsaylı müraciətlərin daxil olduğunu bildirib:**

"Novruz bayramında bir sıra şəxslərin əfv olunacağını istisna etmirəm. Çünki ötən il Novruz bayramı ərəfəsində cənab prezident tərəfindən əfv sərəncamı imzalanmışdı. Yenə də bu sərəncamın nə vaxt verilməsi prezidentin səlahiyyətlərinə daxil olan məsələdir. Siyahıda kimlərin olacağını söyləmək çətindir, çünki bu, konfidensial informasiyadır. Bu səbəbdən ad sadalamaq düzgün olmaz. Çünki müraciət edənlərin əfv olunub-olunmaması sərəncamdan sonra məlum olacaq. Bəzi hallarda belə fikir yaranır ki, əfv komissiyasının iclasları qapalı keçirilir. Birincisi, dediyim kimi, ümumiyyətlə, əfv məsələsi konfidensial xarakter daşıyır. İkincisi də komissiyaya daxil olan məlumatlar fərdi məlumatlardır və onların açıqlanması qanunla qadağan edilib. Müraciətlər çoxdur. Müxtəlif deputatlardan, QHT-lərdən, məhkumların vəkillərindən, özlərindən, valideynlərdən çoxsaylı müraciətlər daxil olur. Ötən il 1000-ə yaxın müraciət daxil olmuşdu, bu il isə nə qədər olacağını dəqiq deyə bilmərəm".

# Soçidə konqres, Afrində döyüş, İdlibdə gecə yürüşü

## Suriyanın şimalında mürəkkəb proseslər baş verir, ruslar Afrində, türklər isə İdlibdə görünüb

**Yanvarın 30-da Rusiyanın Soçi şəhərində Suriya Milli Dialoq Konqresi öz işinə başlayıb. 1500 nəfərə yaxın heyətin iştirak etdiyi konqresdə Suriyanın gələcəyi, siyasi keçid, yeni konstitusiya və eləcə də davamlı sülhün əldə olunması yolları müzakirə olunacaq.**

Açılış çıxışında Rusiyanın xarici işlər naziri Sergey Lavrov prezident Putinin iştirakçılara müraciətini oxuyub. Putin Türkiyə və İrana, eləcə də BMT-yə təşəkkür edib. Bundan başqa Putin məktubunda Soçi toplantısının əsas məqsədinin Suriya xalqını birləşdirmək olduğunu qeyd edib. Eyni zamanda bildirib ki, Suriyanın gələcəyi ilə bağlı qərarı Suriya xalqı verməlidir. Yeri gəlmişkən, o da bəlli olub ki, əsas müzakirələrə yalnız suriyalılar qatılacaq, vasitəçi ölkələr və müşahidəçi ölkələrin nümayəndələri toplantıya qatılmayacaq.

"Reuters" isə Soçidə baş verən qalmaqaldan yazıb. Agentlik bildirir ki, Türkiyədən gəldiyi güman edilən 70 nəfərlik müxalif qrup Soçi hava limanında qalaraq geri qayıtmaq üçün təyyarə tələb ediblər. Qalmaqala səbəb isə konqresin təşkilati işlərində Suriya dövlət bayraqlarından istifadə olunması olub. Konqresə qatılmayanlardan olan Əhməd əl-Burri Türkiyəyə geri dönəcəklərini deyib. Ruslardan Suriya dövlət bayraq və emblemlərinin sökülməsini tələb etdiklərini deyən əl-Burri geri qayıtmaqda qərarlı olduqlarını bildirib. Agentlik bildirir ki, məhz bu səbəbdən Konqres təyin olunduğu kimi, saat 10-da başlamayıb.

Soçidə müzakirələr getdiyi bir vaxtda Afrində Türkiyə ordusunun əməliyyatları davam edir. Ötən gün Türkiyə ordusu YPG-nin nəzarətində olan Süleyman Halil və Sati Sağı kəndlərini terrorçulardan təmizləyib. Bu kəndlərin azad olunması üçün həyata keçirilən əməliyyat nəticəsində 15 terrorçu zərərsizləşdirilib.

Eyni zamanda Türkiyə ordusu Afrin ərazisinə 3 dildə elanlar yayıb. Elanlarda Afrinin afrinlilərin olduğunu, əməliyyatın terrorçulara qarşı keçirildiyi qeyd olunub. yanvarın 30-da Türkiyə müdafiə naziri Nurəddin Canikli brifinq keçirib. Müdafiə naziri bildirib ki, yanvarın 20-də başlayan "Zeytun budağı" əməliyyatı çərçivəsində bu günə qədər 649 terrorçu məhv edilib. Türkiyə ordusunun 5 hərbçisi və müxalif qruplardan 24 nəfər ölüb.

Bu arada İngiltərənin "İndependent" qəzetinin təcrübəli Yaxın Şərq analitiki Robert Fisk Suriya və Afrindən analiz hazırlayıb. BBC-nin məlumatına görə, Fisk Afrində hələ də rus patrullarının olduğunu yazıb. Yazıda qeyd olunur ki, gündüzlər hərbi nəqliyyat vasitələrində Afrin küçələrində gəzən rus hərbi polis patrullarını görmək normaldır. Məsələ ondadır ki, ruslar əsas qüvvələrini Afrindən "Zeytun budağı" əməliyyatı başlayandan sonra çıxarmışdılar. Ancaq görünür ki, hələ çıxarmayıblar.

Yanvarın 29-dan 30-na keçən gecə isə Türkiyə ordusunun İdlib vilayətinin şimalında yerləşən birləşməsindən ayrılan bir konvoy İdlibin mərkəzinə doğru hərəkət edib. Suriya ordusunun əməliyyat bölgəsinə yaxın ərazilərə gedən Türkiyə ordu konvoyu ətrafına mərmilər düşsə də, tələfat olmayıb. Daha sonra ordu yenidən əvvəlki mövqeyinə qayıdıb. Əraziyə nəzarət edən islamçı qruplaşmalar isə Türkiyə ordusunun keçidinin razılaşdırıldığını bəyan edib.

Qeyd edək ki, Astana razılaşmasına əsasən İdlib vilayətinin şimalında və mərkəzində atəşkəsə nəzarət Türkiyə ordusuna tapşırılmışdı. Ancaq o zaman Türkiyə ordusu yalnız əyalətin şimalında möhkəmlənib. Ancaq indi Afrin əməliyyatının gedişi prosesində Türk ordusunun İdlibin içərilərinə "kəşfiyyat yürüşü" etməsi birmənalı qarşılanmayıb. Hazırda Suriya ordusu və ruslar İdlibdə əməliyyat keçirir. Mümkündür ki, bu gediş həm də ruslara və Suriya hökumətinə mesaj məqsədi daşısın. Çünki mediada kürdlərin Afrini Suriya ordusuna təhvil vermək istəməsi haqda xəbərlər yayılıb. Bu isə Türkiyənin əl-qolunu bağlamış olur. Görünür, Türkiyə ordusunun gecə əməliyyatı bu cür ehtimallarla bağlı qarşı tərəfə mesaj xarakterli olub. Üstəlik əməliyyat məhz Soçi konqresi keçirilən günə təsadüf edib.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
❑ **"Yeni Müsavat"**





# Jurnalistlərdən Xədicə İsmayıla ilginc ittihamlar

Hafiz Babalı iddia edir ki, AzadlıqRadiosunda işini Xədicə İsmayıla görə itirib; **Fidan Afər:** "Sən kimsən, sən tapşırıqları haradan alırsan" deyə sual yazdım, o isə..."

**AzadlıqRadiosunun sabiq əməkdaşı Xədicə İsmayılla münaqişə tanınmış araşdırmaçı-jurnalist Hafiz Babalının işsiz qalmasına səbəb olub. Bu barədə H.Babalı facebook səhifəsində məlumatla çıxış edib.**

O bildirib ki, AzadlıqRadiosu ilə əməkdaşlığı 2015-ci ilin iyunundan 2017-ci ilin oktyabr ayınadək davam edib: "Etiraf edim ki, jurnalist fəaliyyətimin ən uğurlu dövrü kimi xatirimdə qalacaq. Radionun saytının "Araşdırma" bölməsinə nəzər yetirmək kifayətdir: orada yerləşdirilən jurnalist təhqiqatlarının 95 faizinin müəllifi mənəm. İqtisadiyyatda baş verənləri də dəyərli ekspertlərin sayəsində oxuculara doğru-düzgün çatdırmağa çalışırdım. Həmişə diktə ilə yox, öz bildiyim kimi yazmışam. Amma ötən ilin avqustunda ölkəni müvəqqəti tərk edəndən sonra radionun Praqadakı Azərbaycan bürosunun rəhbərliyinin mənə xəyanətini də unutmayacağam.

2017-ci ilin martında AzadlıqRadiosunda dərc olunmuş "Azərbaycan oliqarxlarının gizli şirkətləri" araşdırmamdan sonra hakimiyyət onun nəzarətində olmayan və bu məqaləni dərc etmiş demək olar ki, bütün internet saytlarını blokladı. İyun ayında hakim ailənin biznesi ilə bağlı daha bir araşdırma məqaləm dərc olundu. Bundan sonra DİN-in xətti ilə mənə qarşı "yumşaq təzyiq" siyasəti yürüdülməyə başladı. Avqustda müxbiri olduğum "Turan" agentliyinə qarşı cinayət işi açılandan sonra onun həmin günlərdə həbs olunmuş direktoru Mehman Əliyevə kriminal maddələr üzrə ittiham irəli sürüldükdə Gürcüstana gedəsi oldum. Vergilər Nazirliyinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti agentlikdə istintaqa dəvət etdiyi 3 şəxsdən (digərləri direktor və baş mühasib) biri mən idim - səbəb bu idi. Oturub qanunsuz həbsimi gözləyə bilməzdim, əlimdə maraqlı araşdırma mövzuları vardı".

**H.Babalının dediyinə görə, sentyabrda radioda araşdırmalarının redaktoru olan Xədicə İsmayılova ilə sosial şəbəkədə baş vermiş "söz güləşdirməsindən" sonra radionun rəhbərliyinin ona qarşı koalisiya yaratdığını hiss edib:** "Əvvəlcə məni frilans müqaviləsinin şərtlərini pozmaqda suçladılar. Şərtə görə, frilanser yalnız Azərbaycan sərhədləri daxilində yaşamalıdır. Az sonra Xədicə İsmayılovaya təkcə araşdırmalarımı deyil, yazdığım iqtisadi xəbərləri də redaktə etməyi tapşırdılar. Məndən acığını çıxmaq, onu suçladığıma görə qisas almaqdan ötrü X. İsmayılovanın əlinə girəvə düşmüşdü: yazılarımda hər xırda məqama görə əsassız olaraq məni incitməyə çalışırdı. Bir neçə yazımı zay çıxartdı. Rəhbərlik isə açıq şəkildə intriqana tərəf tuturdu. Daha 1-2 gün keçdi və tələb qoyuldu ki, məqalələrimin mövzuları Xədicə İsmayılova ilə razılaşdırılmalıdır. Məni alçaltmaq istəyirdilər...

Oktyabrın ortalarında artıq sular durulmuşdu: büronun rəhbəri mənə "yazmağı dayandır" dedi. Guya X. İsmayılova radionu tərk edəndən sonra mənə



redaktor tapılmırmış. Sonra isə məsələ bir qədər də sadələşdi: şərt sadə idi: "Nə zaman Azərbaycana qayıdarsan, onda əməkdaşlığı davam etdirərik".

Budur, xeyli vaxtdır vətəndəyəm. Bunu əməkdaşlarının sosial şəbəkələrdə fəaliyyətinə qədər izləyən AzadlıqRadiosunun rəhbərliyi də bilməmiş deyil. Amma deyəsən, frilanser müqaviləsi-filan yada düşmür. Çünki mənim Azərbaycana qayıdacağımı ağıllarına da gətirmirdilər, o da mümkündür ki, "bəzilərinin" hikkəsi mənim radioda fəaliyyətimin bərpası məsələsində sipər olub. Sözüm dostlarımadır: Qələmim əlimdə, cəsarətim özümlədir. Yola davam!"

**Onu da qeyd edək ki, H.Babalı X.İsmayılla arasında qalmaqala səbəb olan birinci statusu sentyabrın ortalarında yazmışdı. Həmin statusunda H.Babalı X.İsmayılı Azərbaycandan beynəlxalq mükafatların hamısına sahiblənməkdə ittiham etmişdi:** "Sanki Azərbaycanda və bəlkə də dünyada başqa bir söz və mətbuat azadlığı uğrunda, korrupsiyaya qarşı mübariz yoxmuş kimi, çoxumuzun adını ilk dəfə eşitdiyimiz bütün mükafatlar ona - Xədicə İsmayılovaya verilir.

Nədir bu zəfər yağışının səbəbi? Nədən hamı, sözü bir yerə qoyubmuş kimi, ödülləri ona təqdim edir?

Cavab çox sadədir: Xədicə xanım "beynəlxalq mükafat korrupsiya sxeminin" ulduzuna çevrilib.

Hazırda Xədicə İsmayılova bir mükafatın istisindən azad olmamış o birini yaşayır. Bəziləri deyir ki, onun uğuru Azərbaycanda jurnalistikanın inkişafına təkan verəcək, yeni-yeni peşəkar jurnalistlərin yetişməsinə yol açacaq. Mən isə başqa fikirdəyəm: nə qədər ki, Xədicə və xaricdə ona dəstək verən dostları var, bunu gözləməyinə dəyməz".

Xədicə İsmayılla gənc jurnalist Fidan Afər arasında da konflikt yaşanıb. Belə ki, Xədicə İsmayıl öz twitter hesabında prezident və xanımı ilə bağlı təhqir yayımı iddiası ilə "Show Radio"nun Türkiyə Televiziya Ali Şurası tərəfindən cəzalandırılması ilə bağlı xəbərə münasibət bildirib və hakimiyyət əleyhinə fikirlər səsləndirib. X.İsmayılın həmin fikirlərinə tənqidi rəy bildirən Fidan Afər qarşı tərəfin daha kəskin mövqeyi ilə qarşılaşıb. Fidan Afərin "Hər kəs bilir sən kimin əlaltısısan" sözündən sonra Xədicə İsmayıl da öz növbəsində onun profilini özünün facebook səhifəsində paylaşaraq bot profil adlandırıb. Daha sonra profilin gerçək istifadəçi tərəfindən istifadə olduğunu nəzərə alaraq troll adlandırıb: "Troll - komanda ilə hərəkət edən sosial şəbəkə istifadəçisidir. İnsan olmağına insandır, amma komanda ilə hərəkət edir. Bot isə canlı deyil. Bəli, bu xanım troldur. Üstəlik, twitter istifadəçi adı da avtomatik - kompüterdə təsadüfi nömrələmə ilə yaradılıb, bu da kütləvi profil yaratma zamanı baş verən haldır - belə profillərə bot deyilir".

**"Yeni Müsavat" bu qalmaqalla bağlı gənc jurnalistin özü ilə əlaqə saxlayıb. O bildirib ki, tənqidi fikir yazdığına görə Xədicə İsmayıl tərəfindən təhqir olunub:** "Xədicə İsmayıl "Show Radio"da yayımlanan verilişi müdafiə etdi, mən də ona tənqidi münasibətimi bildirdim. "Sən kimsən, sən tapşırıqları haradan alırsan" deyə, sual yazdım, onu sadəcə tənqid etdim. O isə mənim twitter profilimi facebookda paylaşaraq bot profil adlandırdı. Ancaq bu bot profil deyil, mən 4 ildir ki, həmin twitter profilimi işlədirəm. Sadəcə, o rəqəmlərdən ibarət istifadəçi adının fərqinə varmamışam, o, mənim üçün önəmli də deyil. Twitter hesabı açanda bu şəbəkə həmin rəqəmlərlə olan kodlaşmanı özü verir. Texnologiya ilə məşğul olan istənilən insan bunu bilir. Xədicə İsmayıl da bundan istifadə edərək sübut etməyə çalışır ki, mənim profilim botdur. Sonradan isə sözünü dəyişərək bildirdi ki, profil əvvəlcə bot olub, sonra da dəyişdirilərək mənə verilib. Mən öz fikrimi yazdığım üçün o, məni blok elədi, bununla da öz jurnalist etikasını göstərmiş oldu. Üstəlik, haqsız olduğunu gördü və facebbokda məni blokladı".

❑ **TURQUT, BANU**
**"Yeni Müsavat"**

# Divara qısnanmış Trampın cırmaq atması



**Xalid KAZIMLI**

**Belə hadisələrə "aydın səmada çaxan şimşək" deyirlər. ABŞ Maliyyə Nazirliyinin Rusiyadan olan siyasətçilərə və biznesmenlərə sanksiya tətbiq etməsinə dair sənədin imzalanması bütün dünyada əks-səda doğuran şimşəyə dönüb.**

Əslində bu, gözlənilməz sanksiya və gözlənilməz siyahı deyil. Bu barədə söhbət çoxdan gedirdi. Ötən il müvafiq qanun layihəsi hazırlanmış, avqust ayında ABŞ prezidenti Trampa təqdim edilmişdi.

İndi, sadəcə, Tramp masasının üstündəki sənədi imzalayıb.

Bu hadisə ona görə Rusiyada şok effekti doğurub ki, ruslar belə bir sənədin hazırlandığını bilirdilər, amma imzalanacağını gözləmirdilər.

Onlar arxayın idilər ki, Tramp yüz cür manevr edəcək, açıq müqavimət göstərəcək və Rusiya ilə açıq konfrontasiyaya getmək demək olan sənədi imzalamayacaq.

Buna ona görə ümid böyük idi ki, Tramp gəlmiş-getmiş bütün sələflərindən daha çox Rusiyayönümlü idi, Moskvayla bütün sahələrdə dil tapmağa hazır görünürdü.

Xüsusilə də səlahiyyətinin icrasına ilk başladığı vaxtlarda Trampın açıqlamalarında Rusiyaya münasibətdə ciddi rəğbət elementləri sezilirdi.

O vaxt hesab olunurdu ki, Rusiyanın əlində Trampa qarşı ifşaedici komromatlar (məsələn, Moskva otellərində çəkilmiş seks diskləri) var və Tramp bu üzdən Putinin nazıyla oynamağa məcburdur.

Bundan başqa, Trampın seçilməsində Rusiyanın rolu barədə çox söz-söhbətlər gedirdi. (Yeri gəlmişkən, o söhbətlər hələ də bitməyib və bu xüsusda federal təhqiqat aparılır). Bu baxımdan mediada açıq mətnlə deyilirdi ki, Tramp ruslara qarşı öz vəfa borcunu yerinə yetirir.

Hər halda, Tramp ya seks qalmaqalıyla üzləşməməsi istəyi ilə, ya da ruslara minnətdarlıq duyğusuyla ən azı altı-yeddi ay Rusiyaya, Moskvaya loyal münasibət sərgilədi. Amma onun bundan artığına gücü çatmadı. Demokrat senatorlar, eləcə də bəzi respublikaçı konqresmenlər onu "Rusiyameylli" adlandıraraq divara qısnamaqda idilər.

Rusiyaya yönəlik güzəştli siyasi xəttini davam etdirsəydi, Trampın impiçment edilməsi məsələsi aktuallaşacaqdı. Onsuz da impiçment söhbəti hələ onun prezident səlahiyyətlərinin icrasına başlamadığı gündən gedir. Onun sonrakı ekstravaqant hərəkətləri, dəlisov, impulsiv addım və qərarları hər gün bir az daha bu şəxsin ABŞ prezidenti kürsüsünə layiq olmadığını göstərirdi.

Bunun üstündən o, "Rusiya ilə dost-qardaş olmalıyıq" deyə israr etsəydi, kürsü əldən gedəcəkdi.

Bu baxımdan Tramp varlı və yüksək mənsəbli ruslara qarşı tətbiq ediləcək sanksiya ilə əslində özünü, vəzifəsini qorumuş olur.

İndi talein ironiyasına baxın, keçən il bu vaxt qatı antirus mövqeli Hillari Klintondansa "Rusiyanın adamı" hesab olunan Trampın seçilməsindən, vəzifəsinin icrasına başladığı ilk günlərdə verdiyi açıqlamalardan vəcdə gələn, bunu Putinin qələbəsi sayan, öyündükcə öyünən ruslar bu gün pərt və pəjmürdədirlər.

Onlara ən güclü zərbəni məhz "öz adamları" vurdu. Ruslar belə bir addımı xanım Klintonun atacağını gözləyirdilər, amma zərbə Trampdan gəldi.

Söz yox, Rusiya da yaxın günlərdə amerikalı biznesmenlərin, senatorların və digər siyasi xadimlərin daha geniş siyahısını hazırlayıb yayacaq, "biz də bu şəxslərə sanksiya tətbiq edirik, bundan sonra onlar Rusiyaya qədəm basa bilməzlər" deyəcəklər.

Amma bu, cılız qısasçılıqdan başqa bir şey olmayacaq. Çünki ABŞ-ın sanksiyası ilə Rusiyanın sanksiyası eyni şey deyil. Bundan başqa, adı siyahıya düşən şəxslərin az qala bir ayağı Amerikadaydı. Onların çoxunun bu ölkədə mal-mülkü, bank hesabları-filanı da var. Amerikalıların isə Rusiyada heç çöpü də yoxdur, üstəlik, bu ölkəyə səfər etmək üçün əldən getmirlər.

İndi rusların bu məsələ ilə bağlı qəzəbli reaksiyalarının şahidi oluruq. Amma vəziyyətin bu duruma gəlib çıxmasının günahı onlar özləridir. İllərdir ki, ABŞ administrasiyasının belə bir addım atacağı gözlənilirdi, ruslar isə bu təhdidləri ciddiyə almırdılar. Hətta elə bilirdilər ki, aradan bir neçə il keçəcək, Krımın Rusiya tərəfindən ilhaqı, Donbasın işğalı kimi söhbətlər unudulacaq.

Təcrübə göstərdi ki, "dovşanı arabayla tutan dövlət"lər heç vaxt impulsiv qərarlar qəbul etmir, axır sözlərini əvvəldə demirlər, nəyisə edəndə, yavaş-yavaş, bişirə-bişirə edirlər.

YENİ MÜSAVAT
N 23 (6912) 31 yanvar 2018

# Facebook səhifəsini kimlər və necə oğurlayır...

## "Daha güvənli, təhlükəsiz kadrlar, avadanlıqlardan istifadə edilməlidir" - ekspert

**Yanvarın 29-da Meydan TV-nin facebook səhifəsi hakerlərin hücumuna məruz qalaraq silinib. Məlumata görə, hakerlər Meydan TV-nin facebook hesabında admin imtiyazı qazanmaqla digər istifadəçiləri hesabından silib. Həmçinin səhifəyə gələn ismarışları silməyə başlayıblar. Bir saat içərisində Meydan TV-nin facebook hesabının Azərbaycan, rus və ingilis dillərində olan səhifələri çatımsız edilib. Ümumiyyətlə isə yanvarın əvvəlindən başlayaraq Meydan TV əməkdaşlarının səhifələrinə, e-mail ünvanlarına hücumlar olunduğu bildirilir.**



Bütün olanlara görə Meydan TV-nin sosial media meneceri Həbib Müntəzir öz facebook səhifəsində status yazaraq, buna görə məsuliyyət daşıdığını və bu üzdən tutduğu vəzifədən istefa verdiyini açıqlamışdı. Lakin bir gün sonra televiziyanın səhifəsinin geri qaytarılması ilə bağlı məlumat paylaşdı:

"Meydan TV səhifəsi qayıtdı. Bütün paylaşımları siliblər, üstəlik, 100.000 izləyicini də. Yenidən toparlanıb qaldığımız yerdən davam edəcəyik. Azərbaycanda insanları məlumatlandırmaq, bacardığımız qədər həqiqətləri çatdırmaq vəzifəmizdir. Mən Meydandayam, sosial media meneceri olmasam da" .

Xatırladaq ki, ildə bir neçə dəfə bu cür olayla qarşılaşırıq. Bundan əvvəl də bir neçə xəbər saytının və yaxud nüfuzlu şəxslərin facebook hesabları ələ keçirilərək ya bütün paylaşımları silinib, ya da izləyiciləri blok edilib.

Maraqlıdır, bəs facebook səhifələri necə ələ keçirilir? Bunun qarşısını necə almaq olar?

**Osman Gündüz mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb. Ekspert qeyd edib ki, bu cür olaylar əslində cinayət məsuliyyəti yaradır:** "Bu cür hallarla rastlaşan insanlar hüquq-mühafizə orqanlara müraciət edə bilər. Yəni bu cür olaylar şəxsə və müvafiq qurumlara qarşı hüquq pozuntusudur və problem hüquq-mühafizə orqanları tərəfindən ciddi araşdırılmalıdır. Bu, onların resurslarının mənimsənilməsi, informasiya əldə edilməsinin məhdudlaşdırılması kimi dəyərləndirilə bilir. Yeni informasiya qurumlarına qarşı aparılan bu cür addıma sıravi bir hal kimi yanaşmaq doğru olmazdı. Çünki bu cür səhifələrdən insanlar informasiya əldə edirlər. Həm də özəl informasiyalar var ki, onların əldə edilməsi məsuliyyət yaradır.

O ki qaldı səhifənin ələ keçirilməsi məsələsinə, məlum olduğu kimi, texnologiya hər gün inkişaf edir və buna görə də təhlükəsizliklə bağlı məsələlərə əməl etmək lazımdır. İstənilən informasiya resursundan istifadə etmək üçün elementar təhlükəsizlik qaydaları var. Daim həmin qaydalara əməl etmək, onları yeniləmək lazımdır. Sual oluna bilər ki, əgər bütün tədbirlərə əməl olunarsa, nəsə yenə problem çıxa bilərmi? Burada əgər məqsədyönlü fəaliyyət olanda, əlbəttə ki, adi insanlar, media qurumları bu cür fəaliyyətin qarşısında tab gətirməyə bilirlər. Məsələn, bir neçə gün bundan əvvəl bir neçə internet qurumları da hücumlara məruz qalmışdı və hətta onların fəaliyyəti məhdudlaşdırıldı, sıradan çıxdı. Yeni internetdə bu cür boşluqlar çoxdur. Hakerlər də həmin sosial və ya internet qurumlarındakı boşluqlardan istifadə edir. Burada insan amili də müəyyən rol oynayır. Əlbəttə ki, informasiya resursu var, deməli, onun arxasında işləyən əl var. Həmin işləyən əllə bağlı müəyyən faktorlar ola bilər. Bunun üçün də daha güvənli, təhlükəsiz kadrlar, avadanlıqlardan istifadə edilməlidir".

Digər ekspertlər də qeyd edir ki, sosial şəbəkə izləyiciləri tanımadıqları şəxslərdən ismarışla gələn linklərə daxil olmamalıdırlar. Məlum olduğu kimi, tez-tez daha çox aktiv olan istifadəçilərə, media nümayəndələrinə pdf formatda fayllar göndərilir. Ekspertlər qeyd edir ki, istifadəçi həmin faylı açdıqda avtomatik olaraq kompüter sistemi hakerlərin nəzarətinə keçmiş olur və beləliklə kompüterində ona aid olan nə vardısa hamısı onların nəzarətinə keçir. Tövsiyə olunur ki, bu zaman həmin sistemi kompüterdən silmək üçün anındaca format etmək lazımdır. Daha sonra isə kompüterlə daxil olduğu sosial şəbəkələrin mail və parollarını dəyişməlidir. Bütün bunların baş verməməsi üçün göndərilən linklərə, pdf formatda fayllara, videofayllara daxil olmamaq lazımdır. Yalnız əmin olduqları halda linkə daxil ola bilərlər. Bunun üçün göndərilən linki facebook hesabı açıq olmadığı digər başqa "Browserə" daxil olub yoxlamaq lazımdır. Pdf formatda fayllara isə yalnız əmin olduqdan sonra daxil olmaq olar.

❑ **Xalidə GƏRAY**
**Musavat.com**



# Leyla Şıxlinskayaya sonuncu xəbərdarlıq-prosesə gəlməsə...

## Məhkəmə prosesinə gəlməyən şahidlər barəsində məcburi gətirilmə qərarı çıxarılıb

**Bakı Ağır Cinayətlər Məhkəməsində xalq artisti, aktrisa Leyla Şıxlinskayanın rəhbərlik etdiyi "Leyla Şıxlinskaya" klinikasının külli miqdarda pulunu mənimsəmədə təqsirləndirilən klinikanın sabiq işçiləri - baş mühasib Şəhla Abbasova, Səkinə Qasımova, Aytən Hüseynova, Mədinə Hüseyeva, Yelena Abdullayeva və digərinin cinayət işi üzrə məhkəmə iclası davam etdirilib.**

Musavat. com xəbər verir ki, hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən prosesdə iş üzrə 69 nəfər şahidin olduğu elan edilib. Hakim bildirib ki, onlardan, sadəcə, 13 nəfəri dindirilib. Məhkəmə prosesə gəlməyən şahidlər barəsində məcburi gətirilmə qərarı çıxarıb.

Hakim qeyd edib ki, Leyla Şıxlinskayaya da məhkəməyə gəlməsi üçün sonuncu xəbərdarlıq edilib.

Məhkəmənin növbəti iclası fevralın 8-nə təyin edilib.

Qeyd edək ki, həmin şəxslər Cinayət Məcəlləsinin 313-cü (vəzifə saxtakarlığı) və 179.3.2-ci (mənimsəmə, külli miqdarda) maddələri ilə ittiham olunurlar.

Klinikanın keçmiş işçiləri Leyla Şıxlinskayanın hüquq-mühafizə orqanlarına dörd il əvvəlki şikayəti əsasında cinayət məsuliyyətinə cəlb olunublar. Xalq artisti onları klinikanın kassasından 700 min manatlıq mənimsəmədə günahlandırır. Bu iş üzrə istintaqı əvvəlcə Daxili İşlər Nazirliyinin (DİN) Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi, daha sonra Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi aparıb.

Məhkəmənin hazırlıq iclasında təqsirləndirilən şəxslərin anket məlumatları dəqiqləşdirilən zaman Ş.Abbasova himayəsində 2 azyaşlı uşaq olduğunu deyib.

S.Qasımova da himayəsində iki azyaşlı uşaq olduğunu, Tibb Universitetində həkim işlədiyini bildirib.

A.Hüseynova subay olduğunu, lakin himayəsində bir azyaşlı uşaq olduğunu qeyd edib.

M.Hüseynova bildirib ki, ailəlidir, himayəsində iki azyaşlı uşaq var, hazırda həmin klinikada qeydiyyatçı işləyir.

Y.Abdullayeva isə söyləyib ki, himayəsində iki azyaşlı uşaq var və həmin klinikada qeydiyyatçı vəzifəsində çalışır.

# Şəhid qızını maşınla vurub öldürənin məhkəməsi başladı

## Rəhim Rəhimovun həbs müddəti uzadıldı

**Şəhid qızını maşınla vurub öldürən, hadisə yerindən qaçan, 20 gün sonra isə polisə təslim olan gənc hakim qarşısına çıxarılıb. O, iş adamının oğludur. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində ölümlə nəticələnən qəza törətməkdə təqsirləndirilən 17 yaşlı Rəhimov Rəhim Akif oğlunun cinayət işi üzrə məhkəmə iclası başlayıb.**



Hakim Novruz Kərimovun sədrliyi ilə məhkəmənin hazırlıq iclası baş tutub.

Məhkəmədə təqsirləndirilən şəxsin qanuni nümayəndəsi kimi atası Akif Rəhimov tanınıb.

Məhkəmədə məlum olub ki, Rəhim Rəhimov barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddəti fevralın 2-də başa çatır.

Məhkəmə həbs-qətimkan tədbirinin uzadılması ilə bağlı məsələyə baxıb. Məhkəmənin qərarı ilə R.Rəhimov barəsindəki həbs-qətimkan tədbirinin müddəti uzadılıb.

Məhkəmə baxış iclas fevralın 1-nə təyin edilib.

R.Rəhimov Bakı Dövlət Universitetinin tələbəsi olub.

Təqsirləndirilən şəxsin vəkili bildirib ki, zərərçəkmiş tərəfin şikayəti yoxdur.

Hadisə ötən il noyabrın 8-də Səbayel rayonu ərazisində, "Bayraq meydanı"nın ünvanında baş verib.

R.Rəhimov "Jeep Grand Cherokee" markalı 90-FO-007 dövlət nömrə nişanlı avtomobillə yolu keçmək istəyən 1975-ci il təvəllüdlü Əkbərova Könül Elton qızını vurub və piyada vəfat edib. Sürücü isə hadisə yerindən qaçıb.

Cinayət Məcəlləsinin 263-1.3 (nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs tərəfindən yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) və 264-cü (yol nəqliyyat hadisəsi yerindən qaçma) maddələri ilə ittiham edilən R.Rəhimov 21 gün sonra, noyabrı 29-da şübhəli şəxs qismində tutulub. Onun könüllü olaraq polisə təslim olduğu da deyilir.

3 uşaq anası olan mərhum Könül Əkbərova şəhid Elton Əkbərovun qızıdır. Həbs edilən R.Rəhimov iş adamı Akif Rəhimovun oğludur. Akif Rəhimov "Xırdalan Xəz" ATSC-nin rəhbəri, qardaşı Məmməd Rəhimov isə "Yeganə" şədlıq sarayının sahibidir.

❑ **İlkin MURADOV**
**Musavat.com**

YENİ MÜSAVAT
N 23 (6912) 31 yanvar 2018

# Azərbaycan qeyri-neft sektorunun inkişafından geri çəkilməyib

## Ekspert: "Valyuta ehtiyatlarımızın artması iqtisadi təhlükəsizlik üçün əsas şərtdir"

**Xəbər verdiyimiz kimi, yanvarın 29-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfrans keçirilib. Konfransda çıxış edən prezident İlham Əliyev bu il ölkənin dəmiryol infrastrukturunun Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri ilə gələcək yükləri daşımaq üçün modernləşdirilməsinə böyük həcmdə vəsaitlərin ayrılavağını qeyd edib.**

Prezident eyni zamanda bildirib ki, keçən il Azərbaycanın valyuta ehtiyatlarının artırılması istiqamətində çox ciddi addımlar atılıb: "Baxmayaraq ki, keçən il büdcəmiz də builki kimi deyildi, bundan az idi, eyni zamanda neftin qiyməti də hələ aşağı səviyyədə idi, biz düzgün siyasət, maliyyə sahəsində nizam-intizamı gücləndirmək nəticəsində valyuta ehtiyatlarımızı 4,5 milyard dollar artırmışıq. Əminəm ki, bu il valyuta ehtiyatlarımız əhəmiyyətli dərəcədə artacaq".

Daha sonra dövlət başçısı qeyri-neft sektorunun inkişafı istiqamətində tədbirlərin davam etdiriləcəyini qeyd edib.

**Prezidentin konfransdakı çıxışını "Yeni Müsavat"a şərh edən iqtisadçı-ekspert Pərviz Heydərovun sözlərinə görə, dövlət başçısının çıxışında regionların inkişafının gələcəkdə də diqqət mərkəzində olacağı vurğulanıb:** "Nəqliyyat dəhlizlərinin modernləşməsi üçün görülən və görüləcək işlərin, Azərbaycan hökumətinin bu layihələrə belə böyük diqqət ayırmasının əsas səbəblərindən biri də onların regionların inkişafında oynayacağı böyük rolu nəzərə almalarıdır. Bildiyiniz kimi, prezident Qəbələdəki aeroporta da diqqət çəkib. Qəbələ bu gün Bakı şəhərindən sonra Azərbaycanda ən çox turist cəlb edən ikinci bölgədir. Bu da onun nəticəsidir ki, bir neçə il öncə orada beynəlxalq hava limanı tikildi. Həmin vaxt bəzi iqtisadçılar həmin limanın rentabelli olmayacağını, onun Qəbələdə tikilməsinin iqtisadi əsaslanmasının olmadığını deyirdilər. Amma son 2 ildə Qəbələyə turistlərin axını göstərdi ki, bu fikirlər əsaslı deyildi. Prezident Nazirlər Kabinetinin iclasında dedi ki, o rayona dəmir yolu xətti də çəkiləcək. Beləliklə də turistlərin bölgəyə rahat gediş-gəlişi üçün əlverişli infrastruktur formalaşdırılacaq".



**Ekspert deyir ki, 2004-cü ildən bəri Azərbaycanda regionların sosial-iqtisadi inkişafına dair 3 proqram qəbul olunub:** "Birinci proqram qəbul olunanda Azərbaycanın valyuta ehtiyatlarının həcmi 1,8 milyard dollara güclə çatırdı. Heç bir dövlət bu qədər valyuta ehtiyatı ilə belə böyük yükün altına girməzdi. Lakin Azərbaycan hökuməti bu yükün altına girdi və proqramları da uğurla icra etdi. İndi bizim valyuta ehtiyatlarımızın həcmi 42 milyard dollardır - o vaxtdan bəri 23 dəfə artıb. Həm böyük regional əhəmiyyətli neft-qaz layihələrinin icrasına, həm irihəcmli sosial, infrastruktur layihələrinə pul qoyulub, həm də valyuta ehtiyatlarımızın həcmi artırılıb. Düzdür, burada neft-qaz sektorundan əldə edilən gəlirlərin də rolu olub, lakin gəlirlərin toplanaraq ehtiyat bazasının yaradılması böyük işdir və Azərbaycan bunu bacarıb. Valyuta ehtiyatlarımızın 42 milyard dollar olması onun ümumi daxili məhsulumuza bərabər olması deməkdir. Bu ehtiyatlar bir gün beynəlxalq miqyasda yarana biləcək problemlərdən, yaxud hansısa bu və ya digər daxili problemlərdən irəli gələ biləcək böhrandan sığortalanmağımızda mühüm rol oynayır. Dövlət başçısı da qeyd etdi ki, 2014-cü ildən neftin qiymətinin düşməsindən yaranan vəziyyətə baxmayaraq, biz öz ehtiyatlarımızı artıra bilmişik. Valyuta ehtiyatlarının artması ölkənin iqtisadi təhlükəsizliyi üçün ən başlıca şərtlərdən biridir".

**P.Heydərovun sözlərinə görə, İ.Əliyevin Davosdakı, ardınca konfransdakı çıxışı göstərir ki, hökumət qeyri-neft sektorunun inkişaf etdirilməsi planlarından geri çəkilmək niyyətində deyil:** "Bu çıxışlardan aydın olur ki, artıq Azərbaycan hökuməti neftdən "əlini üzüb". Yeni neft gəlirlərinə bel bağlanmır daha. Bu isə o deməkdir ki, Azərbaycan çox qısa müddətdə öz ixrac potensialını qeyri-neft sektoruna kökləməlidir. Əgər biz heç olmasa 2020-ci ilədək buna nail olmasaq, ölkə iqtisadiyyatı hər an 2014-cü ildən sonrakı vəziyyətə düşə bilər. Düzdür, qeyri-neft sektorunda ciddi nəticələr əldə etmək üçün uzun müddət tələb olunur. Lakin bizə sürətlə işləmək, bu istiqamətdə görülən işləri bir qədər də sürətləndirmək lazımdır".

❑ **DÜNYA,**
❑ **"Yeni Müsavat"**

# IQ testləri gerçək zəkanı ölçə bilirmi?

## Azad İsazadə: "Yüksək IQ-ə malik olan insanlar başqa psixoloji və ya sosial problem yaşayır, bunun üçün də cəmiyyətdə özlərinə yer tapa bilmirlər"

**IQ hərf birləşməsi ingilis dilində "intelligence quotient" sözünün baş hərfləridir və mənası İntellekt əmsalı deməkdir. İntellekt əmsalı insanın malik olduğu intellekt qabiliyyətinin kəmiyyət göstəricisidir. İnsanın IQ səviyyəsini ölçmək üçün xüsusi testlər mövcuddur. IQ testləri bilik səviyyəsini yox, düşünmə qabiliyyətini aşkar etməyə xidmət edir. İntellekt əmsalı ümumi intellekt faktorunun qiymətləndirilməsi üçün tətbiq edilir.**



Tarixə nəzər salsaq, XX əsrin əvvəllərində Fransada hökumət psixoloq Aldred Binetə uşaqların əqli bacarıqlarını ölçmək üçün testlər hazırlamasını tapşırır. Bu məqsədlə Alfred Binet tərəfindən hazırda "IQ-test" adı ilə məşhur olan test hazırlanır. Test yalnızca Fransada deyil, ABŞ-da da məşhurluq qazanır. Artıq 1917-ci ildə ABŞ hərbi qüvvələri əsgərlərin təsnifatı üçün IQ-testlərdən istifadə etməyə başladı. Bu testdən 2 milyondan çox insan keçmişdi. Daha sonradan universitetlər və özəl şirkətlər abituriyentlərin və potensial tələbələrin yoxlanılmasında IQ testlərdən istifadə etməyə başlayır.

Məlumat üçün bildirək ki, IQ testin iki növü vardır: birinci növ 10 yaşdan 12 yaşa qədər olan uşaqların, ikinci növ isə 12 yaşdan böyük olan uşaqlar və böyüklər üçün nəzərdə tutulub. Burada yalnızca sualların çətinlik dərəcəsi dəyişir, metodika isə eynidir. Hər test çoxsaylı müxtəlif tapşırıqlardan ibarətdir və 100-120 dərəcəlik qiymətləndirməni əldə etmək üçün testin hamısını deyil, yarısını həll etmək kifayətdir. Testin həll edilməsi üçün 30 dəqiqə tələb olunur. Ən etibarlı nəticələr 100-130 bal diapozonunda əldə edilən nəticələrdir. İQ qiyməti 70-dən kiçik olan şəxslər əqli cəhətdən geri qalmış hesab olunur.

**Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan psixoloq Azad İsazadə isə bildirdi ki, IQ səviyyəsinin aşağı və ya yuxarı olması prinsipial olaraq heç nəyin göstəricisi deyil:** "IQ testi praktiki şəkildə insanın intellektini ölçən bir testdir. Amma bu testi peşəkarlar keçirməlidir. Digər tərəfdən, bu, test hər hansı məqsəd üçün keçirilməlidir. IQ test müxtəlif suallar əsasında qurulur, bu suallar da düzgün tərcümə olunmalıdır. İnternetdə gerçək IQ-ni təyin etmək mübahisəli məsələdir. Biz internetə həddindən artıq bağlıyıq. Hətta insanlar səhhətində yaranan problemlərlə bağlı, hər hansı nahiyəsi ağrıyanda internetdə axtarış verir, oradan məsləhətlər əldə edir. Və ya həkimdə hər hansı diaqnoz qoyulubsa, onu da internetdə yoxlayır. Sözsüz ki, hər bir müayinəni və testi peşəkar adam keçirməlidir. IQ-nin aşağı və ya yuxarı olması prinsipial olaraq heç nəyin göstəricisi deyil. Çünki yuxarı IQ olan insanlar ayrı psixoloji və ya sosial problem yaşayırlar və bunun üçün də cəmiyyətdə özlərinə yer tapa bilmirlər".

**Psixoloqun sözlərinə görə, orta IQ səviyyəsinə malik olan insanlar isə çox rahat və sərbəst yaşaya bilərlər:** "IQ testi çox şərti bir testdir və onu müxtəlif məqsədlərlə keçirmək olar. Məsələn, işçi seçərkən, əgər bizim işimizdə yüksək intellektli insanlar lazımdırsa, bu testi keçirmək olar. Dəfələrlə rastlaşdığım haldır ki, pasientlərim internetdə özlərinin IQ səviyyəsini yoxlayıblar, sonra pərt şəkildə yanıma gəliblər ki, niyə intellektimiz belə azdır. Problemlərinin üstünə bir dənə də əlavə problem gəlib".

❑ **Nərgiz LİFTİYEVA,**
❑ **"Yeni Müsavat"**

## Əmtəə Birjası iddialara cavab verdi

**Respublika Xammal və Əmtəə Birjasından "Yeni Müsavat" qəzetinin 30 yanvar tarixli sayında dərc olunan məqalədə səslənən fikirlərə cavab gəlib.**

"Bağlanan bankların əmlakının şübhəli hərracı..." başlıqlı yazıda qeyd olunur ki, bəzən hərraclarda bankların əmlakının dəyəri qəsdən dəfələrlə az qiymətləndirilir və hərracda onu alacaq şəxslərlə razılaşmalara gedilir. Bundan başqa, bankın əmlakının satılması ilə bağlı hərraclarda həmin bankın kreditorlarının, ekspertlərin və KİV nümayəndələrinin iştirakı məsələsi də yazıda sual olaraq qoyulmuşdu.

Respublika Xammal və Əmtəə Birjasından baş direktoru Nigar Hacıyeva "Yeni Müsavat"a açıqlama verərək bildirib ki, təmsil etdiyi qurumun keçirdiyi hərraclar kütləvi informasiya vasitələrinin üzünə açıqdır: "KİV nümayəndələri və ekspertlər keçirdiyimiz bütün hərraclarda iştirak edə bilərlər. Hərraclarımız barədə onlayn məlumatlar yayılır, həmçinin birjanews.az saytında məlumatlar yerləşdirilir. Eyni zamanda facebook-da bu barədə məlumatlar əldə etmək mümkündür. Hərraclara istənilən vətəndaş vaxtında müraciət edib, hərrac qaydalarına uyğun formada istədiyi əmlakı əldə etmək hüququna malikdir".

❑ **Nərgiz LİFTİYEVA,**
❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT

# Son səhifə

N 23 (6912) 31 yanvar 2018




## İşdə bunları etsəz... problem yaşamayacaqsız

İsveç alimləri sübut etmişlər ki, rəhbərlik və yaxud digər əməkdaşlar tərəfindən ədalətsiz davranışla üzləşən insanlar öz qəzəbini boğduqda belə insanlarda ürək tutmaları riski 2 dəfə artır.

Şərqi İngiltərə Universitetinin tədqiqatçıları isə belə nəticəyə gəlmişlər ki, işdə hiddəti büruzə verməklə əməkdaşlar stressin öhdəsindən daha yaxşı gəlirlər. İşdə yaranan mübahisələr isə komanda ruhunu möhkəmlədir.

İş yoldaşlarınızdan kimsə sizə əyləncəli video göndərdikdə onu vicdan əzabı ilə deyil, rahatlıqla izləyin. Bir çox araşdırmalar sübut edir ki, gün ərzində əyləncəli videolar izləmək əhvalınızı qaldırır və özünüzü yaxşı hiss etməyinizə səbəb olur. Bu növdə olan videoçarxları daha sakit, əmin və böyük məhsuldarlıqla izləyə bilərsiniz.

Əgər hazırda işlədiyiniz layihə ilə bağlı yeni ideyalarınız və yaxud xəbərləriniz varsa, bununla bağlı paylaşımlar edin. Bu sizin xeyrinizə olacaq. Bununla bu layihədən yayınmanız bir az çətin olacaq. Çünki artıq bir çox dostlarınız da bu layihədən xəbərdar olacaq və daim sizdən yenilik gözləyəcək.

## Yeni kəşf - çörək kökəltmirmiş

**İsveç alimləri müəyyənləşdiriblər ki, heç də bütün çörək növləri qədd-qamətin düşməni deyildir. Onlardan bəziləri artıq çəkinin qarşısını alır və eyni zamanda iştahanı da azaldır.**



Mütəxəssislər müxtəlif dənli bitkilərdən hazırlanmış çörək-bulka məmulatlarının tərkibini öyrənmişlər. Məlum olmuşdur ki, çovdar çörəyi orqanizm üçün faydalıdır. Çovdar çörəyi şəkər, ürək-damar xəstəliklərinin inkişafının qarşısını alır və insanı tez doydurur. Çovdar və arpa çörəyi qidanın həzm olunması prosesini zəiflədir və nəticədə insan uzun müddət özünü tox hesab edir.

Bu dənli bitkilərdən hazırlanmış çörək həm də artıq çəkinin qarşısını alır. Mütəxəssislər onu da bildirirlər ki, digər məhsullar kimi bu çörəkləri də lazımi miqdarda yemək lazımdır.

## Əlil sevgilisini döydü ki, həbs olunsun

**Florida ştatının sakini Patrik Moan öz əlil sevgilisi Brendi Qreqorini sağ qulağından bərk vurub. Amma o, bu zorakılığa görə polisə müraciət edə bilmirdi, çünki hadisədən iki həftə əvvəl telefonu sındırılmışdı. Bu zaman da kişi onu yaxınlıqdakı bir mağazaya apararaq, orada vurub. Kişi sevgilisinin məhz burada polisə müraciət etməsini istəyib, çünki məqsədi türməyə girmək idi.**

Moananın həbsi barədə arayışda qeyd edilib ki, kişi əlil sevgilisinin qayğısına qalmaqdan, onu hər yerə əlil arabası ilə aparmaqdan bezibmiş. Bundan başqa, kişi qeyd edib ki, Qreqorinin yeganə hamisi olmaqdan da bezib. Onun planı belə olub ki, əgər qadını vurub, sonra da bunu etiraf edərsə, artıq onun qayğısına qalmaq zorunda qalmayacaq və əlil qız dövlətin problemi olacaq.

Qreqori isə jurnalistlərə deyib ki, sevgilisi 2 illik münasibətləri boyunca dəfələrlə ona əl qaldırıb.





## Yuxudan oyatdığı üçün körpəsini öldürdü

**Amerikada yaşayan gənc bir ana uşağı ağlayaraq oyandığı və sakitləşmədiyi üçün onu vanna otağında boğub. Bu haqda "New York Post" qəzeti xəbər verib. İndiana ştatının Uorner-Robins şəhərində baş verib. 19 yaşlı Madison Li Stüart cümə günü, yanvar ayının 26-da qız oğlunun çığırtısına oyanıb. Körpə sakitləşmədiyi üçün qız vannanı dolduraraq onu orada boğub. Uşaq 1 yaş 4 aylıq idi.**

Qızı xüsusi amansızlıqla bir körpəni öldürdüyü üçün həbs ediblər. Stüart isə polisə deyib ki, son zamanlar stressdə olub və bir çox çətinliklər yaşayıb. Bazar ertəsi günü onu Hyustondakı türməyə göndəriblər. Uşağın atası barədə hər hansı məlumat yoxdur.




**QOÇ** - Ulduzların düzümü səhhətinizdə problemlər olacağını bəyan edir. Bunun qarşısını almaq üçün ilk növbədə əsəblərinizi qorumalısınız. Nahardan sonra büdcənizdə artım gözlənilir.

**BUĞA** - Nəhayət ki, ulduzlar bürcünüzə maliyyə səxavəti göstərməyə yaxın olacaq. Saat 13-16 arası bu istiqamətdə daha əlverişli şanslar qazana bilərsiniz. Qərarlarınızda qəti olun.

**ƏKİZLƏR** - Yaxşı olar ki, fəaliyyətə ara verib daha çox istirahətlə məşğul olasınız. Bunu etməsəniz, ümumi yorğunluğunuz və daxili süstlüyünüz səngiməyəcək. Səfərə çıxmayın.

**XƏRÇƏNG** - Düşərli bir gün yaşayacaqsınız. Özünüzü nikbin səviyyədə kökləyin. Çalışın ki, ətrafda hər şeyin gözəl olduğunu duyasınız. Bu gündən etibarən taleyinizdə dönüş yaranmalıdır.

**ŞİR** - Məhəbbət aləmində romantik məqamlar yaşamaq istəyirsinizsə, bu təqvimdən maksimum yararlanın. Əmin olun ki, cəhdləriniz boşa çıxmayacaq. Riskli sövdələşmələrdən yayının.

**QIZ** - Daxili sabitliyinizi qorumaq istəyirsinizsə, keçmişdə olanları müzakirə etməyin. Onsuz da olmuşları düzəltmək mümkünsüzdür. Özünüzü sevgiyə həsr edin ki, xilas olasınız.

**TƏRƏZİ** - Mübahisəli gün olsa da, Göy qübbəsi maliyyə durumunuzda irəliləyiş olacağını bildirir. Bir şərtlə ki, kisənizdən etibarsız insanlara borc verməyəsiniz. Yoxsa müflisləşəcəksiniz.

**ƏQRƏB** - Günün birinci yarısında bütün işlərinizi yekunlaşdırmağa çalışın. Çünki sonrakı müddətdə buna imkan tapmayacaqsınız. Ulduzlar nahardan sonra maraqlı görüşlərdən xəbər verir.

**OXATAN** - Günün birinci yarısında müəyyən gərginliklə baş-başa qala bilərsiniz. Odur ki, həmin ərəfədə bütün vacib planlarınızı təxirə salmalısınız. Fəaliyyətdə öz məsuliyyətinizi anlayın.

**OĞLAQ** - Kifayət qədər məhsuldar gündür. Kiminsə işlərinizə mane olacağını ağlınıza gətirməyin. Əksinə, nəzərdə tutduğunuz planların böyük əksəriyyəti öz həllinə yaxınlaşacaq.

**SUTÖKƏN** - Planetiniz olan Uran narahat kosmik bucağa düşdüyündən fəaliyyətinizin səmərə verməyəcəyini bəyan edir. Odur ki, daha çox istirahətə yer ayırmalı, xəstəliyə təslim olmamalısınız.

**BALIQLAR** - Görüşə çıxmaq, yeni işlərə başlamaq, sövdələşmələrdə iştirak etmək üçün səmərəli vaxtdır. Çalışın ki, ürəyinizin səsinə qulaq asasınız. Ağır fiziki işlərdən uzaq olmağa cəhd edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Delfinlər onun protez əlinə heyran qaldılar

**Amerikalı protez əli ilə okeanariumdakı delfinləri şoka salıb. Bu haqda "Daily Mail" xəbər verib. Nəşrin yaydığı videodan görünür ki, qadın akvariumun şüşəsi qabağında dayanıb və öz protezini nümayiş etdirir. Bu, akvariumda üzən delfinin diqqətini cəlb edib. Delfin qadınla üzbəüz dayanıb və onun mexaniki əlinə baxmağa başlayıb. Saniyələr sonra onun ətrafına qalan delfinlər də yığılıb.**



Oktyabr ayında məlum oldu ki, Florida okeanariumundakı delfinləri onların rezervuarının qabağında hoppanan dələlər maraqlandırıb.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100